Xalqın qəzeti!

# Xalq qəzeti

№ 132 (30826) 2 iyul 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Türk iqtisadi birliyi – yeni qlobal güc mərkəzi

### *TDT ölkələrin ÜDM-i 594 milyard dollara çatıb*



***Bu il mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev respublikamızın Türk dövlətləri ilə getdikcə genişlənən əlaqələrindən danışarkən diqqəti, ilk növbədə, nəqliyyat sahəsində əməkdaşlığa yönəldib. Bildirib ki, son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna – avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulub. Nəticədə açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan Avrasiyanın nəqliyyat – logistika mərkəzlərindən birinə çevrilib. Türkiyə və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan üzərindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton olub.***

**Qlobal qeyri-müəyyənlik fonunda Türk Dövlətləri Təşkilatı (TDT) güclü iqtisadi fəaliyyət, ticarət və investisiya performansı ilə dünya iqtisadiyyatının artım tempini üstələyib. TDT-nin üzv və müşahidəçi dövlətləri – Azərbaycan, Qazaxıstan, Türkiyə, Özbəkistan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikası (ŞKTR) – birgə ÜDM həcmini 593,8 milyard dollara çatdıraraq qlobal iqtisadiyyatın 2,1 faizini təşkil edib.**

*(ardı 8-ci səhifədə)*

## Azərbaycan və Ukrayna liderlərinin telefon dialoqu



**İyulun 1-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Volodimir Zelenski Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı hücumlarda həmvətənlilərimizin qətlə yetirilməsi ilə bağlı Ukrayna ictimaiyyətinin başsağlığını çatdırıb.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib.

Prezident Volodimir Zelenski, həmçinin Ukrayna vətəndaşlarının İrandan təxliyəsi məsələsində Azərbaycanın dəstəyinə görə dövlətimizin başçısına təşəkkür edib.

Telefon söhbəti əsnasında ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparılıb, Hökumətlərarası Komissiyanın iclasının tezliklə Bakıda keçirilməsi ilə bağlı razılıq əldə olunub. Azərbaycanın və Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə bir daha qarşılıqlı dəstək ifadə edilib.

Ukrayna Prezidenti, eyni zamanda, Azərbaycanın ölkəsinə göstərdiyi humanitar yardımlara görə də minnətdarlığını bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## Müstəqilliyin və dincliyin keşiyində



səhifə ⇨ 5

## Azərbaycanda heç kəs öldürülmür!

### *Zaxarova narahat qalmasın, çünki ölkəmiz Rusiya deyil*




səhifə ⇨ 3

## Siyasi motivli, qərəzli yanaşma




səhifə ⇨ 6

## Maskaların "yarpaq tökümü"



səhifə ⇨ 7

## Yekaterinburq məşəqqəti – ikinci "Xrustal gecə"

### *Yaxud Rusiyanın kasta təfəkkürünə sözardı*




**Bəli, artıq tam qətiyyətlə demək mümkündür ki, iyunun 27-də Yekaterinburqda azərbaycanlıların Rusiya polisinin xüsusi təyinatlı dəstəsi tərəfindən qətlə yetirilmələri və kütləvi şəkildə həbs edilmələri böyük prosesin tərkib hissəsidir. Bununla bağlı bəzi məqamlardan söz açacağıq.**

**Birinci məqam.** İlk baxışdan düşünmək olar ki, Ukrayna müharibəsi fonunda dünyanı qarşısına alan ölkə savaş qaydalarına keçərək daxili mühiti sərtləşdirir ki, hərbi əməliyyatlar bölgəsində uğursuzluqlarla üzləşməsin. Ancaq durumu belə qiymətləndirməmək üçün əsaslar var. Birincisi, müharibə iki ildir davam edir, indiyədək də sərt tədbirlər görülə bilərdi. İkincisi isə azərbaycanlılara qarşı özbaşınalıqların 2001-ci ildə törədilmiş cinayətlə bağlılığı predmeti ortaya atılıb. Görünür, anti-Azərbaycan dalğasına başlamaq tapşırığı o qədər qəfil olub ki, baş verənlərdə səbəb-nəticə əlaqəsini uydurmaq ağla gəlməyib.

*(ardı 7-ci səhifədə)*

## Paşinyan–kilsə savaşında yeni mərhələ

### *Baş nazir keşişləri katolikosa qarşı yönləndirir*



Səhifə ⇨ 4

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Bakı Ağır Cinayətlər Məhkəməsi**

Əsgərova-Məmmədova Leyla Səyavuş qızı

Məmmədzadə Səbinə Adil qızı

**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**

Hüseynov Nahid Nəsir oğlu

**Sumqayıt Ağır Cinayətlər Məhkəməsi**

Rzayeva Aynur Tapdıq qızı

**inzibati məhkəmələr üzrə:**

**Bakı İnzibati Məhkəməsi**

Almazova Aysev Mehman qızı

Məlikov Tural Rauf oğlu

**Şəki İnzibati Məhkəməsi**

Hacızadə Fəxri Hümmət oğlu

Şirvan İnzibati Məhkəməsi

Hüseynova Amilya Aqil qızı

Nəcəfov Hilal Nəcəfalı oğlu

kommersiya məhkəmələri üzrə:

**Bakı Kommersiya Məhkəməsi**

Əhmədova Nərmin Məzahir qızı

**Gəncə Kommersiya Məhkəməsi**

Quliyeva Gülnaz Elxan qızı

**Sumqayıt Kommersiya Məhkəməsi**

Alıyeva Həlimə Rəşid qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**

Sadıqova Aynurə Vahid qızı

**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**

Hacıyeva Sahibə Cavid qızı

**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**

Dadaşova Şəfa Əliövsət qızı

**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**

Əlisoy Xalidə Kəramət qızı

Əfəndizadə Mehriban Xalid qızı

Tağıyeva Nərgiz Nazim qızı

**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**

İmanova Nigar Arzu qızı

Qədirova Şəbnur Şakir qızı

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Ağcabədi Rayon Məhkəməsi**

Nuriyev Rəşad Mövsüm oğlu

**Bərdə Rayon Məhkəməsi**

Babaşov Fuad Bəhruz oğlu

**Gəncə Şəhər Məhkəməsi**

Cəfərli Orxan Nazim oğlu

Əliyev Asif Əmrah oğlu

Quliyev Camal Yusifəli oğlu

Səfərli Xədicə Əlicabbar qızı

**Goranboy Rayon Məhkəməsi**

Mustafayev Taleh Məhəmmədəli oğlu

**Xaçmaz Rayon Məhkəməsi**

Qasımova Vüsalə Yadigar qızı

**Qusar Rayon Məhkəməsi**

Cəlilov Əli İsa oğlu

**Lənkəran Rayon Məhkəməsi**

Ağabəyov Nicat Rauf oğlu

Aslanov Murad Şamxal oğlu

**Mingəçevir Şəhər Məhkəməsi**

Cəbrayılzadə Elza Vaqif qızı

**Sabirabad Rayon Məhkəməsi**

Allahverdiyev Səlim Məhərrəm oğlu

**Şəmkir Rayon Məhkəməsi**

Məmmədova Şəfəq Ənvər qızı

**Şirvan Şəhər Məhkəməsi**

Məmmədova Səidə Hüseynağa qızı

**Tovuz Rayon Məhkəməsi**

Əliyev Fərid Nadir oğlu

**Yevlax Rayon Məhkəməsi**

Əliyev Kamil Çingiz oğlu.

Bu Sərəncam 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 iyul 2025-ci il**

# Ruanda Respublikasının Prezidenti Zati-aliləri cənab Pol Kaqameyə

**Hörmətli cənab Prezident!**

Ruanda Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Azərbaycan ilə Ruanda arasında münasibətlərin dinamik inkişaf etməsi məmnunluq doğurur. Keçən ilin noyabrında COP29-da iştirak etmək üçün Azərbaycana həyata keçirdiyiniz səfər çərçivəsində Bakıda Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini və müzakirələri xoş təəssüratlarla xatırlayıram.

Bu gün Azərbaycan-Ruanda əlaqələrinin və qarşılıqlı faydalı əməkdaşlığının əhatə dairəsinin genişləndirilməsi üçün yaxşı imkanlar mövcuddur. İnanıram ki, dostluq münasibətlərimizin inkişafı, əməkdaşlığımızın dərinləşdirilməsi yolunda birgə səylərimiz bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 iyun 2025-ci il**

# Somali Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Həsən Şeyx Mahmuda

**Hörmətli cənab Prezident!**

Somali Federativ Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Somali arasında münasibətlər son dövrdə yüksələn xətt üzrə inkişaf edir. Fevral ayında Sizin ölkəmizə rəsmi səfəriniz dövlətlərarası əlaqələrimizin tarixində xüsusi yer tutur. Mən Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram.

Hazırda Azərbaycan-Somali ikitərəfli münasibətlərinin gündəliyinin genişləndirilməsi üçün yaxşı şərait formalaşmışdır. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə əməkdaşlığımızın inkişafı istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm can-sağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 iyun 2025-ci il**

# Birinci Özbəkistan–Azərbaycan Parlamentlərarası Forumu



**İyulun 1-də Özbəkistanın Xivə şəhərində Birinci Özbəkistan-Azərbaycan parlamentlərarası forumunun açılış mərasimi keçirilib.**

İki ölkənin qanunverici orqanları rəhbərlərinin və deputatlarının iştirak etdikləri tədbirdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova forumun iki ölkənin parlamentləri üçün çox əlamətdar hadisə olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, bu tədbir Azərbaycan Milli Məclisinin hər hansı digər ölkənin qanunverici orqanı ilə keçirdiyi ilk forumdur.

Xalqlarımız və ölkələrimiz arasında münasibətlərin dərinləşməsində ümummilli lider Heydər Əliyevin böyük xidmətlərini vurğulayan Sahibə Qafarova deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ildə Özbəkistana dövlət səfəri zamanı açılışı olan Daşkənddəki Heydər Əliyev meydanı Ümummilli liderimizin xidmətlərinin etirafı olmaqla yanaşı, həm də özbək xalqının onun şəxsiyyətinə olan ehtiramının sübutudur.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu bildirən spiker deyib ki, bu gün iki ölkənin liderləri - Prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin müdrik rəhbərliyi ilə dövlətlərimiz hər cəhətdən müstəqil və güclü dövlətlər kimi inkişaf etməklə yanaşı, ölkələrimiz arasında əlaqələr daha da dərinləşib.

Hazırda ölkələrimiz arasında ikitərəfli münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini söyləyən Sahibə Qafarova xatırladıb ki, Prezident İlham Əliyevin 2024-cü ilin avqustunda Özbəkistana dövlət səfəri zamanı imzalanan Müttəfiqlik münasibətləri haqqında Müqavilə ilə Azərbaycan və Özbəkistan rəsmən müttəfiq olublar. O, Prezident İlham Əliyevin bu gün Mərkəzi Asiya və Cənubi Qafqaz regionunun, Xəzər dənizinin vahid geosiyasi regiona çevrilməsi və regionlarımızda gedən müsbət proseslərin Özbəkistan və Azərbaycan arasında səmərəli əməkdaşlıqdan daha çox asılı olması haqqında fikirlərini xatırladaraq əlavə edib ki, ötən ilin oktyabrında Azərbaycan parlamenti müttəfiqlik müqaviləsini yekdilliklə ratifikasiya edib.

Azərbaycan-Özbəkistan münasibətlərində digər mühüm məqam kimi Özbəkistanın Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qəti və dəyişməz mövqeyini vurğulayan Sahibə Qafarova deyib ki, Azərbaycan xalqı həm ərazilərimizin Ermənistan tərəfindən işğalı illərində, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də müharibədən sonrakı dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edib. Onun sözlərinə görə, Özbəkistan işğaldan azad edilmiş Füzuli şəhərində Prezident Şavkat Mirziyoyevin təşəbbüsü ilə özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyan məktəb tikərək, işğaldan azad edilmiş ərazilərin bərpasına töhfə verən ilk ölkə oldu. Spiker istər bu məktəbi, istərsə də işğaldan azad edilmiş Xankəndi şəhərində yaradılmış yüngül sənaye müəssisəsini xalqlarımız arasında qardaşlıq və dostluq rəmzləri kimi xarakterizə edib.

Forumda çıxış edən Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva tədbirin, sadəcə, parlamentlərarası görüş deyil, əlaqələrimizin inkişafı tarixində mühüm mərhələ olduğunu bildirib. O, tədbirin Özbəkistan və Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi ərəfəsində keçirildiyini və bu məqamın da forumun əhəmiyyətini bir daha göstərdiyini söyləyib. Tənzilə Narbayeva deyib ki, forumun bu günlərdə keçirilməsi bizim parlament dəyərlərinə ümumi sadiqliyimizi və ölkələr arasında dostluğun əsas amillərindən biri kimi parlamentlərarası əməkdaşlığı gücləndirmək istəyimizi ifadə edir

Ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəsi haqqında da fikirlərini bölüşən Tənzilə Narbayeva vurğulayıb ki, Özbəkistanla Azərbaycan arasında münasibətlər həmişə ortaq tarixi, mədəni və mənəvi dəyərlər üzərində qurulub. Bu əlaqələr xalqlarımızın dostluğu, qarşılıqlı hörməti və qardaşlıq hissləri ilə daha da möhkəmlənir.

Senatın sədri çıxışında, həmçinin parlamentlərimiz arasında mövcud olan əlaqələr haqqında da danışaraq qeyd edib ki, parlamentlərimizin qarşılıqlı fəaliyyəti ölkələrimiz və xalqlarımız arasında münasibətlərin daha da genişlənməsinə xidmət edir.

Sonra forum işini sessiyalarda müzakirələrlə davam etdirib.

***XQ***

# Azərbaycan–Özbəkistan: parlament dialoqu genişlənir

**Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistanın Xivə şəhərində bu ölkənin Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşüb.**



Görüşdə Birinci Özbəkistan-Azərbaycan Parlamentlərarası Forumunun əhəmiyyəti yüksək qiymətləndirilərək, tədbirin parlamentlərimiz arasında səmərəli əməkdaşlıq mexanizminə çevriləcəyinə inam ifadə edilib.

Söhbət zamanı ölkələrimiz və xalqlarımız arasında münasibətlərin yüksək səviyyəsindən razılıq ifadə olunub. Vurğulanıb ki, bu əlaqələr xalqlarımız arasında oxşar tarixi, dini, mədəni dəyərlərə söykənir. Parlament sədrləri əlaqələrimizin dərinləşməsində ölkə başçılarının rolunu xüsusi qeyd edib, Azərbaycan və Özbəkistan prezidentlərinin yüksək iradəsi sayəsində ikitərəfli münasibətlərimizin yeni mərhələyə daxil olduğunu bildiriblər. Diqqətə çatdırılıb ki, iki ölkənin prezidentlərinin mütəmadi təmasları, qarşılıqlı səfərləri ölkələrimiz arasında əlaqələrin daha da dərinləşməsini təmin edib və bu gün ölkələrimiz bir çox sahələrdə uğurla əməkdaşlıq edirlər.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də uğurla davam etdirildiyi qeyd olunub. Vurğulanıb ki, bu görüşlər və deputatlar arasında təmaslar əlaqələrin inkişafına töhfə verir.

Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva da Forumu qanunverici orqanlarımız arasında əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi qiymətləndirib.

***XQ***

# Azərbaycan beynəlxalq inkişafa fəal yardım göstərir




**İspaniyanın Sevilya şəhərində keçirilən BMT-nin İnkişaf üçün Maliyyələşdirmə üzrə IV Beynəlxalq Konfransında İnkişafın maliyyələşdirilməsinə dair "Sevilya öhdəliyi" sənədi qəbul edilib.**

Azərbaycan nümayəndə heyətinin rəhbəri, Baş nazirin müavini Samir Şərifov iyulun 1-də konfransın plenar iclasında çıxış edib. S.Şərifov davamlı inkişafın maliyyələşdirilməsinə həsr olunmuş tədbirin vacibliyini vurğulayaraq, Azərbaycan Hökumətinin 3-cü konfransdan ötən dövrdə "2030-Davamlı İnkişaf Gündəliyi"nin icrası üzrə Azərbaycanın həyata keçirdiyi tədbirlər haqqında məlumat verib.

Bildirilib ki, Azərbaycan dünyada Davamlı İnkişaf Məqsədlərinin icrası üzrə 4-cü Könüllü Milli Hesabatını təqdim edən ilk 5 ölkə sırasındadır, regionda isə birincidir. Ölkəmiz Milli Maliyyələşdirmə Çərçivəsi və "DİM İnvestor Xəritəsi" kimi təşəbbüslərin tətbiqi nəticəsində icmal büdcə xərclərinin 80 faizindən çoxunun DİM-ə uyğunlaşdırılmasına nail olub.

Baş nazirin müavini qeyd edib ki, Ermənistanın təcavüzünə məruz qalmış və ərazilərinin 20 faizi 30 illik işğal altında olmuş Azərbaycan 2020-ci ilin noyabrında işğala son qoyduqdan və ərazi bütövlüyünü bərqərar etdikdən sonra işğaldan azad etdiyi ərazilərinin bərpasına başlayıb, təcavüz nəticəsində bu ərazilərdən didərgin salınmış soydaşlarımızın doğma şəhər və kəndlərinə qaytarılması üzrə Böyük Qayıdış Dövlət Proqramını həyata keçirir. Bu günədək proqramın icrasına dövlət büdcəsindən 15 milyard ABŞ dolları məbləğində vəsait sərf olunub.

S.Şərifov daha sonra bildirib ki, Azərbaycan Hökumət Komissiyasının qiymətləndirməsinə əsasən, hərbi təcavüz və işğal Azərbaycana 150 milyard ABŞ dolları dəyərində zərər vurub. Zərərin 15 faizdən artıq hissəsi ərazilərin minalarla çirklənməsi ilə bağlı olduğundan Azərbaycan Prezidenti İlham Əliyevin qərarı ilə mina təhlükəsizliyi Azərbaycan tərəfindən 18-ci milli DİM kimi qəbul edilib və bu yanaşma digər ölkələrə də tövsiyə olunub.




Baş nazirin müavini konfrans iştirakçılarının diqqətinə çatdırıb ki, azad olunmuş ərazilərin bərpası ilə əlaqədar Azərbaycan Hökumətinin üzərinə kifayət qədər yüksək maliyyə yükünün düşməsinə baxmayaraq, ölkəmiz beynəlxalq inkişafa yardım sahəsində fəal rol oynamaqda davam edir. Belə ki, Azərbaycan son 5 ildə inkişaf etməkdə olan ölkələrə 350 milyon ABŞ dollarından çox yardım göstərib.

Sonda S.Şərifov Azərbaycanın inkişaf naminə çoxtərəfli əməkdaşlıqda bundan sonra da fəal iştirak edəcəyini və DİM-ə nail olmaq üçün öz töhfəsini verəcəyini bildirib.

Xatırladaq ki, Sevilya konfransı 164 dövlətin və 49 beynəlxalq təşkilatın nümayəndələrini bir araya gətirərək Monterrey (2002-ci il), Doha (2008-ci il) və Əddis-Əbəbədən (2015-ci il) sonra BMT-nin inkişafın maliyyələşdirilməsi üzrə dördüncü böyük tədbiridir.

# Xalqımız Yekaterinburq zorakılığını ittiham edir

## Soydaşlarımızın qətli ilə bağlı Rusiyaya nota verilib

*Qarşı tərəf Azərbaycanın daxili işlərinə qarışmamağa çağırılıb*

**İyulun 1-də ölkəmizin Rusiyadakı səfiri Rəhman Mustafayevin Rusiya Xarici İşlər Nazirliyində görüşündə, ilk növbədə, Yekaterinburqda qanunun ciddi şəkildə pozularaq aralarında həm Azərbaycan, həm də Rusiya vətəndaşları olan soydaşlarımızın qətli və xüsusi qəddarlıqla döyülərək xəsarət almaları ilə bağlı Azərbaycanın etiraz notası qarşı tərəfə təqdim olunub.**



Bu sözləri XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə yerli medianın sorğusuna cavabında bildirib. O vurğulayıb ki, notada bununla yanaşı, Rusiya hüquq-mühafizə orqanları tərəfindən həmvətənlərimizin dindirilməsi zamanı tətbiq edilən işgəncə və ləyaqəti alçaldan hərəkətlərdən istifadəyə görə qəti etiraz bildirilib. Hüquq-mühafizə orqanlarının bu hərəkətlərinin Rusiya qanunvericiliyinin və beynəlxalq səviyyədə qəbul olunmuş əsas insan hüquq və azadlıqlarının pozuntusu olduğu diqqətə çatdırılıb. Bununla yanaşı, reydlərin təşkili və keçirilməsi zamanı azərbaycanlılara qarşı nümayiş etdirilən etnik dözümsüzlük, bu kimi halların Rusiya mediasında işıqlandırılmasının ciddi narahatlıq doğurduğu bildirilib.

Rusiya hüquq-mühafizə orqanlarının qanunsuz hərəkətlərinin, həmvətənlərimizin qətlinin və ağır yaralanmasının Azərbaycan ictimaiyyətində son dərəcə mənfi reaksiyaya səbəb olduğu qeyd edilib. Rusiya tərəfindən bu hücumların hərtərəfli və obyektiv araşdırılması, habelə təqsirkarların Rusiya Federasiyasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb edilməsi üçün təcili tədbirlər görülməsi tələb olunub.

"Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin filialı kimi təqdim edilən "Sputnik-Azərbaycan"ın ofisində həyata keçirilən tədbirlər ilə bağlı səfir öz növbəsində ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

Qeyd edilib ki, Azərbaycanın hüquq-mühafizə orqanlarının ofisdə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ölkəmizin qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə tam uyğundur. Məlum olduğu kimi, bu il fevralın 12-də "Rossiya seqodnya" beynəlxalq informasiya agentliyi" Federal Dövlət Unitar müəssisənin Bakı filialının rəhbəri XİN-ə çağırılaraq, onların ölkəmizdə filial və nümayəndəlik kimi fəaliyyət göstərməsi üçün hüquqi əsas olmadığı diqqətə çatdırılıb və filialın fəaliyyətini 3 gün ərzində dayandırması haqqında bildiriş qarşı tərəfə təqdim edilib. Buna baxmayaraq, qeyd edilən filialın akkreditasiyası ləğv olunmuş Rusiya vətəndaşları və filial qanunsuz şəkildə fəaliyyətini davam etdirib.

Daxili İşlər Nazirliyinin məlumatında da vurğulandığı kimi, hazırda sözügedən qanunsuz fəaliyyət ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanılıb və istintaq tədbirləri davam etdirilir.

Bununla əlaqədar, Rusiya tərəfinin narazılığının heç bir əsası olmadığı diqqətə çatdırılıb və Rusiya tərəfi Azərbaycanın daxili işlərinə qarışmamağa çağırılıb.

Rusiya hüquq-mühafizə orqanlarından fərqli olaraq, Azərbaycan tərəfinin tədbirlərinin və onların həyata keçirilmə tərzinin tam qanuni olduğu bildirilib.

Ümumilikdə Rusiya tərəfindən həyata keçirilən qeyd edilən fəaliyyət və hərəkətlərin iki ölkə arasında ikitərəfli münasibətlərə zidd olduğu xatırlanıb.

*

**XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin Rusiya Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun ölkəmizdə Rusiya mədəniyyət tədbirlərinin ləğv olunması məsələsi ilə bağlı fikirlərini də şərh edib. O bununla bağlı bildirib:**

"Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun İnterfaks agentliyinə müsahibəsi zamanı Azərbaycanda Rusiya ilə dövlət və özəl müəssisələrin xətti ilə keçirilməsi nəzərdə tutulan mədəniyyət tədbirlərinin ləğv edilməsi qərarı ilə bağlı verdiyi şərhlər, Azərbaycan tərəfinin qərarını kontekstdən çıxararaq təhrif etməyə çalışması qəbuledilməzdir.

Yekaterinburq şəhərində etnik mənsubiyyətinə görə azərbaycanlılara qarşı Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən nümayişkaranə şəkildə törədilmiş məqsədli və mühakiməsiz qətl və zorakılıq əməlləri Azərbaycanın haqlı etiraz və qınağına səbəb olub. Rusiya ilə ikitərəfli münasibətlərə zərbə vuran bu hadisələr fonunda mədəniyyət tədbirlərinin ləğv edilməsi qərarı tam qanuni və adekvat addımdır.

Rusiyanın mədəniyyət tədbirlərinin ləğvinin "Azərbaycanın mədəniyyət mühiti və mənzərəsini yoxsullaşdırdığı" barədə fikirlərə gəldikdə isə qeyd edək ki, Azərbaycanda dəfələrlə səfərdə olarkən ölkəmizin yüksəksəviyyəli mədəniyyətinə heyran olduğunu bildirən cənab Şvıdkoyun sözügedən qərəzli fikirləri təəccüb doğurur. Şvıdkoyun təbirincə desək, Basta kimi Rusiya müğənnilərinin konsert proqramlarının ləğvinin ölkəmizin mədəniyyət mənzərəsini yoxsullaşdırdığını düşünmürük.

Minilliklər boyu inkişaf edən Azərbaycan mədəniyyəti bir çox dövlətlər və xalqlar üçün nümunədir. Azərbaycan haqlı olaraq özünün unikal tarixi və maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqisi ilə fəxr edir".

## Soydaşlarımız Yekaterinburqda işgəncə ilə qətlə yetiriliblər

***Ekspertiza meyitlərdə zorakılıq əlamətləri və çoxsaylı xəsarətlər aşkarlayıb***





**İyunun 30-da Rusiya Federasiyasının Yekaterinburq şəhərində vəhşicəsinə döyülərək qətlə yetirilən azərbaycanlı qardaşlar – Ziyəddin və Hüseyn Səfərovun cənazələri təyyarə ilə Azərbaycana gətirilib. Cənazələr dərhal Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə təhvil verilərək, xüsusi yaradılmış komissiya müayinə aparıb.**

Bu barədə Birliyin baş direktoru Ədalət Həsənov iyulun 1-də AZƏRTAC-da keçirilən mətbuat konfransında məlumat verdi. O qeyd etdi ki, meyitlərin ekspertizası gecə saatlarında başa çatıb və cənazələr dəfn edilmək üçünAğcabədi rayonuna yola salınıb.

Baş direktor bildirdi ki, meyitlər Azərbaycana gətirilməzdən əvvəl onlara dair ölüm haqqında tibbi şəhadətnamələr təqdim olundu. Rusiya məhkəmə-tibbi ekspertləri tərəfindən verilmiş həmin sənədlərdə ölüm səbəbi kimi "xəstəlik" – konkret olaraq "kəskin ürək-ağciyər çatışmazlığı" göstərilir. Lakin Azərbaycan tərəfindən aparılan müstəqil ekspertiza nəticələri tamamilə fərqli mənzərəni ortaya qoyur. Ədalət Həsənovun sözlərinə görə, meyitlərdə aşkar olunan xəsarətlər onların dəhşətli fiziki zorakılığa məruz qaldığını açıq şəkildə göstərir.

"Ziyəddin Səfərovun meyitində hər iki gözün qişasında, sağ gözün alt və üst qəzasında qansızmalar, sol çiyinüstü nahiyədə qançırlı sınıqlar, döş qəfəsinin bayır yan səthində zolaq şəklində sıyrıqlar, baldır və topuq nahiyələrinin qançırları və sınıqları aşkar olundu. Bunlar ölümə səbəb olan diaqnozlar deyil. Daxili müayinələr zamanı isə aşkar etdik ki, başın dəri örtüyünün səthində qansızmalar, döş qəfəsinin küt travması-sıxılması müşahidə edilib. Qabırğasının biri isə yox idi. Beləliklə, Ziyəddin Səfərov çoxsaylı xəsarətlərlə əlaqədar baş vermiş postravmatik şok nəticəsində ölüb",– baş direktor vurğuladı.

Ədalət Həsənov əlavə etdi ki, Hüseyn Səfərovun meyitini xarici müayinə edərkən çox sayda travma aşkarlandı: "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin gəldiyi nəticəyə əsasən, Hüseyn Səfərovun ölüm səbəbi aldığı çoxsaylı xəsarətlər nəticəsində baş verən posttravmatik və posthemoragik şokdur".

Baş direktor bildirdi ki, Hüseyn Səfərovun döş qəfəsi deformasiyaya uğramışdır, assimetrikdir. Üst və alt dodaqlarının selikli qişasında qançırlar aşkarlandı. Meyitin kəllə qapağı açıldıqda sərt və yumşaq qişada qansızmalar aşkar olundu. Eyni zamanda, yeddi-səkkiz qabırğanın yerdəyişən sınıqları aşkar edildi. Bu sınıqlar ağciyəri zədələmişdir.

Baş direktor onu da vurğuladı ki, bir dəfə məhkəmə-tibbi müayinədən keçmiş meyitin ikinci dəfə ekspertizası çox çətin və həssas prosesdir. Onun sözlərinə görə, ilkin ekspertiza zamanı bəzi orqanların müayinə adı ilə götürülməsi ehtimalı narahatlıq doğurur: "Çünki meyit müayinə olunmuş, bütün orqanları kəsilmiş və təhlil edilmişdir. Biz şübhələnirdik ki, zədələnmiş orqanlar kəsilib götürüləcək. Soruşanda isə, deyiləcək ki, müayinə üçün götürmüşük", - deyə o əlavə etdi.

Xatırladaq ki, iyunun 27-də Rusiyanın Federal Təhlükəsizlik Xidməti (FTX) tərəfindən Yekaterinburqda azərbaycanlıların yaşadığı evlərdə xüsusi əməliyyat həyata keçirilmişdi. Bu zaman Səfərov qardaşları amansızlıqla döyülərək öldürülmüş, bir neçə azərbaycanlı ağır bədən xəsarətləri almış, 9 nəfər isə saxlanılmışdır.

***Səbuhi MƏMMƏDOV***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Azərbaycanda heç kəs öldürülmür!

***Zaxarova narahat qalmasın, çünki ölkəmiz Rusiya deyil***

**"Yekaterinburq şəhərində Rusiyanın amansız güc strukturlarının qətlə yetirdiyi qardaşlarımın Bakıya gətirilmiş cəsədlərinin tanınması üçün dəvət olunduğum və iştirak etdiyim məhkəmə tibbi ekspertizası zamanı gördüyüm mənzərə məni daha da dəhşətə gətirdi".**



Bunu APA-ya açıqlamasında Yekaterinburqda Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən keçirilən əməliyyat zamanı qətlə yetirilmiş şəxslər – Ziyəddin və Hüseyn Səfərovların qardaşı, "525-ci qəzet"in baş redaktor müavini Seyfəddin Hüseynli deyib. S.Hüseynlinin sözlərinə görə, qardaşlarının bədənindəki çoxsaylı ölümcül işgəncə izləri Rusiya tərəfinin onların ölüm səbəbi barədə uydurub yaydığı xəbərin tamamilə cəfəngiyyat olduğunu danılmaz şəkildə sübut edir.

Qeyd edək ki, S.Hüseynlinin gəldiyi qənaətin doğruluğunu Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi"nin baş direktoru Ədalət Həsənov da təsdiqləyib. Belə ki, hər iki mərhumun meyitlərinin müayinə nəticələrinə əsasən məlum olub ki, H.Səfərovun ölümünə posthemorragik və posttravmatik şok, Ziyəddin Səfərovun ölümünə isə çoxsaylı xəsarətlərlə əlaqədar baş verən posttravmatik şok səbəb olub. Bütün bunlar öz yerində.

Deməli, Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb. Məlumatı nazirliyin rəsmi nümayəndəsi Mariya Zaxarova bölüşüb. "Bakının qeyri-dost hərəkətləri və bütün bu illər ərzində Azərbaycan hakimiyyətinin heç bir şikayəti olmayan rusiyalı jurnalistlərin qanunsuz həbsi ilə əlaqədar Azərbaycan Respublikasının səfiri Xarici İşlər Nazirliyinə çağırılıb", - deyən Zaxarova görəsən necə müəyyənləşdirib ki, "Sputnik Azərbaycan"ın əməkdaşları adı altında fəaliyyət göstərənlər qanunsuz saxlanılıblar? Məgər ötən illər ərzində onlardan heç bir şikayətin olmaması nə isə deməkdirmi? Bəlkə illər ərzində Yekaterinburqda hüquq-mühafizə orqanları ilə heç bir problem yaşamayan azərbaycanlılara qarşı ittihamlar da təsdiqini tapmayacaqdı? Onlar "OMON" tərəfindən öldürülməli idilərmi? Amma Zaxarova qəti narahat olmasın. Azərbaycan hüquqi dövlətdir və jurnalist kimi təqdim etdiyi şəxslərin günahı sübuta yetirilməsə, onlar həbsə düşməyəcək, sərbəst buraxılacaqlar.

Bu arada Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov da Azərbaycanın Yekaterinburq hadisələrinə kəskin reaksiyasını şərh edib. "Rusiya Azərbaycanla yaxşı münasibətlərin inkişaf etdirilməsində maraqlıdır. Lakin Bakının qəbul etdiyi qərarlardan təəssüflənir... Hesab edirik ki, hüquq-mühafizə orqanlarının işi ilə bağlı hər hansı bir şey belə reaksiyaya səbəb ola bilməz və olmamalıdır", - deyən Peskovun əslində, nə demək istədiyini Rusiya Dövlət Dumasının MDB ölkələri və xaricdəki həmvətənlərlə iş komitəsinin sədr müavini, stajlı ermənipərəst Konstantin Zatulin dilə gətirib. Bu məxluqun sözlərinə görə, guya rəsmi Bakı xarici siyasət kursunu dəyişmək, Moskvadan uzaqlaşmaq istəyir və Yekaterinburq olaylarına kəskin münasibət məhz bundan qaynaqlanır.

Göründüyü kimi, Rusiya üçün günahsız insanların qətli heç bir anlam daşımır, ölkə tərəfindən hansısa konsprioloji baxışlar qabardılır. Ötən ilin dekabrında AZAL-ın Qroznu səmasında vurulmuş təyyarəsinin "quş topası ilə toqquşduranlar" da təxminən, eyni cür sərsəmləyirdilər. Halbuki, zatulinlər və onları üstümüzə salmağa cəhd göstərənlər anlamalı idilər ki, Azərbaycan müstəqillik illərində hər zaman müstəqil xarici siyasət yürüdüb. Hətta bütün dünya anti-Rusiya ovqatına kökləndiyi vaxt ölkəmiz Moskva ilə əməkdaşlığı dərinləşdirdi, müttəfiqlik bəyannaməsi imzaladı. Ona görə yaxşı olar ki, cənab Peskov reaksiyamızın adekvat olub-olmadığını diqqətlə nəzərdən keçirsin.

M.Zaxarovanın "Rusiya səfirliyinin konsulluq şöbəsinin əməkdaşlarına rusiyalı jurnalistlərlə görüşə icazə verilmir" bildirməsinə gəlincə, burada da heç şübhəsiz, qanuni tərəflər var. Bir də axı Moskvada dərk etməlidirlər ki, onlar qanundan danışmaq hüquqlarını Yekaterinburda "dəfn edib", üstünü Rusiyanın digər bölgələrində azərbaycanlıların başlarına açdıqları oyunlarla, hazırda soydaşlarımızı kütləvi repressiyalara məruz qoymaqla "basdırıb", hətta "betonlayıblar".

Rusiya XİN rəsmisi açıqlamasında, eyni zamanda, bir növ, şikayətlənməyi də yaddan çıxarmayıb. "Onlar (yəni, ölkəmizin hüquq-mühafizə orqanları – red.) bu cür hərəkətlərin səbəbləri barədə məlumat vermirlər. Biz jurnalistlərimizdən narahatıq. Rusiya səfirliyi Azərbaycanın Xarici İşlər Nazirliyinə, Daxili İşlər Nazirliyinə və Dövlət Təhlükəsizlik Xidmətinə məlumat verib. Heç bir cavab yoxdur", - deyən M.Zaxarovaya bir daha narahat qalmamağı, özünü ələ almağı tövsiyə edirik. Çünki ölkəmizdə heç kəs öldürülmür. Azərbaycan Rusiya deyil!

***R.ƏVƏZ***
***XQ***

## Ziyəddin və Hüseyn Səfərov qardaşları Ağcabədidə dəfn olunublar



**Yekaterinburqda öldürülən Ziyəddin və Hüseyn Səfərov qardaşları Ağcabədidə dəfn olunublar.**

Rusiyanın Yekaterinburq şəhərində vəhşicəsinə döyülərək öldürülən azərbaycanlılar - Ziyəddin və Hüseyn Səfərov qardaşlarının meyitləri səhər saatlarında dəfn üçün Ağcabədi rayonuna gətirilib.

Səfərov qardaşlarının yaşadıqları evdə vida mərasimi keçirilib. Mərasimdə onların ailə üzvləri, yaxınları, Ağdam və Ağcabədi rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Ziyəddin və Hüseyn Səfərov qardaşları sonra valideynlərinin dəfn edildiyi Hacıbədəlli kənd qəbiristanlığında torpağa tapşırılıblar.

***XQ***

# Hayların İsveçrə hücumunun anatomiyası: dördqat fiasko

## *Yaxud Azərbaycanın emosiyaya yox, hüquqa əsaslanan diplomatiyasının uğuru*

**2025-ci ilin iyun ayında İsveçrə parlamentində baş verənlər bir neçə cəbhədə oynanılan hibrid siyasi oyunun regional və qlobal geosiyasi mənzərədəki əks-sədasıdır. Erməni diasporu vasitəsilə həyata keçirilən, Azərbaycana qarşı yönəlmiş ardıcıl və sistemli hücumların İsveçrə kimi neytral bir ölkədə təkrarlanması həm narahatlıq, həm də ciddi təhlil doğurur.**

Amma nəticə bir qədər gözlənilməz oldu: təxribat dolu dörd ayrı təşəbbüs müxtəlif formalarda təqdim olunsa da – istər qanun layihəsi, istər sorğu, istərsə də ictimai təşəbbüs şəklində – tamamilə iflasa uğradı. Mövcud məğlubiyyət təkcə Azərbaycanın diplomatik mövqeyinin gücləndiyini göstərmir. Eyni zamanda, diaspor əsaslı siyasətin, lobbiçiliyin və emosional manipulyasiyanın nə qədər yararsız olduğunun canlı sübutuna çevrildi.





**3 iyun – Azərbaycan əleyhinə ilk hücum:** İsveçrədə fəaliyyət göstərən SOCAR-ın adının hallandığı "xarici nəzarətdə olan şirkətlərin müharibələri maliyyələşdirməsi" adlı qətnamə layihəsi parlamentin gündəliyinə salındı. Əslində, bu layihə 2024-cü ildə rədd olunmuşdu. Fəqət ermənipərəst Stefan Müller-Altermatt yenidən onu gündəmə gətirməklə Azərbaycana qarşı siyasi təzyiq yaratmağa cəhd göstərdi. Gözlənildiyi kimi, layihə səs çoxluğu ilə yenidən rədd edildi.

**İkinci cəhd – Ermənistanın "müdafiəsi"** adı altında Azərbaycanın regiondakı siyasi çəkisini kölgələmək. Müller-Altermatt bu dəfə İsveçrə hökumətinə "Cənubi Qafqazda sülh strategiyası və Ermənistanın müdafiəsi" mövzusunda sorğu ünvanladı. Lakin bu sorğu, ümumiyyətlə, gündəlikdən çıxarıldı. Bu isə həm rəsmi Bernin, həm də parlamentarilərin məsələyə münasibətini aydın göstərdi.

**Üçüncü cəhd – "Dağlıq Qarabağ üçün sülh forumu"** ideyası. Bu dəfə diasporun başqa bir adamı – Erik Fontobel çıxış etdi. Təklif olunan forum guya "Qarabağdan qovulmuş ermənilərin təhlükəsiz qayıdışı" üçün nəzərdə tutulmuşdu. İsveçrə hökumətinin buna cavabı diplomatik, həm də sərt idi: Azərbaycan belə bir qurumu tanımır və tərəflər (yəni, Azərbaycan və Ermənistan) bu məsələləri birbaşa, vasitəçisiz həll edirlər. Yəni, bu təşəbbüs heç bir hüquqi və siyasi əsas daşımır.

Və nəhayət, dördüncü cəhd – "ədalətli iqlim və enerji siyasəti" adı altında SOCAR və TAP kimi şirkətlərin fəaliyyətini məhdudlaşdırmağa yönəlmiş referendum təşəbbüsü. Burada da eyni ssenari təkrarlanır: ictimai təşəbbüs arxasında erməni diasporunun izi görünür, lakin İsveçrənin iqtisadi rasionalizmi bu təşəbbüsü də boşa çıxarır.

***

Azərbaycan diplomatiyasının İsveçrədəki "səssiz, lakin mühüm" qələbəsi bir sualı aktuallaşdırır: Bəs Azərbaycanın bu qədər ardıcıl, ağıllı və effektiv diplomatik cavabları hansı təməl prinsiplərə söykənir? Sualın cavabı həm siyasi, həm institusional, həm də psixoloji aspektləri əhatə edir.

Birincisi, Azərbaycan emosiyaya yox, hüquqa əsaslanan diplomatiya yürüdür. Ənənəvi olaraq diasporların siyasətə təsir vasitəsi kimi istifadə etdiyi emosiya yüklü ritorikadan fərqli olaraq, Bakı rəsmi arqumentləri beynəlxalq hüququn prinsipləri çərçivəsində təqdim edir. Bu isə neytral ölkələrin – xüsusilə də, İsveçrə kimi balanslı xarici siyasət yürüdən dövlətlərin – diqqətini və rəğbətini qazanır.

İkincisi, Azərbaycan "təkzib yox, təşəbbüs" siyasəti yürüdür. Yəni, əleyhinə aparılan kompaniyalara sadəcə cavab verməklə kifayətlənmir, öz gündəmini, təşəbbüslərini və diplomatik platformalarını irəli sürür. Məhz bu fəal yanaşma passiv müdafiədən fərqli olaraq, mövqelərin daha səmərəli qorunmasına və möhkəmləndirilməsinə imkan verir.

Üçüncüsü, Bakı üçün diasporlar yox, rəsmi dövlətlər əsas tərəfdaşdır. Azərbaycan, xüsusilə, son illərdə xarici siyasətində qeyri-rəsmi təsir qruplarına yox, birbaşa dövlət–dövlət münasibətlərinə önəm verir. Məhz bu strategiya uzunmüddətli sabit və davamlı diplomatik əlaqələrin qurulmasına gətirib çıxarır.

Və nəhayət, bu diplomatiyanın arxasında bir siyasi psixologiya dayanır: öz gücünə inanmaq, haqqına arxalanmaq və təxribatlara cavab vermək əvəzinə nəticəyə fokuslanmaq. Azərbaycanın bu siyasi yetkinliyi artıq beynəlxalq arenada təsdiqlənmiş reallıqdır.

İsveçrədə ermənilərin üzləşdiyi dördqat fiasko və Azərbaycanın rasional diplomatiyası, əslində, çağdaş dünyada informasiya savaşı, diasporun gücü və diplomatik ağıllılıq arasında gedən mübarizənin konkret təzahürləridir. Hadisələr birlikdə oxunduqda daha böyük mənzərəni ortaya qoyur. Burada artıq söhbət təkcə lobbiçilikdən getmir. Söhbət siyasi informasiya müharibəsinin, ictimai fikrə təsir göstərmək üçün istifadə olunan manipulyasiya vasitələrinin və dövlət–diaspora münasibətlərinin sərhədlərindən gedir.

Erməni diasporu uzun illərdir ki, Fransada və ABŞ-da analoji mexanizmlərlə müəyyən siyasi nəticələr əldə etməyə çalışır. Lakin İsveçrə nümunəsi göstərdi ki, bu modelin müasir beynəlxalq müstəvidə ömrü uzun deyil. Çünki bu cür təşəbbüslər nə hüquqi əsaslara, nə də beynəlxalq münasibətlər sistemindəki real güc balansına əsaslanır.

Azərbaycan isə bu hücumlar qarşısında emosional deyil, rasional davranır. Bakı Cənubi Qafqazda sülh gündəmini öz əli ilə, birbaşa danışıqlar vasitəsilə qurur. İsveçrə hökumətinin də qeyd etdiyi kimi, bu prosesdə əlavə "vasitəçilər", "forumlar" və ya "sülh konfransları"na ehtiyac yoxdur. Azərbaycan diplomatiyasının uğuru məhz buradadır: kənar oyunçulara meydan vermədən, qətiyyətlə və beynəlxalq hüquqa söykənərək addımlamaq.

***

Hadisələr, eyni zamanda, Ermənistan daxilində baş verən diaspor–dövlət qarşıdurmasının da izlərini daşıyır. Ermənistan baş naziri Nikol Paşinyanın İstanbulda verdiyi açıq mesaj diasporun təsir imkanlarını açıq şəkildə sual altına aldı: "Ermənistanın taleyini yalnız Ermənistanda yaşayan ermənilər müəyyən etməlidir". Onun bu bəyanatı elə diasporun xaricdə oynamağa çalışdığı "Ermənistanın səsi" roluna son qoymaq niyyəti daşıyır. Belə olan halda, diasporun xarici parlamentlər vasitəsilə həyata keçirdiyi bütün təşəbbüslər, dolayısı ilə Paşinyan hökumətinə qarşı yönəlmiş sabotajlar da puça çıxır. İsveçrədə yaşananlar bunun bariz nümunəsidir.

İsveçrə presedenti bir daha göstərdi ki, beynəlxalq münasibətlər artıq emosiyalara, milli-etnik təəssübkeşliyə və siyasi romantizmə yox, rasional maraqlara, hüquqi əsaslara və geoiqtisadi əlaqələrə əsaslanır. Enerji təhlükəsizliyi, ticarət, sabitlik – bunlar XXI əsrin əsas siyasi valyutalarıdır.

Nəticə olaraq qeyd edə bilərik ki, Azərbaycan bu yeni dövrə artıq hazırdır. Bakının diplomatiyası ayıq, mövqeyi ardıcıl və məntiqlidir. Qarşı tərəfin uğursuzluğu isə onun reallıqdan nə qədər uzaq düşdüyünü göstərir. Bu səbəbdən diaspor siyasəti iflasa uğrayır, real siyasət isə qazanır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

## Hakimlər 8 nəfərə həbs qətimkan tədbiri seçdi

***Məhkəmə Rusiya vətəndaşlarından ibarət iki mütəşəkkil cinayətkar dəstənin üzvləri barəsində qərar verdi***



**İrandan narkotik vasitələrin tranzitində və onlayn dövriyyəsində şübhəli bilinən Rusiya vətəndaşlarından ibarət iki mütəşəkkil cinayətkar dəstənin üzvləri barəsində həbs qətimkan tədbiri seçilib.**



Saxlanılan şəxslər Səbail Rayon Məhkəməsinə gətirilib. Onlar vəkillərlə təmin edilib.

Məhkəmədə 8 nəfər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının verdiyi təqdimatlara ayrı-ayrılıqda baxılıb.

Məhkəmənin verdiyi qərara əsasən, onların hər biri barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.





Qeyd edək ki, həmin şəxslər barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.1-ci və digər maddələri ilə cinayət işi başlanılıb.

# Paşinyan–kilsə savaşında yeni mərhələ

## *Baş nazir keşişləri katolikosa qarşı yönləndirir*

**Ermənistan baş naziri Nikol Paşinyanla Erməni Apostol Kilsəsinin birinci iyerarxı, bütün ermənilərin ali patriarxı və katolikosu II Qaregin arasında yaranmış gərginlik davam edir. Bu məsələ Ermənistanın daxili siyasi gündəmini zəbt edib desək, yaqin səhv etmərik. Demək olar ki, hər gün bu istiqamətdə yeni açıqlamalar verilir, mübahisələr səngimir. Bəzən güc strukturları işə qarışır, katolikosluğa daxil olurlar.**



Dünən də bu baxımdan istisna olmayıb. N.Paşinyan səhər saatlarında "Facebook"da paylaşım edərək katolikosu patriarxlığı tərk etməyə çağırıb. Paşinyan yazıb: "Bir sıra din xadimləri öz rəhbərlərinin göstərişi və məcburiyyəti ilə mənim dünən dediyim "Erməni Apostol Müqəddəs Kilsəsinin bütün evli keşişləri xalqı və Allahı aldatmadıqları üçün mənim qardaşlarımdır" sözlərimə etiraz etməyə çalışdılar. Əziz atalar, mən sual vermədim, təsdiq etdim və bir daha təsdiq edirəm ki, sizin Erməni Apostol Müqəddəs Kilsəsinin bütün evli keşişləri mənim qardaşlarımdır, o cümlədən neqativ bəyanatlar verənlər... Çünki siz nə xalqı, nə də Allahı aldadırsınız. Amma axı Ktric Nersisyanın övladı varsa, niyə o, xalqı, Allahı aldatdığı halda kilsədə səndən yüksək statusa malikdir, sən isə yox? O, evlənməməyə and içib. Onun yüksək statusu bu anda əsaslanır. Sonra isə o, andını pozub, kilsəyə xəyanət edib".

Paşinyan katolikosu "zinakar subay" adlandırıb. Sual edib ki, nə üçün bu şəxs səmimi inanclı insanlar üzərində hökmranlıq və onlara rəhbərlik etməlidir: "O, bu hüququ yalnız pozduğu, ləkələdiyi subaylıq andı sayəsində əldə edib? Ktric Nersisyan da mənim qardaşımdır. Lakin, o, katolikos deyil və ali patriarxlıqdan getməlidir. Əgər getməsə, biz onu qardaşlar, əziz evli keşişlər, birlikdə uzaqlaşdıracağıq!".

Beləliklə, Ermənistanda hakimiyyətlə kilsə arasındakı cəbhə xətti günü-gündən dərinləşir. Paşinyan bu dəfə də birbaşa kilsə rəhbərliyini hədəfə aldı. Nikol katolikosu patriarxlıqdan getməyə çağırmaqla problemin bütövlükdə kilsə ilə deyil, yalnız II Qareginlə bağlı olduğunu göstərdi. Paşinyan açıq şəkildə çalışır ki, din xadimlərini katolikosdan ayırsın. O, evli keşişləri "qardaşlarım" adlandıraraq onları öz tərəfinə çəkməyə cəhd edir. Bu, kilsə daxilində parçalanma yaratmaq və rəhbərliyə qarşı qiyama təşviq etmək niyyətindən xəbər verir. Baş nazir anlayır ki, kilsəni zəiflətməyin yolu onu daxildən parçalamaqdır. Onun bu strategiyası dini institutlara qarşı siyasi təzyiqin bir forması kimi qiymətlənidilə bilər. Baş nazirin sözlərinə görə, o, kilsədəki evli keşişləri öz qardaşları kimi qəbul edir və onların səmimiliyinə şübhə etmir. Paşinyan bununla həm də bir siqnal verir: Xalqla birlikdə olan din adamları onun tərəfidir.

Ümumiyyətlə, bu bəyanat, sadəcə, emosional çıxış kimi qiymətləndirilməməlidir. Tam əksinə, bu, uzun müddət davam edən Paşinyan–kilsə qarşıdurmasının növbəti mərhələsidir. Paşinyan İkinci Qarabağ müharibəsindən sonra ona qarşı müxalifətə keçmiş, radikal revanşistləri dəstəkləyən kilsə ilə problemi birdəfəlik həll etməyə çalışır. O, bunu sərt ritorika və şəxsi ittihamlar üzərindən aparır. Başa düşür ki, gələn il keçiriləcək parlament seçkiləri ərəfəsində kilsənin revanşistləri dəstəkləməsi ona ciddi problem yarada bilər. Onun fikrincə, dini rəhbərlik formal rütbəyə deyil, yalnız mənəvi təmizliyə əsaslanmalıdır. Doğrudur, erməni cəmiyyətində dini liderə belə açıq hücumlar birmənalı qarşılanmır. Çünki kilsə hələ də ermənilər üçün müqəddəsdir. Paşinyan isə katolikosun şəxsi həyatına toxunmaqla, əslində, kilsənin şəffaflıqdan uzaq olduğunu nümayiş etdirmək istəyir. Lakin bu çıxış cəmiyyətdə parçalanmanı daha da dərinləşdirə bilər. Din xadimləri və siyasi rəhbərlik arasında yaranmış uçurum Ermənistanda sabitliyi pozan amildir.

Paşinyanın K.Nersisyanın katolikos olmadığını bildirməsi və onun ali patriarxlıqdan getməyə çağırması açıq təhdid və ultimativ xarakteri daşıyır. Bu ifadə həm də təzyiq vasitəsi kimi şərh oluna bilər. O, katolikosun getməyəcəyi təqdirdə kollektiv şəkildə onu uzaqlaşdırmaqdan danışır. Bu, artıq sadəcə çağırış deyil, kilsə daxilində çevriliş niyyətinin elanıdır. Baş nazir evli keşişləri faktiki olaraq mütəşəkkil müqavimətə səsləyir.

Əslində, baş nazir kilsəni və xalqı öz tərəfində saxlamaq üçün "mənəviyyat kartı"ndan istifadə edir. Bir sıra ekspertlər bu fikirdədirlər ki, Ermənistanda kilsənin nüfuzunun zəiflədilməsi ilə Paşinyan ona tabe olmayan sonuncu güc mərkəzini də sıradan çıxarmaq istəyir. Beləliklə, Nikol nəinki siyasi meydanda, həm də mənəvi sferada hegemonluq iddiasındadır.

Situasiyanı şərh edən kinorejissor, Ermənistan Avropa Partiyasının rəhbəri Tiqran Xzmalyan bildirib ki, Paşinyanın ritorikası son günlər çərçivədən kənara çıxıb və heç bir şəraitdə bu səviyyəyə enməyə imkan vermək lazım deyildi: "Çünki son vaxtlar biz hansısa daimi qalmaqal içindəyik və bu, cəmiyyətin bir hissəsini digər kəsimlə qarşı-qarşıya qoyan, bir növ, vətəndaş müharibəsidir və bu, ölkəmizi zəiflədir. Ona görə də belə hallarda həmişə güclülər günahkar olur. Dövlət kilsədən güclüdür – lakin bu gün, tarixin bu anında daha güclüdür. Böyük proseslərdə, əlbəttə ki, kilsə dövlətin həyatını məhv edə bilər. Amma biz buna imkan verməməliyik və bu mənada Paşinyanın istifadə etdiyi üsullarla heç vaxt razılaşmayacağam. Bu, indi ölkəyə lazım deyil".

T.Xzmalyan əmindir ki, bütün bunlar 2026-cı il iyunun 7-də keçiriləcək seçkilərdə qalib gəlmək məqsədilə edilir: "Hesab edirəm ki, bizim ölkədə bütün normal insanlara aydın olur ki, hakimiyyət təhlükəli xətti keçib – erməniliyin mənəvi əsaslarını inkar edir. Və mən əminəm ki, hətta Paşinyanın keçmiş və indiki bir çox tərəfdarları belə düşünür. Erməniləri birləşdirən amilə müharibə elan etmək mümkün deyil. Çünki biz artıq vətəndaş qarşıdurması vəziyyətindəyik. Paşinyan bir çox yanlış hesablamalardan sonra, xüsusilə Ermənistanın "Artsax"da məğlubiyyətindən sonra populyarlığını itirdi. İndi o, yaralı heyvan kimi onunla razılaşmayan hər kəsin üstünə isterik şəkildə hücum etməyə başlayır. Nikolun hərəkətləri onun zəifliyini göstərir".

Ermənistan mediasında və sosial şəbəkələrdə bir neçə evli keşiş Paşinyanın çıxışına ehtiyatla, amma qismən müsbət münasibət bildirib. Onlar, əsasən, katolikosun şəffaflıq və hesabatlılıq prinsiplərinə əməl etmədiyini, kilsədə uzun illərdir müəyyən qapalılığın hökm sürdüyünü vurğulayırlar. Bəzi din xadimləri Paşinyanın "evli keşişlər mənim qardaşlarımdır" fikrini həm mənəvi, həm də sosial dəstək kimi dəyərləndiriblər. Lakin katolikosun yaxın çevrəsindəki yüksək rütbəli ruhani şəxslər bu çıxışı kilsənin daxili işlərinə kobud müdaxilə kimi qiymətləndirib.

Bütövlükdə, kilsə daxilində fikir ayrılığı son günlər daha da kəskinləşib. Bəziləri Paşinyanın islahat çağırışlarını dəstəkləyir, digərləri isə bunu kilsə ənənələrinə zidd hesab edir. Bu, dini təsisat daxilində uzun illərdir yığılıb qalmış gərginliyin üzə çıxması kimi də dəyərləndirilə bilər. Katolikos tərəfdarları prosesin məqsədli şəkildə dini rəhbərliyin nüfuzunu sarsıtmaq olduğunu iddia edirlər. Eyni zamanda, Paşinyanın ritorikası keşişləri seçim qarşısında qoyur. Açıq şəkildə bildirir ki, ya onunla, ya da katolikosla bir yerdə olmalıdırlar. Kilsə isə hələlik açıq mövqe bildirməyərək daxili sabitliyi qorumağa çalışır. Ancaq hadisələrin inkişafı göstərir ki, bu təmkin uzun müddət davam edə bilməz.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Ermənistanda revanşizm dalğasının Paşinyan tərəfindən yatırdılması prosesi gedir. Bir tərəfdən Rusiyadan göndərilən Samvel Karapetyanın saxlanılması, digər tərəfdən katolikosun ardıcıl ifşası onu deməyə əsas verir ki, Paşinyan addımlarında qətiyyətlidir. Atdığı addımları arqumentləşdirə bilir. Aparılan əməliyyat-axtarış tədbirləri, həbslər baş verənlərin keçici olmadığını, yaxud müəyyən dövrdən sonra səngiməcəyini deməyə əsaslar verir. Elə təsəvvür yaranır ki, proseslər yenicə başlayıb, daha da güclənəcək.

Paşinyan xeyli müddətdir ki, II Qaregini öz adı ilə – Ktriç Nersisyan deyərək çağırır. Bu da onu göstərir ki, Paşinyan katolikosu ruhani kimi qəbul etmir. O, katolikosun adının qarşısındakı epitetləri heçə sayır. Bu da onunla bağlıdır ki, II Qaregin andını pozaraq evlənib və övladı var. Bütün bunlar onu deməyə əsas verir ki, Paşinyan ardıcıllıqla öz məqsədlərinə doğru irəlilləyir və əsas məqsəd növbəti parlament seçkilərində qalib gəlməkdir. Nikol bu məqsədə nail olmaq üçün bütün gücünü səfərbər edəcək.

2 iyul Azərbaycan Polisi Günüdür

# Müstəqilliyin və dincliyin keşiyində



**Qədim latın dilində ifadə olunmuş bir müdrik fikir həqiqət yükünü günümüzədək saxlayıb: “Gecənin qaranlığında belə, öz vəzifəsini unutmayan polis xalqın sükut içindəki qəhrəmanıdır”. Bu gün də cəmiyyət polisin belə fədakar fəliyyəti ilə hər cür cinayətkarlıqdan qorunur, əmin-amanlıq içində yaşayır.**



Cinayətkarlıqla mübarizə dedikdə, ilk növbədə, 4 – 5 polis əməkdaşının çalışdığı kiçik qrup və məhdud ərazi göz önünə gəlir. Bu, xidmətin başlanğıcında ümumi maraq naminə həyata keçirilən bir vəzifədir. Çağdaş dünyada cəmiyyətin gücü onun öz polisinə necə münasibət göstərməsində və polisin isə xalqa necə xidmət etməsində təcəssümünü tapır. Polisin ümumi vəzifə funksiyalarına diqqət etdikdə onunla bağlı bilmədiyim çox məsələ bəlli olur.

İlk olaraq, polis ictimai təhlükəsizliyi təmin edir: Yəni polis əməkdaşı xidmət etdiyi ərazidə cinayətlərin qarşısını alır və ictimai qaydanın qorunması məqsədilə patrul xidmətini həyata keçirir. O, şübhəli davranışlı şəxsləri nəzarətdə saxlayır, baş vermiş hadisələrə çevik reaksiya verir, vətəndaşlardan daxil olan məlumatları fiksə edir. Polis təxirə salınmadan hadisə yerinə gedir və ərazinin mühafizəsini təşkil edir. O, şəraiti dəyərləndirir, situasiyanın tənzimlənməsi və təhlükəsizliyin təmin olunması üçün “isti izlərlə” tədbirlər görür.

Təhqiqat və istintaqın həyata keçirilməsində iştirak edir: Bu zaman polis əməkdaşı ilkin istintaqın aparılması ilə bağlı verilən əməliyyat tapşırıqlarını icra edir, sübutlar toplayır, şahidlərin izahatlarını alır, zərurət yarandıqda cinayətlərin vəziyyətini öyrənmək üçün digər hüquq-mühafizə orqanları ilə əlaqə saxlayır.

Vətəndaşlara məsləhətlər verir və kömək göstərir: Bu mərhələdə polis əməkdaşları vətəndaşlara müvafiq məsləhətlər verir, çıxılmaz vəziyyətdə olanlara yardım edir, bəzən ilk tibbi yardım da göstərir, təhlükəsizliyin təmini məqsədilə informasiyanı bölüşür, cinayətlərin proflikatikası barədə metodik tövsiyələr verir, qanunlar və qaydalar haqqında ictimaiyyəti maarifləndirir.

Qeyd olunan vəzifə funksiyalarını Daxili İşlər Nazirliyinin baş idarə, idarə, şöbə və bölmələrində xidmət aparan çoxminli şəxsi heyəti həyata keçirir. Öz növbəsində, Azərbaycan polisi yol hərəkətinin təhlükəsizliyini təmin və ictimai qaydanın mühafizəsini təşkil edir, ekstremizmə, dini radikalizmə qarşı tədbirlər görür, miqrasiya qeydiyyatını aparır. Polis mütəşəkkil cinayətkarlığa, XXI əsrin köləliyinə-insan alverinə qarşı da mübarizə aparır, kiber sahəsində təhlükəsizliklə bağlı əməliyyat-axtarış fəaliyyətini həyata keçirir. Daxili işlər orqanları məhkəmə və istintaq orqanlarının qanuni tələblərindən yayınanların axtarışını, keçmiş illərdən bağlı qalmış ağır və xüsusilə ağır cinayətlərin açılmasını təmin edir.

Cinayətkarlıqla mübarizə sahəsinin genişliyini nəzərə alsaq bu sahə müəyyən şəxsi kefiyyətlər, fiziki hazırlıq, risk şəraitində işləməyə hazır ola biləcək qabiliyyət tələb edir. Ona görə də polis karyerasına aşağıdakı kefiyyət və və bacarıqlara malik insanlar uyğun sayılır:

İlk növbədə, polis əməkdaşının ictimai ünsiyyət bacarığı olmalıdır. O yüksək münasibət qura bilməli, müxtəlif insanlarla qarşılıqlı əlaqə saxlamalı, münaqişəli situasiyalarda problemi həll etməyi bacarmalıdır. Polisin dinləmək bacarığı, qarşısında olanın hissini, həyəcanını, istəklərini anlamaq qabiliyyəti – empatiyası da olmalıdır.

Daha sonra, polisin fiziki hazırlığı və sağlamlığı olmalıdır. Polis əməkdaşının həmişə fiziki formada olmağı tələb olunur. Dözümlü olmalı, yuxusuzluğa, yorğunluğa tab gətirməsi üçün o, sağlam olmalı, əlbəyaxa döyüşü bilməlidir. Müntəzəm məşqlər, qaçış, dartınmaq, əlləri ilə müxtəlif hərəkətlərə qadir olmalıdır. Polis əməkdaşının sağlam olması çox mühüm şərtdir. Fiziki sağlamlığı, eşitmə və görmənin yaxşı olması, xroniki xəstəliklərdən uzaq olması xidməti üzrə vəzifə funksiyalarının yerinə yetirilməsində başlıca amillərdəndir. O, psixoloji cəhətdən sabit olmalıdır. Polis əməkdaşı ekstremal şəraitlərdə sərbəst qərarları qəbul edə bilməlidir.

Polis xidməti risklə bağlıdır. Bu xidmət sahəsində xəsarətlərin mümkünlüyü, stress halında və emosional vəziyyətdə çalışmaq çox vaxt günün tələbi kimi səslənir. Polis xidmətinin spesfik və özəl cəhətlərindən biri hüquqpozmaların subyektləri və cinayətkarlarla kontaktda (əlaqədə) və münasibətdə olmasıdır. “Arzuolunmaz şəxslərlə” münasibət saxlamaq polisin fəaliyyətində səmərə verəcək şərtlərdəndir. Daxil olmuş məlumat əsasında baş verəcək cinayətlərin qarşısı alınır, cinayət törədənlərin şəxsiyyəti ətrafında məlumatlar toplanır, axtarışda olanların yeri müəyyənləşir və keçmiş illərdən bağlı qalmış neçə cinayətlərin açlması təmin edilir.

Ötən illərdə Azərbaycan polisi cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələrini layiqincə yerinə yetirib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad olunmuş ərazilərdə təhlükəsizliyi etibarlı təmin edib. Daxili işlər orqanlarının əməkdaşları Bakının ev sahibliyi etdiyi böyük bir beynəlxalq tədbirlərin-




COP29-un yüksək təhlükəsizlik şəraitində keçirilməsi zaman 12 gün üzərinə düşən və qarşıya qoyulan vəzifələri aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlıq şəraitində əzm və fədakarlıqla yerinə yetirib.

2024-cü ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 33 min 379 cinayət qeydə alınıb, onlardan 87,6 faizinin açılması təmin edilib. Əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı ötən il 327 fakt təşkil edib. Cinayətlərin 94,4 faizi və ya 31 min 526-sı daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olmaqla 90,3 faizi açılıb.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 87,3, qeyri-aşkar şəraitdə baş verənlərin 86, şəxsiyyət əleyhinə olanların 98,9, onlardan qəsdən adam öldürmələrin 96,6, adam öldürməyə cəhdlərin 95,2, qəsdən sağlamlığa ağır zərər vurmaların 98,9, mülkiyyət əleyhinə olanların 83,3 faizi açılıb. Xırda talamaların açılmasının nəticələri 3 faiz yaxşılaşaraq 87,5 faizə yüksəlib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 3 min 271 nəfər tutulub, 216 kriminal qrup zərərsizləşdirilib.

Ötən il qrup halında baş verən cinayətlər 23,2, ictimai yerlərdə baş ictimai təhlükəli əməllər 9, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən cinayətlər 8 faiz azalıb. Ümumi cinayətlər 9,4, ağır və xüsusilə ağır cinayətlər 18,9, qeyri-aşkar şəraitdə baş verən cinayətlər 18,1, qəsdən adam öldürmələr 9,6, adam öldürməyə cəhdlər 16,9, qəsdən sağlamlığa ağır zərər vurmalar 13,5, xuliqanlıqlar 5 faiz az baş verib.

Prokurorluq orqanlarının əməkdaşları ilə birlikdə keçmiş illərdən bağlı qalmış cinayətlərin açılmasında da, irəliləyiş var. 630 fakt üzrə təqsirli bilinən şəxslər məsuliyyətə cəlb edilmiş o cümlədən cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələr yerinə yetirilib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri yaxşılaşaraq 87,9 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 118 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 65 nəfərin yeri müəyyən olunub.

Daxili İşlər Nazirliyinin bu ilin əvvəlində keçirilən kollegiya iclasında nazir, general-polkovnik Vilayət Eyvazov yuxarıda qeyd olunmuş istiqamətdə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirib və diqqəti qarşıda duran vəzifələrə çəkib. Bu cinayətlərlə mübarizədə vətəndaşların iştirakı və məlumatları əsasında uğurlu nəticələrlə yadda qalan bir çox əməliyyatların keçirilməsi, möhkəmlənən polis-vətəndaş münasibətlərinin təzahürü olduğu vurğulanıb

Daxili İşlər Nazirliyinin Kollegiyası bu məsələdə cəmiyyətin sağlam düşüncəli hər bir üzvünə güvəndiyi, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən blogerlərdən daha böyük gözləntilərinin olduğu diqqətə çatdırılıb. Cinayətkarlıqla mübarizədə yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsin, o cümlədən ictimai fəalların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və media mənsublarının fəaliyyəti təqdir edilərək hər kəsə təşəkkür edilib.

Keçən il 6 min 55, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 4 min 468 vətəndaş qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Eyni zamanda nazirliyə daxil olan müraciətlər araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilib.

Polisin fəaliyyətində çoxlu sayda hesabatlar, protokollar və sənədlər vətəndaşlara, dövlət və digər orqanlara cavablar hazırlanır. Qaynar xəttə daxil olan zənglərə cavab verib, onu icraya yönəltmək, ərazidə əhali ilə profilaktik və maarifləndirmə xarakterli söhbətlər aparmaq, tövsiyələr vermək obyektiv bürokratiya ilə bağlı olduğundan hər birinin prosesual tələblər daxilində vaxtında həll olunması lazım gəlir. Bunun isə zamana ehtiyacı var.

Polis daha gərgin və sıx qrafikdə işləyir. Ölkə demək olar ki, dayanıqlı təmin edilən sabitliyə görə polisə təşəkkür edir. Bu, vətəndaş məmnunluğunun təcəssümü olaraq aydın görünür. Sosial şəbəkələrdə bəzən vətəndaşlara qarşı “həddini aşma” və “qanunsuz saxlanılmasına” dair əsassız rəylər də paylaşılır, “Polis” və “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunlarında polis əməkdaşlarının, nə vaxt güc tətbiq etməsi və “həbs etmək”, müstəsna hallarda, hətta odlu silahın tətbiqi barədə insan və vətəndaş hüquq və azadlıqları üçün həssas məqam sayılan məlumatlar imperativliyi ilə diqqət çəkir.

Ümumilikdə, polis bütün hallarda hərəkətləri və davranışları ilə ərazi üzrə əhalinin məmnunluğunu qazanır. Polisə aid standartlar polisin imicinin möhkəmləndirilməsinə, vətəndaşların polisə etibarını və etimadın yüksəldilməsinə xidmət edir.

***Şəmsəddin ƏLİYEV,***
***“Polisə Dəstək” İB-nin sədri,***
***Qarabağ müharibəsinin***
***veteran komandiri***

# Vardanyanın məhkəməsində zərərçəkmişlər dindirilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dünən davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və onların varislərinə





qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca təqsirləndirilən Ruben Vardanyanın hüquqlarını müdafiə edən vəkili Avraam Berman məhkəməyə müraciət edib. O bildirib ki, məhkəmə hazırlıq iclasında qəbul edilmiş və protokolda öz əksini tapmış qərarla tanış olmaq istəyirlər. Müdafiə tərəfi, eyni zamanda, həmin tarixlərdə keçirilən iclaslarda verdikləri vəsatətlərin təmin olunmasına dair qərarların çıxarışının da onlara verilməsini xahiş edib.

Təqsirləndirilən Ruben Vardanyan da vəkilinin müraciətini müdafiə edib.

İclasa sədrlik edən hakim Zeynal Ağayev deyib ki, indiyədək təqsirləndirilən şəxs və onun müdafiəçisi hansı sənədlərlə tanış olmaq istəyibsə, məhkəmə bunun üçün onlara şərait yaradıb, yenə də yaradılacaq.

Sonra məhkəmədə Ermənistanın təcavüzkar müharibəsi və işğalçılıq siyasəti nəticəsində törədilmiş cinayət hadisələri zamanı zərərçəkənlər, habelə zərərçəkmişlərin hüquqi varisləri ifadə veriblər. Əvvəlcə zərərçəkmiş şəxs Sərxan Köklərovun hüquqi varisi qismində tanınmış qardaşı Absaləddin Köklərov ifadə verib. O, qardaşının Ağdərədə Ermənistan ordusunun qalıqlarının və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını, 5 gün sonra hospitalda dünyasını dəyişdiyini deyib.

Hüquqi varis qismində tanınmış Tahir Qasımov ifadəsində övladı Hacıəli Qasımovun Xankəndi şəhəri yaxınlığında snayperlə vurulduğunu, Respublika Neyrocərrahiyyə Xəstəxanasında koma vəziyyətində qaldığını, 4 ay sonra vəfat etdiyini söyləyib.

Zərərçəkmiş şəxs Mirzəhəsən Səfərəliyev Ağdamda düşmən tərəfindən odlu silahdan açılmış atəş nəticəsində güllə yarası aldığını bildirib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında isə o qeyd edib ki, həmin vaxt yaxınlığındakı 5 nəfər də yaralanıb, bir nəfər isə snayper atəşi nəticəsində həlak olub.

Zərərçəkmiş şəxs Asiman Cəfərov da Ağdamda snayper gülləsindən xəsarət aldığını bildirib. Zərərçəkən Sənan Hüseynov isə dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında qeyd edib ki, Ağdam rayonunda düşmən tərəfindən açılmış atəşlər nəticəsində o və yanındakı bir neçə şəxs yaralanıb, bir neçə nəfər isə həlak olub. Digər zərərçəkmiş şəxs Xəqani Abbasov Ağdam rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını deyib.

Zərərçəkmiş Eltun Məmmədov ifadəsində Ağdamda Xanabad kəndi istiqamətindən düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib. İbrahim Hüseynov ifadəsində Xocavənd rayonunda düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində qəlpə yarası aldığını söyləyib.

Zərərçəkmiş Ərəsdun Müftəliyev Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində xəsarətlər aldığını deyib.

İfadə verən Elçin Pıçaxov Xocavənd istiqamətində odlu silahdan açılmış atəş nəticəsində yaralandığını, müalicəsinin hələ də davam etdiyini diqqətə çatdırıb. Zərərçəkmiş Rəşad Əliyev ifadəsində Xocalı istiqamətində düşmən tərəfindən açılan snayper atəşi nəticəsində yaralandığını, həmin vaxt Toğrul Osmanlının və Altay Əhədovun da düşmən atəşi nəticəsində xəsarət aldıqlarını söyləyib.

Həmzə Mahmudov Xocalıda olan zaman artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını bildirib.

Digər zərərçəkmiş Azad Məmmədov isə dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında deyib ki, o, Şuşa rayonunun Xəlfəli kəndində minaatan mərmisinin partlaması nəticəsində yaralanıb.

Zərərçəkmiş şəxs Tural Əliyev Kəlbəcərdə qumbaraatan mərmisinin partlaması nəticəsində yaralandığını deyib. O, aldığı xəsarətlərə görə 6 ay yataq xəstəsi olduğunu qeyd edib.

Zərərçəkmiş Zülfü Qasımov Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələrinin genişmiqyaslı təxribatı nəticəsində Kəlbəcər istiqamətində yaralandığını bildirib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında deyib ki, həmin vaxt düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində bir nəfər həlak olub, bir neçə nəfər isə yaralanıb.

Zərərçəkmiş Sənan Mehdiyev erməni hərbçilərinin açdıqları atəş nəticəsində xəsarət aldığını deyib.

Nurlan Zeynalov Xocalıda düşmənin atdığı atəş nəticəsində sol ayağından yaralandığını söyləyib. Şəmsi Nəbiyev ifadəsində Xocavənddə artilleriya atəşi nəticəsində yaralandığını vurğulayıb.

Digər zərərçəkmişlər Rahid Cəfərov, Samir Novruzov, Asiman Məmmədrzayev, Ceyhun Batıyev, Məmmədtağı Rüstəmov, Aydın Tanrıverdiyev, Valeh Mirzəliyev ifadələrində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində xəsarət aldıqlarını bildiriblər.

Zərərçəkmiş Rahid Cəfərov Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında qeyd edib ki, o, Ağdərə rayonunun Canyataq kəndi ərazisində snayper atəşi nəticəsində xəsarət alıb. Güloğlan Əmiraslanov ifadəsində Xocavənd rayonunda düşmən tərəfindən atılmış “Faqot” tankəleyhinə idarəolunan raketin partlaması nəticəsində yaralandığını söyləyib.

Zərərçəkmiş Kamran Həsənov ifadə verib ki, Ağdam rayonunun Əliağalı kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində yaralanıb. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualını cavablandıran zaman o qeyd edib ki, hadisə zamanı yanında olan Allahverdi Səfiyev və Elnur Kərimov həlak olublar.

Zərərçəkmiş İftixar Abdullayev ifadəsində Kəlbəcər rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını deyib.

Rahib Məmmədov Kəlbəcərdə düşmənin ağır artilleriyadan açdığı atəş nəticəsində xəsarətlər aldığını söyləyib.

İfadə verən digər zərərçəkmiş şəxslər Rahil Xəlilov, Tural Səmədov, Yamin Məmmədov, Elgün Musayev Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin müxtəlif istiqamətlərdə açdığı atəş nəticəsində yaralandıqlarını söyləyiblər.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası iyulun 8-də təyin olunub.

***XQ***

# Azərbaycanın “qırmızı xətti”: müstəqilliyimiz əbədidir!




**Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək.**

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

**II MƏQALƏ**

## Həqiqət anı

Bu mövzuda I məqalənin sonuncu sualı olan “Qərbi Azərbaycan haradır?” bəlağət deyildir. Cavabı da bizə tam aydındır. Sual əsrlərdir ki, diqqətləri bir daha Azərbaycan xalqından gizlədilən, müxtəlif sözlər və hiylələrlə üstüörtülən tarixi fakta yönəltmək üçün qoyulmuşdur.

Bu sual nə kiminsə ərazisinə iddianı ifadə edir, nə də kimlərəsə irad üçündür. Çünki dövlətlərin geosiyasi mübarizəsi həmişə vardır və orada qalibi mühakimə etmirlər. Ancaq həqiqəti bilmək hər bir ölkənin, xalqın və dövlətin təbii hüququdur. Və elə dönəm meydana gəlir ki, bir zamanlar hansısa dəyərlərini itirmiş və ya əlindən alınmış xalq öz təbii hüququnu tələb edir. Qərbi Azərbaycan xalqımızın təbii haqqı və hüququdur!

Ulu öndər Qərbi Azərbaycanın coğrafi, tarixi, mədəni, siyasi və geosiyasi hüdudlarını çox dəqiq ifadə etmişdir – “indi Ermənistan adlanan ərazi”! Azərbaycan dövləti, cəmiyyəti, hər bir vətəndaşı üçün həqiqət anı bundan ibarətdir. İndi bu müəyyənedici tezis, ümumiyyətlə, azərbaycanlıların coğrafiyadan, tarixdən, haqdan və hüquqdan gələn “qırmızı xətti”dir!

Bununla yanaşı, kimsə deyirsə ki, indi “İran” adlanan ərazidə “Qərbi Azərbaycan ostanı” da var və əsl Qərbi Azərbaycan oradır, o da haqlıdır. Amma həqiqət naminə bir az fikri tamamlamaq lazım gəlir. Çünki orada “Şərqi Azərbaycan ostanı” da var. 1906-1950-ci illərdə isə İranın 12 ostanından biri Azərbaycan idi. 1950-ci ildə ostanlaırn sayı 10-a düşdü və Azərbaycanı iki yerə böldülər – Qərbi Azərbaycan, Şərqi Azərbaycan ostanları. Hazırda ostanların sayı 31-dir. Deməli, ostanların (vilayətlərin) sayı dəyişir, lakin “Azərbaycan” adı dəyişmir! Bütün hallarda indi İranda vilayət statusunda “Azərbaycan” vardır. Bunu inkar etmək mümkün deyildir, çünki coğrafi, tarixi və mədəni faktdır, gerçəklikdir!

Nəticə: “İranda Azərbaycan var”, deyənlər tam haqlıdırlar – oradakı Azərbaycan bütövlükdə Azərbaycanın bir hissəsidir. Heydər Əliyevin adlandırdığı Qərbi Azərbaycan isə indiki İran sərhədləri daxilində deyil, tarixən vahid olan Azərbaycanın coğrafi baxımdan Qərbindədir. Necə ki, Şimali Azərbaycan, Cənubi Azərbaycan bölgücü var, eyni haqq və hüquqla Qərbi Azərbaycan var ki, ora İrəvan, Göyçə, Zəngibasar və Zəngəzur mahalları daxildir.

Bundan başqa. 1950-ci ilə qədər İranın inzibatı bölgüsündə “Şərqi Azərbaycan” və “Qərbi Azərbaycan” yox idi, vahid “Azərbaycan” vardı. Nə oldu? Tarix 1950-ci ildən sonra daha dəqiqmi dövran etməyə başladı? Bundan başqa, “Azərbaycan” adı altında nə qədər xırdaçılıq etsən də, adi insanlar belə anlayırlar ki, söhbət, ümumiyyətlə, Azərbaycandan gedir, yəni vahid Azərbaycan mövcuddur, tarixdir, gerçəklikdir, sosial-siyasi, coğrafi və mədəni faktdır. Onun inzibati bölgü qaydası isə dövlətin (bu anda İranın) daxili işidir. O bölgünü yenə də dəyişə bilərlər, lakin “Azərbaycan” adını kimsə dəyişə bilməz!

Onun tarixi nümunəsi kimi Qərbi Azərbaycanda minbir imperiya hiyləsi ilə qondarma “Ermənistan” yaradanların hazırda üzləşdikləri geosiyasi mənzərəni göstərə bilərik.

## Qərbi Azərbaycan necə “Ermənistan” oldu?

Nadir Şah dönəmindən sonra Rusiya və Qərb imperiyalarının Səfəvidən qalan dövlət nizamını tam dağıdıb, əvəzində öz maraqlarına uyğun siyasi, coğrafi, demoqrafik və geosiyasi reallıq yaratmağa ciddi surətdə girişdilər. Bunun üçün onlar Osmanlını da zərərsizləşdirməli idilər. Bu iki güclü türk imperiyaları arasında həm ixtilaf yaradır, həm də türkləri öz yurdlarından qovaraq yerlərinə əsasən erməniləri yerləşdirirdilər.

1827-ci ildə ruslar İrəvan xanlığını tam işğal etdilər və dərhal da özlərinə sərf edən inzibati bölgü apardılar. Nəticədə İrəvan, Naxçıvan və Zəngəzurun tarixi, siyasi və coğrafi bütövlüyü nəinki pozuldu, hətta oralar fərqli intensivliklə erməniləşdirilməyə başlandı. Özlərindən “erməni vilayəti” yaratdılar. Paralel olaraq, aborigen türk və kürd müsəlmanlara qarşı amansız işlər görməyə başladılar. Bununla XIX əsrin sonlarına yaxın regionda demoqrafik mənzərəni xeyli dəyişməyə nail oldular. Tarixin sonrakı dönəmi gəstərdi ki, bu, daha amansız antitürk, antiazərbaycanlı, antimüsəlman siyasətin başlanğıcıdır.

İmperialist dairələr XIX əsrin sonlarında erməni terror təşkilatları vasitəsi ilə siyasətlərini həyata keçirməyə başladılar ki, bu da yeni səviyyədə türk dövlətçiliyinə qarşı planın başlaması demək idi. O dövrdə nə Qacar, nə də Osmanlı İmperiyası həmin güclərə qarşı durmaq gücündə deyildilər. Tədricən geri çəkilməyə və hətta ərazinin bir hissəsini düşmənə verməyə məcbur qaldılar. Digər tərəfdən, XIX əsr (1821-1823) və XX əsrin əvvəllərində (1915-1918) Qacar və Osmanlı imperiyaları bir-biri ilə savaşdılar. Bu qovğalardan ən böyük zərbəni Azərbaycan dövlətçiliyi gördü.

İmperiyalar türklər arasında çəkişmələri də fürsət bilərək bütün cəbhə boyu “Azərbaycan” ideyası, ideologiyası və dövlətçiliyi üzərinə gəldilər. Azərbaycanlıları tədricən öz yurdlarından qovaraq ya kəndlərini xarabaya çevirdilər, ya da kənardan erməniləri gətirib ora yerləşdirdilər. Onu da vurğulayaq ki, kürd-müsəlman xalqına qarşı da eyni hərəkətləri edirdilər.

Tarixi faktlar göstərir ki, XVIII əsrdən başlayaraq XX əsrin əvvəllərinə qədər öncə Rusiya İmperiyası, sonra isə SSRİ dövründə minlərlə azərbaycanlı yaşayış məntəqələri ya dağıdılmış, ya da aborigen azərbaycanlılar qovularaq əvəzlərində erməniləri ora yerləşdirmişlər. SSRİ-də bu proses 1920-1969-cu ilə qədər (Heydər Əliyev Azərbaycan SSR-ə rəhbər seçilənədək) davam etmiş və sonra 1987-1993-cü illərdə xüsusi ssenari ilə aparılmışdır.

Bu antiAzərbaycan siyasətinin ilk böyük siyasi və geosiyasi fəsadı 1920-ci ilin noyabrında Qərbi Azərbaycan ərazisinin 10 min kvadratkilometr hissəsində “Ermənistan” yaratmaq oldu. Həmin il dekabrın 2-də isə SSRİ “öz dədə-baba torpağı” kimi İrəvan və Zəngəzur da daxil olmaqla Azərbaycan torpaqlarının daha bir hissəsini Ermənistana bəxş edilməsini rəsmən tanıdı (İrəvan şəhəri 1918-ci ildə, Zəngəzur isə 1920-ci ilin iyulunda o dövrdə Azərbaycanda olan hakimiyyət tərəfindən Ermənistana verilmişdi). 1920-ci il dekabrın 2-də isə Sovet Rusiyası Sovet Ermənistanına İrəvan quberniyasının, Zəngəzur qəzasının, Qazax qəzasının dağlıq hissəsinin verilməsini qeyd-şərtsiz tanıdığını bəyan etmişdir.

SSRİ-də XX əsr boyu bu cür proses sayəsində “Ermənistan” adlanan ərazi 29 min kvadrat kilometrə qədər artırıldı. Hamısını da damla-damla, hissə-hissə təzyiq və müxtəlif siyasi-ideoloji hiyləgərliklə Azərbaycan SSR ərazisinin müəyyən yerlərini “Ermənistana qardaş yardımı” kimi verdilər.

Bunun fonunda həm Qərbdə (ABŞ+Avropa), həm də SSRİ-də (Rusiya), ümumiyyətlə, “Qərbi Azərbaycan” terminini siyasi-diplomatik, geosiyasi leksikondan sildilər. Coğrafi ərazi kimi isə bütövlükdə tarixin arxivinə atmağa çalışdılar. Onların yollarını 2020-ci il Vətən müharibəsində Azərbaycanın möhtəşəm Qələbəsi kəsdi! Lakin, görünür, rəsmi Tehranda və Kremldə bir sıra qruplar hələ də əvvəlki ab-havanın təsiri altındadırlar!

## Oyunun sonu və ya yeni mərhələ

Əlbəttə, İran və ya Rusiya kimi qədim dövlətçiliyi olan ölkələrdə siyasi dairələr bütün bunları daha əhatəli və dərindən bilirlər. Lakin bunu etiraf etməyə mənəvi və siyasi strateji cəsarətləri, ədalətləri çatmır. Bu isə perspektivi olmayan davranışdır. Hansı səbəblərdən?

Əsas səbəb tarixi həqiqətlərdir. Son 300 ildə Cənubi Qafqaz geosiyasi coğrafiyasında kimlərin hansı oyunları aparmasından, hansı süni dəyişikliklər etməsindən asılı olmayaraq, “tarix həmişə hər şeyi öz yerinə qoyur” (Heydər Əliyev). İndi Azərbaycan Respublikası müstəqildir. 1993-cü ildən başlayaraq, addım-addım dünyada hər kəsə öz varlığını qəbul etdirmişdir. Heydər Əliyev faktiki olaraq müxtəlif qüvvələrin fəaliyyəti nəticəsində dağılmaqda olan ölkəni bütöv ölkəyə, sarsıntı içində çabalayan cəmiyyəti özünə inanan monolit topluma və məhv olmağın astanasında dayanmış dövləti güclü dövlətə çevirə bildi. XX əsrin sonu XXI əsrin əvvəllərində dünya üzrə ikinci belə bir nümunə yoxdur!

Əlbəttə, sürətlə inkişafa nail olan və ya II Dünya Müharibəsində aldığı çox böyük zərbədən özünü düzəldən dövlətlər vardır. Lakin onların hamısı artıq mövcud olan güclü dövlət sistemlərinin bazası üzərində nailiyyət qazanmışlar.

Heydər Əliyev isə faktiki üç cəbhədə ölkəni dağılmaqdan qurtarmaq, dağıdıcı siyasi-ideoloji prosesi dayandırıb birləşdirici konsepti həyata keçirmək və əsl güclü dövlət qurmaq vəzifələrini kompleks halda yerinə yetirməli idi!

Yəni böyük tarixi olsa da, XX əsrin sonuncu onilliyinə çoxlu sayda problemlərlə daxil olmuş bir məmləkətin “küllərindən” yeni ölkə və dövlət qurmalı idi. Yeni insanlar, vətəndaşlar yetişməli idi. Yeni ordu qurulmalı idi ki, qəvi düşmənləri Vətəndən qova bilsin! Yeni inkişaf strategiyası hazırlamaq lazım idi ki, uzaq perspektivdə belə müstəqil dövlətçiliyi təmin etsin!

Azərbaycan Respublikası bu çətin tarixi təkamül yolunun, dövlət və cəmiyyət olaraq özünüyeniləşdirmənin böyük bir hissəsini tarixi baxımdan çox qısa müddətdə - 1993-2003-cü illərdə keçə bildi. Artıq XXI əsrin əvvəllərində Cənubi Qafqazda gücü və möhtəşəmliyi gözlər qamaşdıracaq bir müstəqil türk dövlətinin “Günəş kimi doğduğu”nun fərqində idilər.

Bu həm də yeni gərginlik və kəskinlik mərhələsi ilə xarakterizə olunan mübarizənin başlaması demək idi. Əsas diqqət mərkəzində isə “Azərbaycan” ideyası, siyasi kimliyi, geosiyasi varlığı, mədəniyyət məkanı və coğrafi ərazi kimi məsələsi dayanmışdır! İndi müşahidə edilən və bizlərə kataklizmlər, bəzən təhlükələr kimi görünən məqamlar məhz bu böyük savaşın fraqmentləridirlər! Böyük oyuna böyük səbr, güc və ədalət lazımdır! Ədalətli ola bilməyən qalib ola bilməz! Bunlar Azərbaycan Respublikası dövlətinin, xalqının və hər bir Azərbaycan vətəndaşının “qırmızı xəttidir”!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Son aylar Gürcüstan beynəlxalq platformalarda, xüsusilə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) və Avropa İttifaqının (Aİ) müxtəlif strukturlarında artan siyasi tənqid və təzyiqlərlə üz-üzə qalıb. Qərbin rəsmi dairələri və beynəlxalq qurumlar tərəfindən irəli sürülən ittihamlar Gürcüstanda siyasi vəziyyətə və qanunvericilik təşəbbüslərinə dair təkcə narahatlıq ifadəsi deyil, həm də ölkənin suveren seçiminə, daxili siyasətinə və milli dəyərlərinə birbaşa müdaxilə kimi qiymətləndirilir.**

2025-ci ilin iyun ayında AŞPA-da Gürcüstanla bağlı keçirilən müzakirələr rəsmi Tbilisi və yerli ictimaiyyət tərəfindən açıq şəkildə qərəzli və birtərəfli yanaşma kimi qəbul olunub. Müzakirələr zamanı Gürcüstan hakimiyyətinin, guya, “siyasi repressiyaları gücləndirdiyi”, müxalifət nümayəndələrinin təqib və həbslərinə yol verdiyi yasəti təkcə siyasi çevrələrdə deyil, geniş ictimaiyyətdə də dəstək qazanır. Gürcüstan hakimiyyəti hesab edir ki, ölkənin gələcəyi yalnız milli maraqlara və daxili siyasi konsensusa əsaslanan inkişaf yolu ilə təmin edilə bilər.

Gürcüstana qarşı beynəlxalq təzyiqlər, xüsusilə AŞPA və Aİ səviyyəsində

# Siyasi motivli, qərəzli yanaşma

## *AŞPA-da Gürcüstan əleyhinə kampaniya*




iddia olunub. Avropalı deputatlar rəsmi Tbilisiyə qarşı sanksiyaların tətbiqini və Avropa İnsan Haqları Məhkəməsinə dövlətlərarası şikayət verilməsini təklif ediblər. Qeyd olunmalıdır ki, bu ittihamlar Gürcüstan nümayəndə heyətinin iştirakı olmadan səsləndirilib. Bu isə obyektiv və ədalətli müzakirə prinsiplərinə ziddir.

Əslində, bu, AŞPA-nın Gürcüstana qarşı təzyiq kampaniyasının növbəti mərhələsidir. Hələ 2025-ci ilin yanvarında AŞPA Gürcüstanda “xarici agentlər haqqında” və LGBT təbliğatına qarşı qanun layihəsinin qəbulunu əsas gətirərək Gürcüstan nümayəndə heyətinin səlahiyyətlərinə etiraz edib. Bundan əvvəl isə – 2024-cü ilin oktyabrında keçirilən parlament seçkilərinin nəticələri tam demokratik hesab edilməyib, vətəndaş cəmiyyətinə təzyiqlər və ifadə azadlığının məhdudlaşdırılması iddiaları irəli sürülüb.

AŞPA-nın təklif etdiyi “bütün hüquqların qaytarılması” üçün şərtlər açıq şəkildə ölkənin daxili işlərinə müdaxilə xarakteri daşıyır. Bu tələblərə təkrar parlament seçkilərinin keçirilməsi, bütün “siyasi məhbusların” azad edilməsi, polis zorakılığının araşdırılması və “antidemokratik qanunvericiliyin” ləğvi daxildir. Rəsmi Tbilisi isə bu tələbləri ultimatum sayaraq qəti şəkildə rədd edib, üstəlik, cavab olaraq AŞPA-dakı nümayəndə heyətini geri çağırıb. Gürcüstan hakimiyyəti Aİ-yə qarşı açıq ittihamlarla çıxış edərək, Avropa qurumlarını ikiüzlü və qeyri-səmimi siyasət yürütməkdə günahlandırır. Məsələ burasındadır ki, Aİ, eyni zamanda, Gürcüstandakı bəzi QHT-ləri maliyyələşdirir və onlar ölkədə etiraz aksiyaları və siyasi təxribatların təşkilində fəal iştirak edirlər.

Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili Aİ-nin maliyyələşdirdiyi QHT-lərin hakimiyyətin devrilməsi çağırışları ilə çıxış etdiyini açıq şəkildə bəyan edib. O qeyd edib ki, “Beynəlxalq Şəffaflıq – Gürcüstan”, “Safari” və bu qəbildən olan təşkilatlar Aİ-nin maliyyə dəstəyi ilə Tbilisidə mitinqlər təşkil edir, çıxışların məzmununu və səhnəyə kimlərin çıxacağını müəyyənləşdirirlər.

Xüsusilə “Safari” təşkilatının rəhbəri Baya Pataraiyanın bu proseslərdə bilavasitə rol oynadığı və Aİ vəsaiti ilə dolandığı qeyd edilib. Parlament sədri bu vəziyyətin təkcə siyasi mülahizə deyil, fakt olduğunu vurğulayıb və Aİ-ni açıq və dürüst mövqe bildirməyə çağırıb.

Qərbin artan təzyiqlərinə və daxili işlərə müdaxilə cəhdlərinə baxmayaraq, Gürcüstan rəhbərliyi milli maraqlara və suverenliyə əsaslanan siyasi kursunu davam etdirir. Baş nazir İrakli Kobaxidzenin iyunun 27-də parlamentdə çıxışı bu xəttin təsdiqi oldu. Kobaxidze vurğuladı ki, iqtisadiyyat Gürcüstanın inkişafının, sosial rifahın və ölkənin beynəlxalq mövqeyinin güclənməsinin əsas təməlidir. Baş nazirin sözlərinə görə, hakimiyyət daxili sabitliyi və milli dəyərləri qorumaqla paralel olaraq iqtisadi göstəriciləri gücləndirir, investisiya mühitini yaxşılaşdırır və sosial layihələrə önəm verir. Tbilisinin bu siyürüdülən qərəzli siyasət ölkənin suveren hüquqlarının açıq şəkildə pozulması kimi qiymətləndirilir. Gürcüstanın seçdiyi milli kurs, dəyərlərin qorunması və siyasi müstəqillik istiqamətində atılan addımlar Qərbin ikili standartlarına və daxili işlərə müdaxilə cəhdlərinə qarşı prinsipial mövqe ilə müşayiət olunur. Aydındır ki, Aİ və AŞPA-nın Gürcüstana qarşı irəli sürdüyü iddialar və tələblər, əslində, bu ölkəni “Avropa standartları” adı altında siyasi və hüquqi cəhətdən asılı vəziyyətə salmaq cəhdidir. Lakin Tbilisinin indiki mövqeyi göstərir ki, Gürcüstan xalqının iradəsinə və ölkənin suverenliyinə söykənən siyasət Qərbin təzyiqlərinə baxmayaraq davam etdiriləcək.

**Mövzu ilə bağlı Gürcüstan parlamentinin sabiq deputatı Ramiz Bəkirov**



XQ-yə bildirdi ki, Avropa İttifaqı və ya AŞPA tərəfindən Gürcüstanın daxili işlərinə müdaxilər davam edir: “Bu qurumlar müxtəlif yollarla dövlətin daxili işlərinə qarışırlar. Bu işdə QHT-lər, bəzi media qurumları və müxtəlif siyasi dairələr fəallıq göstərirlər. Xatırladım ki, Gürcüstanda 25 minə yaxın QHT fəaliyyət göstərirdi ki, onların da əksəriyyəti xaricdən maliyyələşirdi. Nəticədə Avropa qurumları onlardan öz maraqlarına uyğun şəkildə istifadə edirdi. Artıq bunun qarşısı alınıb və yeni qanunlar qəbul olunub. Əlbəttə, Brüssel Tbilisiyə təsir vasitəsini itirmək istəmir. Ona görə də, qanunların qəbuluna qarşı sərt bəyanatlarla çıxış edib”.

Ekspert onu da qeyd etdi ki, Gürcüstan Zaqafqaziyada AŞPA-da fəaliyyətini dayandıran yeganə dövlət deyil: “Azərbaycan da bu qurumun ikili standartları ilə qarşılaşıb. Ölkəmiz bu məsələdə daim Gürcüstanı dəstəkləyib. Bəli, Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləyir. Bu mövqe təkcə siyasi bəyanatlarla məhdudlaşmır, eyni zamanda, iqtisadi layihələr, enerji əməkdaşlığı və təhlükəsizlik sahəsində konkret addımlarda öz əksini tapır. Bu, yalnız dostluq jesti deyil, bölgədə sabitlik, inkişaf və əməkdaşlıq üçün strateji zərurətdir. İki ölkə arasında formalaşan etibarlı tərəfdaşlıq modeli həm Cənubi Qafqazın, həm də daha geniş coğrafiyanın təhlükəsizliyinə və rifahına töhfə verir”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Yekaterinburq məşəqqəti – ikinci “Xrustal gecə”

(əvvəli 1-ci səhifədə)

**İkinci məqam.** Ümumən, Rusiyanın dövlətçilik tarixində qeyri-millətlərə qarşı amansız münasibət “təcrübəsi” var. Bu “təcrübənin” ən müxtəlif təzahür formalarından – Stalin repressiyalarından, Qolodomor dəhşətindən, Çarizmin müsəlmanlara qarşı qətliamlarından və digər insanlıq əleyhinə cinayətlərdən söz açmaq mümkündür. 1990-cı ilin 20 Yanvar faciəsindən də həmçinin. Nəzərə alaq ki, 20 Yanvara bənzər qanlı olaylar sabiq SSRİ-nin müxtəlif müttəfiq respublikalarında da törədilmişdi. Görünür, hazırkı Rusiya “ənənənin” davamında “israrlıdır”.

**Üçüncü məqam.** Ötən müddətdə, habelə SSRİ-nin süqutundan sonrakı mərhələdə Rusiya düşüncə sistemi çoxmillətli məmləkəti normal qaydalarla idarə etməyin, insani keçinməyin formulunu tapa bilməyəcək qədər qısır oldu. Əslində, həm Yekaterinburqda, həm də ölkənin digər bölgələrində yaşananlar məhz bu qısırlıqdan qaynaqlanır. Rusiya üçün başlıca meyar imperializmə sadiqlikdir. Ölkənin, hətta, ziyalısı belə digər xalqlara və millətlərə yuxarıdan aşağı baxırsa, duruma başqa nə ad qoyasan?

Yeri gəlmişkən, Rusiya cəmiyyətində bir nəfər tanınmış nüfuzlu ziyalı, yaxud ictimai xadim bildirmir ki, polis xüsusi təyinatlılarının insanların, milli mənsubiyyətindən asılı olmayaraq, yaşadıqları evlərə girib qətl törətmələri heç bir ölçü və əndazəyə sığmır. Deməli, ölkənin düşüncə sisteminin də düşdüyü girdabı və dəhşəti təsvir edəcək sözlər acizdir.

Bəli, Rusiyada dəhşət həm də dəhşətlərə qarşı ictimai müqavimətin olmaması ilə yaşanır. Sanki diskriminasiya, şovinizm, islamafobiya meyardır. Bu düşüncəni meyar seçənlər SSRİ-nin xiffətini çəkir, onu bərpa etmək iddiasına düşürlər. Onlar qan bir Ukrayna xalqına qarşı amansızlığa, yaxşı halda, susqun qalırlarsa, eyni zamanda, aşkar internevsiya faktına haqq qazandırlarsa, şübhəsiz, nəzərlərində başqa xalqların və millətlərin nümayəndələrinin zərrə qədər də dəyəri yoxdur. Halbuki, Ukraynanın kənd və şəhərlərinin yer üzündən silinməsini, Buça kimi insanlıq faciəsi olan soyqırımı görməzdən gəlmək qətiyyən olmaz.

**Dördüncü məqam.** Tam əminliklə deyə bilərik ki, Yekaterinburqda azərbaycanlılara qarşı törədilmiş azğınlıq və şiddət, həmçinin oxşar proseslərin Rusiyanın digər yerlərində də baş verməsi Rusiyadakı şovvinizmin və islamafobiyanın ən yüksək təzahürüdür. Durumun məxsusiliyi də var. Əvvəllər hökumət skinhedlər və digər saxta millətpərəst ünsürləri hərəkətə gətirirdi, indi mənfur əməli icra edənlər bilavasitə hüquq-mühafizə orqanlarıdır. Aydındır ki, bu, heç bir halda təsadüf sayıla bilməz.

Rusiya hakimiyyəti ölkənin azərbaycanlı kəsiminə özü dərs verir ki, mesaj bilavasitə Azərbaycana çatsın. Axı ölkəmizə təsir göstərmək üçün başqa rıçağı qalmayıb. Qarabağ münaqişəsi, bölgədəki separatçı rejim yoxdur. Ölkəmiz tam müstəqil siyasət yeridir, öz maraq və mənafelərini rəhbər tutur. Ona görə də Rusiya “ayılığa” keçib. Görünür, xalq dilində məşhur olan “rus ayısı” ifadəsi elə-belədən yaranmayıbmış.

**Beşinci məqam.** “Rus ayısı” bütün dövrlərin Rusiya hakimiyyətlərinin ümumiləşdirilmiş obrazıdır. İndi isə ölkə iqtidarının “ayılığına” bəraət qazandıran hüquqi termin var. Söhbət etnocinayətkarlıqdan gedir. Cinayət cinayətdir, onu kimin törətməsinin heç bir fərqi ola bilməz. Amma Rusiya “fərq” yaradır. Yaradır ki, ölkədəki digər xalqları cəzalandırmaq üçün daha münbit zəmin olsun.

Kiməsə etnocinayətkar damğası ayrıseçkiliyin edilməsi çoxmillətli Rusiya Federasiyasının quruluşuna da tam zidd təmayüldür. Bu, ölkənin öz iddiaları naminə hüququ alətə çevirməsindən başqa bir şey deyil. Hüquq ona görə iddiaya qurban verilir ki, Rusiyada yaşayan istənilən millətdən olan şəxs başının üstündə, bir növ, damokl qılıncının olduğunu düşünsün. Bu ifadə eyni zamanda rus xalqına digər millətlərin nümayəndələrinin ikinci, – yaxud üçüncü və dördüncü dərəcəli insan olduğunu aşılamaq niyyətindən qaynaqlanır.




Hazırda etnocinayətkarlıq ifadəsi, belə demək mümkünsə, öz işləkliliyinin ən yüksək fazasındadır. Halbuki, Azərbaycanda yaşayan ruslar heç vaxt xoşagəlməz münasibətlə üzləşməyiblər. Onlar hər zaman özlərini tamhüquqlu vətəndaş olaraq hiss ediblər. Ölkəmizə səfərə gəlmiş və ya hansısa səbəblərdən Bakıda və ətraf ərazilərdə yaşayan Rusiya vətəndaşları da hansısa nalayiq rəftarla üzləşməyiblər. Əlbəttə, rus şovinizmi bunu nəzərə almır və almayıb.

Belə qənaətə gəlmək mümkündür ki, hazırda Rusiyada qədim Hindistandakı kasta quruluşuna bənzər quruluş hökm sürməkdədir. Azərbaycanlılar, sanki, həmin kastadakı şudralardır. Hərçənd, şudra münasibəti ilə üzləşən digər xalqlar da var və indiki durumda ölkədə brahmanların, kşatriyaların, vayşyaların kimlər olduqlarını müəyyənləşdirmək çətindir.

Rus şovinizminin düşüncəsinə görə, digər xalqlar onlar üçün çalışmalıdırlar. Zamanında Hitler də almanları ali irqin təmsilçiləri kimi qələmə vermiş, bunu dövlət ideologiyası halına gətirmişdi. Nəticədə tarixə “Xrustal gecə” adı ilə düşmüş qanlı olay yaşanmışdı. Belə ki, 1938-ci ildə Almaniyada və Avstriyada nasistlər tərəfindən yəhudilərə qarşı genişmiqyaslı zorakılıq aksiyası həyata keçirilmişdi.

Qeyd edək ki, “Xrustal gecə” Holokostun (yəhudi soyqırımının) başlanğıcı hesab olunur. Ola bilər, nə vaxtsa Yekaterinburqdakı azərbaycanlı qətlləri də Rusiyadakı etnotəmizləmənin başlanğıcı kimi tarixə düşsün. Çünki hazırda olduqca ağır vəziyyətdə olan Rusiyanın rəhbərliyi problemlərin həlli yolunu proqmatik siyasətdə yox, dağıdıcılıqda, hərbəzorbalıqda, “burda mənəm, Bağdadda kor xəlifə” məntiqində görür. Bu məntiqin bariz nümunəsini ötən il dekbarın 25-də təyyarəmizin vurulmasında gördük. Bu gün də Rusiya təyyarə olayına lazımi hüquqi qiymət vermir, zərərçəkənlərə təzminat ödəmək istəmir. Azərbaycan isə mövqeyində israrlıdır və bununla bağlı beynəlxalq miqyasdakı fəaliyyətini davam etdirəcək, haqqın təntənəsinə nail olacaq.

**Altıncı məqam.** Əvvəldə də bildirdiyimiz kimi, Rusiya Azərbaycana təsir rıçaqlarından məhrum durumdadır. Eyni zamanda, onu da bildirək ki, Moskvada ümumən Cənubi Qafqaz müstəvisindəki “erməni kartı”nın işlək olmadığının fərqindədirlər və durumu dəyişməyə çalışırlar. Mövcud istiqamətdə Ermənistanda bəzi proseslər gedir. Keçmiş prezidentlər Serj Sarkisyanın və Robert Koçaryanın aktivləşdiyini görürük. Üstəlik, onlarla əlbir olan erməni kilsəsi də baş nazir Nikol Paşinyan iqtidarını devirməyə çalışır. Belə bir durumda Rusiyada anti-Azərbaycan ritorikanı körükləmək lazımdır ki, Ermənistandakı revanşist və şovinistlər daha da şirniklənsin. Heç şübhəsiz, Yekaterinburqda başlanmış məşəqqətin başlıca səbəblərindən biri də məhz budur.

**Yeddinci məqam.** Rusiyada “miqrant ovu” çərçivəsindəki anti-Azərbaycan motivli özbaşınalıqlarla əlaqəli daha bir cəhət var. Bu cəhətdə də başlıca rolu erməni amili oynayır. Əvvəldə Azərbaycanın müstəqil siyasət kursunun Kremli razı salmadığını təsadüfən vurğulamadıq. Bir halda ki, Moskva duruma təsir göstərmək iqtidarında deyil və bunun üçün “erməni kartı”nın üzərində dayanır, həmin kartın Rusiya seqmentini də diri tutmaq lazımdır. Ona görə də ölkədəki azərbaycanlıların nüfuz göstəricisi aşağı salınmalıdır. Rusiya bunun yolunu soydaşlarımızı sındırmaqda görür. Yekaterinburqda yaşanan yaramazlıq məhz bu düşüncədən qaynaqlanır. Bu düşüncə sahiblərinin hesablamalarına görə, etdikləri özbaşınalıqlar 44 günlük müharibədən sonra Rusiyada güclənmiş nüfuzlu azərbaycanlı obrazını heçə endirəcək. Müvafiq olaraq, erməni obrazı üstün mövqeyə yiyələnəcək.

Sonda bir məqamı da vurğulayaq. Məlumdur ki, Rusiyada kifayər qədər azərbaycanlı yaşayır. İstər-istəməz, sual olunur: Azərbaycanlılar nə üçün Rusiyadadırlar? Əlbəttə, Rusiya böyükdür və orada daha səmərəli iş imkanları var. Ancaq təkcə bunun üzərində dayanmaq doğru sayılmaz. Çünki dünyanın hər yerində miqrasiya məsələləri önəmlidir və prosesin fərqli səbəbləri var. Rusiyaya miqrasiya baxımından başlıca səbəb isə ölkənin vaxtilə tutduğu işğalçı mövqedir. Məhz işğal amili və onun nəticəsində formalaşmış istisadi və sosial bağ azərbaycanlıların Rusiyada yaşamaları reallığını doğurmuşdu. Sözümüz ondadır ki, ölkə zamanında qəsbkarlıq xətti yürütməsəydi, hazırda Rusiyadakı nəinki azərbaycanlıların, eləcə də digər qeyri-millətlərin mənsublarının sayı indikindən qat-qat aşağı olardı. İnsanlar öz məmləkətlərində qərar tutub ölkələrinin tərəqqisi uğrunda çalışardılar. Tam əminliklə deyə bilərik ki, vaxtilə Çarizmin, sonra bolşevizmin işğalı yaşanmasaydı, malik olduğu potensialını nəzərə alsaq, Azərbaycan indikindən qat-qat üstün mövqedə dayanardı.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Maskaların “yarpaq tökümü”

## *Moskva–Bakı arasında “etimadsızlıq mühiti”ndən ən çox baiskarlar zərər görəcək*

**Etiraf etməliyik ki, ruslar Qafqazı və qafqazlıları çox sevirlər. Dünya miqyasında tanınmış rus şairləri Qafqaza şeirlər, poemalar həsr ediblər. Amma bu ədəbi maskanı taxıb Cənuba tərəf boylanan məkrli siyasi baxışların yiyələrinin şairlərdən fərqli niyyətləri də olub. Həm də bu səbəbdəndir ki, Rusiya isteblişmenti hazırda bölgədəki geostrateji mövqelərinin zəifləməsinə, neçə əsr əvvəl qaladığı tonqalların sönməsinə heç cür yol vermək istəmir.**



Aşkar görünən odur ki, XXI əsrdə rus şovinizminin köhnə kodları yenidən aktiv fazaya keçib. Burada təəccüblü heç nə yoxdur. Çünki Rusiyada imperiya ruhu, velikorus şovinizmi heç vaxt arxa plana keçməyib. Sadəcə olaraq, bu şovinizm, “gəlmələrə” qarşı diskriminasiya halları indi kütləvi hal alıb və açıq şəkildə özünü büruzə verir. Əynində polis mundiri olsa da, əməlləri başıqırxıq skinhedlərdən seçilməyən güc strukturlarının əsas hədəfləri qafqazlılar və Mərkəzi asiyalılardır. “Qara siyahı”nın birinci qrafasında isə azərbaycanlıların adı gəlir. Soydaşlarımız bu ölkədə “yad”, “etibarsız”, “kriminala meyilli” və “daim nəzarət altında saxlanılmalı” kateqoriyalarına aid miqrantlar sayılırlar. Son günlər bu kontingentə qarşı törədilən qanunsuzluqlar, zorakılıq halları Kremlin illərlə maska altında gizlətdiyi “böyük Rusiya” mifinin əyani göstəricisi və canlı nəticəsidir. İstər Çar Rusiyasında, istərsə də Sovetlər Birliyində “mərkəzdənkənar xalqlar” ikinci kateqoriyadan sayılır, onlar daim şübhə altında olublar. İndi həmin şübhə açıq nişangaha çevrilib.

*

Ukraynaya qarşı müharibə səbəbindən Moskvanın sanksiyalar altında əzilməsi, daxildə dərin iqtisadi çətinliklər fonunda rejim kütlənin qəzəbini yönəltmək üçün “daxili düşmən” obrazı yaratmaq taktikasını seçib. Əslində, Kremlin bu avantürist taktikası qeyri-slavyanlara qarşı etnik ayrı-seçkilik deyil, dövlət tərəfindən təşkil və idarə olunan siyasi manevrdir. Səbəblər isə müxtəlifdir. Rəsmi Moskva nə Ermənistanın Qərbə meyillənməsini, nə də Azərbaycanın regionda müstəqil siyasət yürütməsini heç cür həzm edə bilir. Axı Rusiya Cənubi Qafqazı hər zaman özünün “nəzarət zonası”na daxil olan coğrafiya hesab edib. Amma indi bu coğrafiyada Bakının ənənəvi balanslı və müstəqil siyasəti, üstəlik, bölgədə gündən-günə artan rolu Moskvanı qane etmir. İndi, o, başqa mexanizmləri işə salıb. Hökumətyönlü mediada sistemli şəkildə irqçiliyin və şovinizmin təbliği və bu təmayülün dövlət səviyyəsində ört-basdır edilməsi təkcə beynəlxalq hüququn pozulması, ədalətsizlik deyil, həm də şovinizmin, irqçiliyin qanuniləşdirilməsidir.

Bəli, media Kremlin əlində irqçiliyin “ideoloji əsaslarını” formalaşdırmaqdan ötrü səmərəli alətdir. Məhz bu aspektə görə diqqətimizi bu istiqamətə fokuslamağı qərarlaşdırdıq.

Əvvəlcə onu qeyd edək ki, Azərbaycan hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyat zamanı “Sputnik-Azərbaycan” agentliyinin iki əməkdaşı saxlanılıb. Rəsmi açıqlamaya görə, onlar Rusiya Federal Təhlükəsizlik Xidmətində çalışıblar. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova olayla bağlı “Rusiya Bakıdakı rus diplomatların iki saatdan artıqdır ki, jurnalistlərlə əlaqə saxlaya bilməməsindən narahatdır” formasında emosional şərh verib. Bu o deməkdir ki, M.Zaxarova baş verənlərdən Rusiyanın möhkəm qəzəbləndiyi barədə açıqlaması ilə diplomatik havanı “silkələməyə” çalışıb. Şübhəsiz ki, onun ardınca Marqarita Simonyan, Vladimir Solovyov kimi media-təbliğatçıların, Pyotr Tolstoy, Konstantin Zatulin ranqlı siyasətçilərin moizələrini eşidiəcəyik. Amma Bakı bu saxta, maskalanmış dez-informasiyaya əhəmiyyət verməyəcək.

Ən azı, ona görə ki, hələ Sovet İttifaqı dövründə jurnalistika tez-tez kəşfiyyat fəaliyyəti üçün “çətir” kimi istifadə olunurdu. Bu, xüsusilə DTK-nın Birinci Baş İdarəsinin xarici ezamiyyətlərə göndərilən əməkdaşlarına aid idi. “TASS” agentliyinin, “Pravda”, “İzvestiya”, “Literaturnaya qazeta” kimi nəşrlərin jurnalistləri çox vaxt xüsusi xidmətlərə işləməkdə şübhəli bilinirdilər. Keçmiş DTK general-mayoru Oleq Kaluqin “Birinci rəis” adlı xatirələrində yazırdı ki, xaricdəki bir çox sovet müxbirləri “təkcə dəftərlə deyil, həm də kəşfiyyatala” işləyirdilər. Onun sözlərinə görə, jurnalist peşəsi kəşfiyyat üçün ən əlverişli sayılırdı. Çünki onun statusu rəsmi şəkildə mənbələrlə əlaqə saxlamağa, tədbirlərdə iştirak etməyə və getdikləri ölkənin kəşfiyyat xidmətlərinin diqqətini çəkmədən daxildə hərəkət etməyə imkan verirdi.

*

“Rusiya Bakı ilə birbaşa əlaqələr zamanı Azərbaycanda saxlanılan “Sputnik Azərbaycan” agentliyinin əməkdaşlarının azad edilməsinə nail olmağı planlaşdırır”. Rusiya KİV-lərinin məlumatına görə, bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib: “Ümid edirik ki, ən yaxın zamanda Azərbaycan tərəfi ilə birbaşa əlaqələr zamanı onların azad edilməsinə nail ola biləcəyik”. Bu zaman, o, Bakı ilə birbaşa əlaqələrin nə zaman və hansı şərtlər daxilində baş tutacağı barədə heç nə deməyib.

Yeri gəlmişkən, 2019-cu ildə Hollandiya DİN “Rusiya Seqodnya” və “Sputnik”-də çalışan bir neçə rusiyalı “jurnalist”i ölkədən çıxarıb. Bu ölkənin xüsusi xidmət orqanları onların Rusiya hərbi kəşfiyyatının zabitləri olduğunu üzə çıxarıblar. Çexiya, Norveç, Almaniya, ABŞ, Kanada və digər ölkələrin müvafiq qurumları da, faktiki olaraq, Rusiya xüsusi xidmət orqanlarına bağlı olan “jurnalistlər” barədə dəfələrlə məlumat yayıblar. Bunlar danılmaz faktlardır.

Məlumdur ki, 2014-cü ildə “Russia Today2 holdinqinin tərkibində yaradılan “Sputnik” xəbər agentliyi əvvəldən Kremlin təbliğatının ruporu rolunda çıxış edib. Yəni, bu media qurumunun vəzifəsi təkcə “məlumat vermək” deyil, xaricdə Kremlyönlü rəvayətləri yaymaq olub. 2017-ci ildə Fransa “Sputnik” və “RT”-nin Emmanuel Makronun baş qərargahında keçirilən tədbirlər üçün akkreditasiyasını ləğv etdi. Yelisey sarayı qərarını belə izah etdi ki, onlar “media deyil, ictimai rəyə təsir və təbliğat orqanlarıdır”.

Bundan başqa, ABŞ, Böyük Britaniya və Baltikyanı ölkələrdə də “Sputnik” rəsmən xarici agent kimi tanınır. Onun fəaliyyəti hibrid müharibənin bir hissəsi hesab olunur və işçiləri potensial kəşfiyyat agentləridir. NATO-nun “StratCom” Mərkəzinin analitikləri 2020-ci ildə qeyd ediblər ki, “Sputnik”-in FTX və Baş İdarə də daxil olmaqla, Rusiya kəşfiyyat xidmətləri tərəfindən təşkil edilən informasiya əməliyyatları ilə birbaşa əlaqəsi var.

*

Göründüyü kimi, jurnalistlərdən kəşfiyyat və “yumşaq güc” aləti kimi istifadə etmək SSRİ DTK-sı dövründən qalma qədim təcrübədir. Ona görə də Azərbaycan DİN-in “Sputnik” agentliyinin ölkəmizdəki nümayəndələrinə qarşı hərəkətləri, etiraf etmək lazımdır ki, gecikmiş olsa da, tamamilə qanunidir.

Rusiyada siyasi gündəmə gətirilən “Maski-şou”nun bir əlaməti də onun təşkilatçılarının maskalarının yırtılmağa başlamasıdır. Bundan ciddi narahat olan Kremldəki yetkililər azərbaycanlılara qarşı artan şiddət və ayrı-seçkilik fonunda sistemli və məqsədli şəkildə yeni siyasi taktikanı işə salıblar. Rəsmi Moskva bunu qızışdırdığı daxili ictimai qəzəbi istədiyi “ünvana” yönəltmək üçün deyil, həm də Azərbaycan dövlətinə dolayı təzyiq vasitəsi kimi istifadə etməyi düşünür. Bütün bunlar onu deməyə əsas verir ki, Rusiyanın “strateji tərəfdaşlıq”, “mədəni yaxınlıq", yaxud “ticari əməkdaşlıq” maskalarına aldanmaq olmaz.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Şimal qonşumuzda imperiyapərəst əhval-ruhiyyə gücləndikcə keçmiş çar Rusiyasının, eləcə də Sovetlər biriliyinin tərkibində olmuş, hazırda müstəqil dövlətlərə çevrilmiş respublikaların müstəqilliklərini qəbul etməyə çətinlik çəkirlər. Kreml bu dövlətlərə qarşı müxtəlif xarakterli təzyiqlərdən istifadə etməyə çalışır. Azərbaycan 30 ildən çoxdur ki, həm nəqliyyat şəbəkəsi, həm bütövlükdə iqtisadiyyatı, həm ordusu, həm təhlükəsizlik sistemi, həm də diplomatik əlaqələri ilə müstəqilliyini möhkəmləndirir. Amma Rusiya bunu qəbul etmək istəmir. Moskva məhz buna görə Azərbaycana çeşidli təzyiqlərini artlıqmaq xəttini tutub. Onun son günlər müşahidə etdiyimiz tamamilə qanunsuz, cılız addımları atmaqdan başqa heç nəyə gücü qalmayıb. Aydın məsələdir ki, Azərbaycan özünü Rusiyanın düşməninə çevirməyə ehtiyac duymur. İntəhası, Bakı Kremlin məsələlərə bu şəkildə yanaşmasını heç vaxt qəbul etməyib, bundan sonra da etməyəcək. Nəticə ondan ibarət olacaq ki, Azərbaycan Rusiya ilə müttəfiqlik münasibətlərini minimuma endirəcək.

Axı Moskvanın planlarına Azərbaycan vasitəsilə İrana, körfəzə çıxış əldə etmək daxil idi. Ortada etimadsızlıq mühiti yarananda isə, təbii ki, böyük layihələrin gerçəkləşməsindən söhbət gedə bilməz. İndiki reallıq nəinki Rusiya ilə əməkdaşlığı, əksinə, onunla məsafə saxlanılmasını diktə edir. Azərbaycan üçün əsas məsələ Şimaldan gələn bütün təhlükələri neytrallaşdırmaqdır.

# Türk iqtisadi birliyi – yeni qlobal güc mərkəzi




(əvvəli 1-ci səhifədə)

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dövlətləri Təşkilatının Katibliyi ilə birgə 8 dildə təqdim etdiyi “Türk iqtisadi icmalı”nın 2025-ci ilin birinci rübünə dair buraxılışında daha sonra qeyd olunub ki, orta hesabla 5,04 faiz iqtisadi artım qeydə alan türk dövlətləri Dünya Bankının 2025-ci il üçün hesabladığı 2,3 faizlik qlobal orta göstəricini iki dəfə üstələyib. Qırğızıstan 13,1 faiz, Özbəkistan 6,8 faiz, ŞKTR 6,4 faiz, Türkmənistan 6,3 faiz, Qazaxıstan 5,6 faiz artım nümayiş etdirib, Türkiyə və Azərbaycanda isə müvafiq olaraq 2 faiz və 0,3 faiz səviyyəsində artım qeydə alınıb. Macarıstanda isə ÜDM-də cüzi azalma (-0,2 faiz) müşahidə olunub.

Ticarət sahəsində də güclü göstəricilər qeydə alınıb: TDT ölkələrinin ümumi ticarət dövriyyəsi 369,3 milyard dollara çataraq qlobal ticarətin 4,4 faizini təşkil edib. Başqa sözlə, bu göstərici TDT ölkələrinin qlobal ÜDM-dəki payından ikiqat çox olub. Türkiyə, Qazaxıstan, Özbəkistan və Azərbaycanda ixracın artması müşahidə edilib. Xüsusilə Qazaxıstan və Azərbaycan Orta Dəhliz üzrə yük axınlarında davamlı artıma nail olub.

Məlumatda sektorlar üzrə göstəricilər də diqqətə çatdırılıb. Qırğızıstanın kənd təsərrüfatı istehsalı 17 faiz artıb ki, bu da suvarma infrastrukturunun genişləndirilməsi və subsidiyalar hesabına gerçəkləşib. Özbəkistanda ərzaq məhsullarının istehsalı 7,4 faiz artıb, aqro – ixrac genişlənib. Qazaxıstan taxıl ixracını 22 faiz artıraraq Çin və Türkiyə ilə ərzaq təhlükəsizliyi əməkdaşlığını gücləndirib.

Sənaye sahəsində Türkiyədə artım əsasən avtomobil və maşınqayırma sektorlarında baş verib. Özbəkistanda yüngül sənaye və tekstil sektorunda ikirəqəmli artım qeydə alınıb, bu artıma re-eksport fəaliyyəti və xarici investisiyalar töhfə verib. Azərbaycanda qeyri-neft sənayesi 4,1 faiz artaraq emal sənayesi və tikinti materialları üzrə inkişafla nəzərə çarpıb. Nəqliyyat və logistika sahəsində də irəliləyişlər diqqət çəkib, Bakı Limanı Orta Dəhliz üzrə konteyner axınını əhəmiyyətli dərəcədə artırıb, Özbəkistan isə yeni multimodal logistika mərkəzi istifadəyə verib.

Rəqəmsal transformasiya sahəsində də irəliləyişlər müşahidə edilib. Özbəkistan İKT islahatlarını sürətləndirib, Qırğızıstan isə əsas şəhərlərdə “Safe City” sistemlərini pilot mərhələdə tətbiq edib.

Hesabat dövründə Qazaxıstan 7 milyard dollardan çox xarici investisiya cəlb edib, Türkiyə və Özbəkistan isə sənaye və rəqəmsal sahələrdə əsas investisiya istiqamətləri olaraq qalıb. Qırğızıstan sabit kapitala qoyulan investisiyalarda 90 faizə yaxın artım göstərib, ŞKTR-də bank vəsaitləri 43 faiz artıb. Qazaxıstanın bank sektorunun aktivləri isə 17 faiz yüksəlib.

Yaşıl və rəqəmsal keçid sahəsində də mühüm addımlar atılıb. Azərbaycan, Qazaxıstan və Özbəkistan COP29 çərçivəsində razılaşdırılmış Xəzər – Qara Dəniz – Avropa Yaşıl Enerji Dəhlizi üzrə irəliləyişə nail olub. Özbəkistan isə 2030-cu ilə qədər enerji istehsalının 40 faizini bərpa olunan mənbələrdən təmin etməyi qarşısına məqsəd qoyub. Bişkek 2025-ci il üçün “Rəqəmsal Paytaxt” elan edilib.

Bütövlükdə, Türk dövlətləri strateji dəhlizlər, yüksək ticarət intensivliyi və investisiya dinamikası ilə iqtisadi dayanıqlıq, artan inteqrasiya və qlobal dəyər zəncirlərində rolunu artırır. “Türk Dünyası 2040 Vizyonu” çərçivəsində region dayanıqlı inkişaf, ticarət əlaqələrinin gücləndirilməsi və Avrasiya üzrə birləşdirici rolu artırmaq istiqamətində sadiqliyini nümayiş etdirir.

Gənclər Forumu

# Ağdamda İƏT Gəncləri Forumu

**Dünən Ağdamda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Gənclər Forumu keçirilib. İlk dəfə “İqtisadi Əməkdaşlıq Təşkilatı Həftəsi” çərçivəsində keçirilən toplantının əsas məqsədi gənclərin İƏT regionunun gələcəyinin qurulmasında iştirakını gücləndirmək və onların ideyalarını təşkilatın yeni inkişaf strategiyasına daxil etməkdir.**



Məclis gənclərin dayanıqlı inkişaf, iqtisadi inteqrasiya və innovasiya sahələrində fəal rolunu təşviq edəcək, həmçinin onların qərar qəbuletmə proseslərinə cəlb olunmasına töhfə verəcək. Forumda iqtisadi və ticarət əməkdaşlığı, dayanıqlılıq və texnologiya, insan kapitalı və digər mövzular müzakirə olunacaq. Habelə forum gənclərin regional siyasətdə rolunu artırmaq və onların gələcək nəsillər üçün verdiyi töhfələri tanıtmaq baxımından mühüm platforma olacaq

Gənclər və idman naziri Fərid Qayıbov çıxış edərək Ağdamda ilk dəfədir Gənclər Forumunun keçirildiyini xatırladaraq bildirib ki, toplantı çərçivəsində iştirakçılar ölkələrimiz arasında dostluq və qardaşlığımızın inkişafına yönələn təşəbbüslərlə çıxış edəcəklər. Bu həftə Azərbaycanda “ECO həftəsi”nin keçirildiyini xatırladan nazirin sözlərinə görə, gənclər bu işləri önə aparan şəxslərdir: “Biz bununla onu demək istəyirik ki, Azərbaycanda uğurlu gənclər siyasəti həyata keçirilir. İnanıram ki, forumun yekun nəticəsində gənclər siyasətinə dair uğurlu sənədə imza atacağıq. Ağdam 27 il ərzində işğal altında olub. Burada işğaldan əvvək 50 minədək insan yaşayıb. Daha sonra şəhər dağıntılara məruz qalıb”.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd Məcid Xan isə çıxışında Qarabağ Universitetinin rektorunun təklifi ilə tələbə mübadiləsinin həyata keçirmək istəyini bildirib. O qeyd edib ki, regionun müxtəlif ölkələrindən Xankəndiyə tələbələrin gəlməsi, təhsil alması vacibdir.

Forumda İƏT Təhsil İnstitutunun prezidenti Mehmet Akif Kireççi çıxış edərək bildirib ki, bu regionun gəncləri dostluq bağlarını, münasibətlərini qurmağı çox yaxşı bacarır. O deyib ki, təhsil həyatımızın hər bir aspektini əhatə edir: O bildirib ki, təhsil həyatımızın hər bir aspektini əhatə edir. “Bu gün burada, Ağdamda da təhsilimiz davam edir. Təhsil elə evdən, anadan başlayır. Son iki il ərzində müasir təhsil çağırışları ilə üzləşmişik. Təhsil modelləri göstərir ki, hər bir ölkənin xüsusiyyətləri əsasında formalaşır. Biz bu istiqamətdə işlərimizi sürətləndirməliyik”, – deyə o əlavə edib.

Türkiyənin İqtisadi Əməkdaşlıq Təşkilatındakı gənclik nümayəndəsi Mustafa Beydilli isə çıxışında qeyd edib ki, region və dünyanın üzləşdiyi çağırışlar iqlim dəyişmələri ilə yaxından bağlıdır. Gənclərin bu problemlərə cəlb edilməsi bizi daha çox irəli aparacaq. Dayanıqlı və müqavimətli gələcək naminə səylərin birləşdirilməsinin vacibliyini önə çəkən qonaq deyib ki, Türkiyə həm regional, həm də qlobal səviyyədə bu proseslərdə iştirak edir. “2025-ci ildən regional tərəfdaşlığı gücləndirmək, öz təşəbbüslərimizlə çıxış etmək niyyətindəyik. Fəaliyyət təsirli olmalıdır, – deyə M.Beydili fikrini tamamlayıb.

# Çindən Azərbaycana “dəmir yolu – dəniz – dəmir yolu” körpüsü



**Çinlə Bakı arasında yeni “dəmir yolu – dəniz – dəmir yolu” marşrutu istifadəyə verilib. Yeni marşrutla ilk qatar iyunun 30-da Pekinin Fanşan rayonundakı stansiyadan yola düşüb.**

Çin Dövlət Dəmir Yolu Korporasiyası Pekin şöbəsinin məlumatına əsasən, qatar ümumi dəyəri 15 milyon yuandan çox (təxminən 2,093 milyon ABŞ dolları) olan avtomobil ehtiyat hissələri və mexaniki avadanlıqlarla yüklənmiş 104 standart konteynerdən ibarətdir. Bildirilib ki, qatar Sincan-Uyğur Muxtar Rayonundakı Xorqos keçid məntəqəsindən keçərək Qazaxıstanın Aktau Xəzər limanına gedəcək. Daha sonra yüklər dəniz yolu ilə Ələt limanına, oradan isə dəmir yolu ilə Bakıya çatdırılacaq.

Xatırladaq ki, “dəmir yolu – dəniz – dəmir yolu” multimodal sxemi üzrə həyata keçirilən marşrutun ümumi uzunluğu 8 min kilometrdən çoxdur və çatdırılma müddəti təxminən 15 gün təşkil edəcək. Bakıya çatdıqdan sonra konteynerlərin bir hissəsi Gürcüstan, Türkiyə, Serbiya və regionun digər ölkələrinə yönləndiriləcək.

Çin Dövlət Dəmir Yolu Korporasiyasından bildirilib ki, yeni marşrutun açılması Pekin və ətraf regionların müəssisələri üçün rahat və səmərəli logistika kanalı yaradır. Bu, logistika xərclərini azaltmağa, ixrac potensialını artırmağa və Çinin Azərbaycan və regionun digər ölkələri ilə ticari-iqtisadi əlaqələrini gücləndirməyə imkan verəcək.

Fanşan Beynəlxalq Quru Limanı İdarəetmə Şirkətinin baş direktoru Van Çuanmenin sözlərinə görə, marşrut Çin – Avropa qlobal nəqliyyat şəbəkəsinin cənub qolu olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) tərkibinə daxildir. “Multimodal prinsipin istifadəsi ənənəvi dəniz logistikası ilə müqayisədə çatdırılma müddətini əhəmiyyətli dərəcədə azaltmağa və Xəzər regionu, Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələri, həmçinin Mərkəzi, Şərqi və Qərbi Avropa daxil olmaqla əhatə coğrafiyasını genişləndirməyə imkan verir”, – deyə o vurğulayıb.

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin (ADY) bununla bağlı açıqlamasında bildirilir ki, yeni marşrutun istifadəyə verilməsi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) dayanıqlı inkişafını və Bakı Limanının strateji nəqliyyat qovşağı kimi rolunu bir daha ön plana çıxarır. Eyni zamanda, bu marşrut Orta Dəhlizi gücləndirməklə, şimal və dəniz yollarına alternativ olan daha sürətli və dayanıqlı nəqliyyat imkanları təqdim edir.

“Qlobal ticarətdə çevik və etibarlı logistika yollarına ehtiyacın artdığı bir dövrdə Avrasiyanın kəsişməsində yerləşən Bakı Limanı Şərq – Qərb istiqamətində nəqliyyat əlaqələrini asanlaşdıran, iqtisadi inkişafı təşviq edən və regionun qlobal təchizat zəncirindəki rolunu möhkəmləndirən əsas giriş nöqtəsinə çevrilir. Azərbaycan üçün əsas strateji tranzit dəhlizi olan Orta Dəhliz Şərqdən Qərbə və əks istiqamətdə yüklərin daşınmasını təmin edir. ADY 2017-ci ildən bu dəhlizin fəal iştirakçısı və qurucularından biridir. Azərbaycan tərəfi, həmçinin dəhlizin şaxələndirilməsi və alternativ marşrutların formalaşdırılması sahəsində əsas təşəbbüskar rolunu oynayır”, – deyə məlumatda bildirilir.

Yeri gəlmişkən, 2024-cü ildə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. Cari ildə bu həcmin 5,2 milyon tona qədər artacağı gözlənilir. Bunun isə 4,2 milyon tonu marşrutda iştirak edən ölkələrdən keçəcək. Həmin həcmin 2,5 milyon tonu quru yük (96 min TEU ekvivalenti), 1,7 milyon tonu isə neft olacaq.

Marşrutun ötürücülük qabiliyyəti 2027-ci ilə qədər ildə 10 milyon tona çata bilər ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastruktura əlavə investisiyaların cəlb edilməsi üçün davamlı zəmin yaradacaq. Çin Azərbaycan ərazisi ilə Avropaya yeni yükdaşıma xətti çərçivəsində ilk qatarı göndərib.

# Dünya Bankı Azərbaycana 173,5 milyon dollar “yaşıl” kredit ayırır

**“AzərEnerji” ASC ilə Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında “Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi layihəsi” üzrə kredit müqaviləsi, ölkəmizlə bu bank arasında isə həmin layihə üzrə zəmanət sazişi imzalanıb.**



“AzərEnerji”dən verilən məlumata görə, 173,5 milyon dollar məbləğində olan kredit sazişini bu qurumun İdarə Heyətinin sədri Baba Rzayev və Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Ştefani Ştallmayster, kredit müqaviləsinə dair zəmanət sazişini isə Azərbaycan hökuməti adından maliyyə naziri Sahil Babayev və Ş.Ştallmayster imzalayıb.

Cəlb olunan kredit Azərbaycanda tikilməkdə olan bərpa olunan enerji mənbələri üzrə stansiyaların (BOEM) enerji ötürücü infrastrukturunun gücləndirilməsini təmin edəcək. Kredit vəsaiti 5 ili güzəşt dövrü olmaqla 15 illik müddətə cəlb olunur və kreditin qaytarılması 2039-cu ilin sonunda bitəcək. Layihədə Azərbaycan hökumətinin iştirak payı (31,2 milyon dollar) ƏDV və gömrük rüsumlarının ödənilməsindən ibarətdir.

İcra müddəti 4 il olan layihənin əsas məqsədi “AzərEnerji” ASC-nin enerji sisteminin fəaliyyətinin yaxşılaşdırılması və tikilməkdə olan bərpaolunan enerji mənbələrinin növbəti 5 il ərzində enerji ötürücü şəbəkəsinə təhlükəsiz inteqrasiyasına dəstək göstərməkdir. Layihə çərçivəsində Dünya Bankı tərəfindən ümumi uzunluğu 341 kilometr olan 500 və 330 kV-luq 4 elektrik verilişi xəttinin tikintisi, eləcə də 500/330/10 kV-luq “Nəvahi” yarımstansiyası üçün transformator və əlaqəli avadanlıqların alınması maliyyələşdiriləcək.

İmzalanma mərasimində nazir Sahil Babayev Dünya Bankı Qrupunun ölkəmizdə həyata keçirilən inkişaf proqramlarına verdiyi davamlı dəstəyi yüksək qiymətləndirib. Nazir Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq beynəlxalq maliyyə qurumları ilə layihə maliyyələşdirilməsi üzrə əməkdaşlığın genişləndirilməsi çərçivəsində imzalanan kredit müqaviləsinin ölkəmizin enerji sektorunda dayanıqlı və yaşıl enerji mənbələrinə keçidin sürətləndirilməsi, enerji təhlükəsizliyinin təmin olunması və iqlim dəyişiklikləri ilə mübarizə baxımından əhəmiyyətini qeyd edib.

# SES-lərdə enerji istehsalı 28 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-may aylarında ölkədə su enerjisi ilə işləyən stansiyalarda 1,506 milyard kVt-saat elektrik enerjisi (ötən ilin eyni dövrü ilə müqayisədə 326,7 milyon kVt-saat və ya 27,7 faiz çox) istehsal edilib.**



Qeyd edək ki, respublikada elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2025-ci ilin yanvar-may aylarında 1,518 milyard manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib. Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 252,9 milyon manat olub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# "Əkinçi" ənənələri demokratik prinsiplərlə zənginləşir



**Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi 1875-ci ildə "Əkinçi" qəzetini nəşr etməkdə başlıca məqsədi cəmiyyətə xidmət edən, maarifləndirici və milli düşüncəyə söykənən bir mətbuat yaratmaq idi. Bununla da o, ölkədə maarifçi milli mətbuat tarixinin əsasını qoydu.**

Zərdabinin reallaşdırmaq istədiyi ideyalar dövrümüzdə də aktuallığını qorumaqda və dövlətimizin media siyasətində öz əksini tapmaqdadır. Prezident İlham Əliyevin mətbuata verdiyi davamlı dəstək, Zərdabi irsini yaşatmaqla bərabər, müasir medianın inkişafı üçün də yeni imkanlar yaradır. Bu gün ölkədə həyata keçirilən media islahatları, Həsən bəyin "Xalq üçün, xalqla birlikdə" prinsipinə əsaslanan maarifçi ruhunun davamı kimi çıxış edir. Bu yanaşma yalnız maddi-texniki və sosial dəstəklə məhdudlaşmır, həm də milli-mənəvi irsə sədaqətin ifadəsidir.

Dövlətimizin başçısı İlham Əliyev uzun illərdir ki, ölkədə informasiya cəmiyyətinin inkişafına, medianın müasir tələblərə uyğunlaşdırılmasına və jurnalistlərin sosial rifahının yaxşılaşdırılmasına xüsusi önəm verir. Dövlət başçısının mətbuata güclü dəstəyi həm qanunvericilik təşəbbüslərində, həm də konkret sosial layihələrdə öz əksini tapır.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkədə bir sıra mühüm dövlət proqramları qəbul edilmişdir. Bu proqramların əsas məqsədi media sahəsində şəffaflığın, peşəkarlığın və texnoloji yeniliklərin təşviq olunmasıdır. 2008-ci ildən fəaliyyət göstərən Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu bu istiqamətdə mühüm rol oynamışdır. Fond vasitəsilə jurnalistlər üçün təlimlər, təqaüdlər və digər maddi dəstək proqramları həyata keçirilmişdir.




Prezident İlham Əliyevin jurnalistlərə göstərdiyi sosial qayğının bariz nümunələrindən biri kimi jurnalistlər üçün inşa edilən yaşayış binaları qeyd oluna bilər. Onlarla jurnalistə dövlət tərəfindən mənzil verilməsi bu peşə sahiblərinin sosial təminatının gücləndirilməsinə və medianın müstəqil nüfuzunun artırılmasına xidmət edir.

Cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, söz və ifadə azadlığı Azərbaycanın dövlət siyasətinin əsas prinsiplərindən biridir. Hazırda ölkədə yüzlərlə mətbuat orqanı sərbəst fəaliyyət göstərir. İlham Əliyev medianın cəmiyyət üçün tənqidi gücə sahib olmasının vacibliyini qeyd edərək, jurnalistikanın azad, lakin məsuliyyətli olmasının tərəfdarıdır.

Son illərdə isə Prezidentin təşəbbüsü ilə rəqəmsal medianın inkişafı xüsusi diqqət mərkəzinə çevrilmişdir. Elektron mediaya dair hüquqi bazanın yaradılması, internet resurslarının qeydiyyata alınması və texniki imkanların artırılması bu istiqamətdə atılan uğurlu addımlardandır.

Nəticə etibarilə, Prezident İlham Əliyevin mətbuat sahəsinə verdiyi sistemli və ardıcıl dəstək, Azərbaycanda həm müasir informasiya cəmiyyətinin qurulmasına, həm də söz və ifadə azadlığının təmininə xidmət edir. Həyata keçirilən islahatlar, medianın peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, jurnalistlərin sosial rifahının yaxşılaşdırılmasına və milli-mənəvi dəyərlərə söykənən informasiya məkanının formalaşmasına yönəlib.

Bu siyasət, ulu öndər Heydər Əliyevin mətbuat haqqında söylədiyi bu dərinmənalı fikrin müasir davamı kimi qiymətləndirilə bilər: "Mətbuat cəmiyyətin güzgüsüdür. Mətbuat cəmiyyətdə baş verən hadisələri obyektiv şəkildə işıqlandırmalı, xalqla dövlət arasında körpü olmalıdır".

Bu fikirlər bu gün də Azərbaycan media siyasətinin ideoloji əsasını təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu davamlı siyasət, Həsən bəy Zərdabidən başlayan maarifçilik yolunun, Heydər Əliyevin müdrik dövlətçilik strategiyası ilə uzlaşaraq, gələcəyə doğru inamla irəlilədiyini sübut edir.

***Ramil MEHDİYEV,***
***Dövlət İdarəçilik Akademiyasının tələbəsi***

**Təqvim yada salır**

# Peşəkar jurnalistlərin unudulmaz ustadı

**Mətbuatımızın 150 illik yübileyi ərəfəsində xatirəsini hörmətlə yad etdiyimiz ustad qələm sahibi və müəllimlərimizdən biri də Nəsir Əhmədlidir. Yaşasaydı, indi media ictimaiyyəti, çoxsaylı yetirmələri, doğmaları, dostları onun doğum gününü sevgilərlə qeyd edər, xoş arzularını bildirərdilər. Amma artıq 3-cü ildir ki, sevimli müəllimimizin ad günü onunla bağlı unudulmaz xatirələri yada salır, səmimi təbrikləri ruhuna ünvanlanan rəhmət duaları əvəz edir.**



BDU-nun professoru, filologiya elmləri doktoru, Əməkdar jurnalist Nəsir Əhmədli müasir Azərbaycan jurnalistikasının elmi-nəzəri bazasının formalaşdırılmasında və gənc kadrların hazırlanmasında müstəsna xidmətləri olan görkəmli alim və pedaqoqlardan olub. Onun çoxşaxəli fəaliyyəti həm praktik jurnalistika, həm də jurnalistika elminin nəzəri-metodoloji əsaslarının formalaşması baxımından əhəmiyyətlidir.

Nəsir Əhmədlinin fəaliyyəti təkcə elm və tədris sahələri ilə məhdudlaşmır, həm də praktik jurnalistika və ictimai fəaliyyət istiqamətlərində mühüm əhəmiyyət kəsb edir. Yaradıcılığı ilə jurnalist mədəniyyətinin, xüsusən də nitq mədəniyyətinin formalaşmasına və peşəkar medianın təşəkkülünə əhəmiyyətli töhfələr vermiş Nəsir Əhmədli həm də cəmiyyətin düşüncə tərzinə təsir göstərən, ictimai rəy formalaşdıran söz adamı idi.

Nəsir Əhmədli 1942-ci ilin 1 iyulunda Tovuz rayonunun Alakol kəndində dünyaya gəlib. İlk əmək təcrübəsini V. Sturua adına Bakı Gəmi Təmiri Zavodunda keçib. Amma elmi və yaradıcı axtarışlara meyli onu təhsil yoluna yönəldib və Azərbaycan Dövlət Universitetinə (indi BDU) daxil olaraq jurnalistika ixtisası üzrə təhsil alıb. Ali təhsilini başa vurduqdan sonra Dövlət Televiziyasında jurnalist kimi fəaliyyət göstərib.

Nəsir müəllimin elmi-pedaqoji fəaliyyəti Azərbaycan jurnalistikasının görkəmli simalarından biri, məşhur media tarixçisi Şirməmməd Hüseynovun dəvəti ilə başlayıb. Onun təşəbbüsü ilə Nəsir Əhmədli universitetin jurnalistika fakültəsində çalışmağa başlamış və burada ömrünün sonuna qədər elmi-pedaqoji fəaliyyətini davam etdirib, beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasında beynəlxalq informasiya sistemləri, media siyasəti, qlobal kommunikasiya prosesləri kimi sahələrdən dərs deyib. Bu dövrdə o, həm də elmi yaradıcılığını davam etdirərək, jurnalistika nəzəriyyəsi və media təhlili sahəsində mühüm tədqiqatlara imza atıb. 2007-ci ildə "Azərbaycan Beynəlxalq Radiosunun Yaxın və Orta Şərq ölkələrinə yayımı: tarix, təcrübə, nəzəriyyə" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Onun müəllifi olduğu 100-dən artıq elmi məqalə, 3 monoqrafiya, 1 dərslik, 5 dərs vəsaiti və ümumilikdə 15 kitab Azərbaycan jurnalistika elminin əsas mənbələrindən biri hesab olunur. Beynəlxalq radio yayımı sahəsində hazırladığı model-sxem isə jurnalistikanın müxtəlif sahələrində tətbiq edilə bilən mühüm nəzəri-praktik yeniliklərdən biri kimi qiymətləndirilir. Onun elmi araşdırmaları jurnalistikanın yalnız bir peşə deyil, həm də cəmiyyətin informasiya sistemində strateji əhəmiyyət daşıyan bir sahə olduğunu sübut edir. Əsas tədqiqat istiqamətləri sırasında milli mətbuat tarixinin mərhələləri, informasiya texnologiyalarının jurnalistikaya təsiri, beynəlxalq media mühitində Azərbaycan həqiqətlərinin təbliği və media etikası xüsusi yer tutur.

Nəsir Əhmədli Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü idi. Uzun illər Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin tərkibində təmsil olunub. Peşəkar fəaliyyətinə görə 2010-cu ildə Əməkdar jurnalist fəxri adına layiq görülüb, III dərəcəli "Əmək" ordeni, Ali Media Mükafatının I dərəcəsi, jurnalistika sahəsində digər bir çox populyar mükafatlarla təltif edilib.

Professor Nəsir Əhmədli Azərbaycan jurnalistika elminin inkişafında, eləcə də beynəlxalq media sahəsindəki nəzəri axtarışlarda və praktiki tədris prosesində önəmli yerə malik olan alimlərdən olub. Onun elmi və pedaqoji irsi ali təhsil müəssisələrində tədris olunur və gələcək nəsil tədqiqatçılar üçün dəyərli qaynaq funksiyası daşıyır.

Akademik fəaliyyətini pedaqoji məsuliyyətlə birləşdirən Nəsir müəllim çağdaş Azərbaycan mətbuatının formalaşmasında əməyi olan görkəmli ziyalı kimi ehtiramla xatırlanır. 2022-ci il iyunun 7-də 80 yaşında vəfat edib və özünün vəsiyyətinə əsasən doğulduğu Tovuzun Alakol kəndində torpağa tapşırılıb. Ruhu şad olsun!

*XQ*

# Gəncədə mətbuatın yaranması və inkişafı

**Ölkəmizdə çap mediasının tarixçəsi rus işğalından sonrakı rəsmi həyatla bağlı məlumat xarakterli vərəqələrin işıq üzü görməsi dövrünə gedib çıxır. Qafqazda çap üsulu ilə nüsxələrin çoxaldılması və yayım müəssisələrinin yaranması ictimai söz tribunası olan qəzet-jurnalların meydana çıxmasına texniki şərait yaratmışdır.**

Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə yaranmış mətbəə və mətbu nəşrlər milli mətbuat tariximizin önəmli qaynaqları sırasındadır. Xanlığın işğal yolu ilə Rusiyaya birləşdirilməsindən sonra Gəncənin adının 2 dəfə dəyişdirilməsi – çarın həyat yoldaşının şərəfinə Yelizavetpol, sovet illərində isə bolşevik canişin Kirovun xatirəsinə Kirovabad adlandırılması, müstəqilliyin bərpası ərəfəsində tarixi adın geri qaytarılması müxtəlif illərdə burada buraxılan dövri nəşr olunan qəzetlərin loqosunda da əksini tapmışdır.

Gəncədə çap məhsulu buraxılışının tarixi XX əsrin əvvəllərində şəhərin Yelizavetpol adlandırıldığı illərlə bağlıdır. İctimai- siyasi yayım kimi işıq üzü görən "Yelizavetpolskie otqoloski"nin cəmi 2 sayı 1906-cı il mayın 21 və iyunun 2-də buraxılmışdır. Burada əsasən Pusiyada buraxılan bolşevik qəzetlərindən götürülmüş materiallar yer almışdır. Şəhərdə ilk qəzet nümunəsi isə elan vərəqi şəklində buraxılmışdır. 1910 – 1911-ci illərdə bir neçə nömrəsi çap olunmuş "Jurnal obyavleniya" Gəncə mediasının tarixində mətbu nəşr sayılır.

Sonrakı illərdə Yelizavetpol quberniya idarəsinin gündəlik orqanı olan "Yelizavetpolski listok"un 1911-ci il mayın 2-dən 1912-ci il sentyabrın 11-dək 19 nömrəsi buraxılmışdır. Qəzet burjuaziyanın müdafiəçisi kimi çıxış etmişdir. O illərdə Gəncədə rus dilində daha bir nəşr – "Yujnıy Kafkaz"adlı gündəlik siyasi, ictimai və ədəbi qəzet nəşr olunmuşdur. 4 səhifədən ibarət qəzetin 110 sayı işıq üzü görmüşdür. Onun rəhbərləri sırasında Fyodorov və Qriftsov ilə yanaşı, həkim, ictimai-siyasi xadim Həsən bəy Ağayevin də adı var.

XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin azadlıq və müstəqillik uğrunda apardığı mübarizə zamanı yeni qurulmuş hökumət 1918-ci il iyulun 3-də "Azərbaycan cümhuriyyəti hökumətinin əxbarı" adlı rəsmi orqanın nəşrinə qərar vermişdir. 1918-ci il sentyabrın 15-də işıq üzü görən "Azərbaycan" adlı gündəlik ictimai-siyasi, iqtisadi qəzetin 4 sayı Gəncədə nəşr olunmuşdur. Qəzetdə hökumətin rəmi materialları və digər yazılar dərc edilmişdir.

Covet hakimiyyətinin ilk dövründə Gəncədə bolşeviklərin müxtəlif illərdə nəşri çox az sürən "Yeni Gəncə", "Şüra Gəncəsi", "Sosializm yolu" kimi təşviqat vərəqələri buraxılmışdır. İlk nömrəsi 1920- ci ilin mayın 5-də çapdan çıxan şəhər qəzeti müntəzəm nəşr kimi "Qırmızı Gəncə", "Zərbə", "Kirovabad bolşeviki", "Kirovabad fəhləsi", "Gəncə Kommunisti", "Kirovabad kommunisti" adları altında oxuculara təqdim olunmuşdur. Şəhərdə mətbu nəşrlər üzərində senzura nəzarəti həyata keçirmək üçün mətbuatda dövlət sirlərini qoruyan qurumun Gəncə nümayəndəliyi yaradılmışdır.

1928-ci ildə Gəncə Qəza Xalq Maarif Şöbəsi işçiləri həmkarlar təşkilatı və "Qızıl qələmlər" cəmiyyəti şəhər şöbəsinin orqanı kimi "Qızıl Gəncə" adlı aylıq, elmi-ədəbi, ictimai-pedaqoji jurnal nəşr olunmuşdur. Jurnalın cəmi 5 nömrəsi çıxmışdır. Nəşrdə ictimai-siyasi məsələlərə dair yazılar, Səməd Vurğun, Mir Cəlal, Cəfər Xəndan, Mikayıl Rzaquluzadə kimi gənc ədiblərin şeir və hekayələri, ədəbiyyat, dil və incəsənət haqqında məqalələri dərc olunmuşdur.

1990-cı ildə başlanan azadlıq hərəkatı zəminində xalqın tələbi ilə Gəncənin tarixi adı özünə qaytarıldıqdan conra qəzet həmin ilin yanvar ayının 1-dən "Gəncənin səsi" adı altında çıxır və çətinliklə də olsa, özfəaliyyətini bu gün də davam etdirir. Rusdilli qəzet isə "Vestnik Qyandji" adlandırılmışdır. Hazırda "Novosti Qyandji" adı ilə çap olunur.

Gəncədə məskunlaşan digər xalqların mənafeyi nəzərə alınaraq rus dilində ikinci bir şəhər qəzetinin çap olunması da nəzərdən qaçmamışdır. Bu qəzetin ilk nömrəsi "İzvestiya" adı ilə 1922-ci il yanvarın 1-ci həftəsində Gəncə Qəza İcraiyyə Komitəsinin və Qəza Həmkarlar Bürosunun təsisçiliyi ilə çap edilmişdir. Həftədə 3 dəfə çıxan qəzetin redaktorluğu Gəncə Qəza İcraiyyə Komitəsinin sədrinə həvalə edilmişdir. 1923-cü ildən qəzet "Novaya Qyandja", Gəncənin adı dəyişdirildikdən sonra 1935-cu ildən "Kirovabadski raboçi" adları ilə çıxmışdır.

Gəncə vilayətinin təşkili ilə əlaqədar 1953-cu ildə hər iki şəhər qəzeti "Kirovabad kommunisti" və "Kirovabadski raboçi" birləşdirilərək Gəncə Vilayət Partiya Komitəsinin orqanı kimi rus və Azərbaycan dillərində "Gəncə kommunisti" və "Qyandjinski kommunist" adı ilə həmin ilin mayın sonunadək çap olunmuşdur. Gəncə vilayəti ləğv olunduqdan sonra, hər iki qəzet yenidən öz köhnə adları ilə Kirovabad Şəhər Partiya Komitəsi və XDS İcraiyyə Komitəsinin orqanı kimi ayrıca nəşr edilməyə başlamışdır.

Şəhərin qəzetləri Gəncədə Sabir küçəsində yerləşən mətbəədə nəşr olunurdu. 1990-cı ildə Mətbuat Komitəsinin qərarı ilə yaradılan "Azərnəşr"in Gəncə redaksiyasının səlahiyyətləri 1995-ci ildə Gəncə Şəhər İcra Mətbəəsinə verilmiş və müəssisə sonralar Gəncə Şəhər Nəşriyyat-Poliqrafiya Birliyinə çevrilmişdir.




1993-cü ildə Yeni Azərbaycan Partiyasının Cəncə şöbəsi təsis edilmiş və 1996-cı ilin may ayından onun "Yeni Gəncə" adlı qəzeti təsis olunmuşdur. Hazırda qəzet nəşrini uğurla davam etdirir.

SSRİ dövründə istehsal, kolxoz və ali təhsil müəssisələrində yaradılan və divar qəzetlərinin çoxaldılmış forması kimi xarakterizə edilən çoxtirajlı qəzetlərin nümunələri Gəncədə də işıq üzü görmüşdür. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) rektorluğunun və ictimai təşkilatlarının orqanı kimi yaradılan "Aqrar mütəxəssis" çoxtirajlı qəzeti 1933-cü ildən çıxmışdır. Sonra "Kadr uğrunda" adlandırılan qəzet AKTA-nın tələbə həyatına, təhsilə, təlim-tərbiyəyə, gənc tədqiqatçıların yetişdirilməsinə, alimlərin axtarış və tapıntılarına dair yazılar dərc edib.

"Yüksəliş" çoxtirajlı qəzeti isə Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun (hazırda Universitet) rektorluğu, partiya bürosu, komsomol və həmkarlar təşkilatlarının orqanı kimi 1968-ci ilin may ayından nəşrə başlamışdır. Gəncə Alüminium zavodunda da 1970-ci ilin martında əvvəlcə bülleten şəklində, daha sonra "Əməkçi" və "Trujenik" kimi hər iki dildə 4 səhifəlik qəzet çap olunmuşdur.

Toxuculuq kombinatının müdiriyyəti, partiya və həmkarlar ittifaqı təşkilatlarının orqanı kimi "Toxucu" çoxtirajlı qəzetinin ilk nömrəsi 12 mart 1980-ci ildə çapdan çıxmışdır. Gəncədəki 3 saylı tikinti-quraşdırma trestinin nəzdində "Peyk" adlı çoxtirajlı qəzet isə 1980-ci ildən çap olunmuş və müəssisələr bağlandığına görə nəşri dayandırılmışdır.

Rəsmi orqanlara bağlı mətbu nəşrlərdən başqa Gəncədə elmi-ədəbi, pedaqoji dərgilər də buraxılmışdır. Məsələn, "Nizami yurdu" adlı müstəqil həftəlik qəzetin ilk nömrəsi 1990-cı ilin sentyabr ayında çıxmışdır. Qəzet özünə Nizami Gəncəvinin "Çalış öz xalqının işinə yara, geysin əməlindən dünya zər-xara" misralarını epiqraf seçmişdi. Qəzetdə şerlər, tarixi araşdırmalar, mədəniyyət abidələrimizin tarixi və bu günü ilə bağlı materiallar çap olunurdu. 1992-ci ildən nəşri dayanmışdır.

Ədəbi-bədii, elmi, kütləvi, publisistik nəşr olan "El" jurnalı 3 aydan bir çıxırdı. Lakin onun da nəşri bir müddət sonra dayanmışdır. İlk sayı 1989-cu ilin dekabrında çıxan "Vətən" adlıictimai-siyasi qəzet bir il gizli şəkildə, bəzən də respublikadan kənarda çap olunmuşdur. 1992- ci idə fəaliyyətini dayandırmışdır.

1991-ci ilin aprelində Gəncədə "Cəsarət" gənclər qəzeti "Vətənimiz, and yerimiz" şüarı ilə çap olunmağa başlamışdır. Gəncə şəhər icarə mətbəəsində nəşr olunan qəzetin təsisçisi Azərbaycanın Tərəqqisi uğrunda Kommunist Gənclər İttifaqı Gəncə şəhər komitəsi olmuşdur. 1992-ci ildən nəşri dayanmışdır.

Ölkədə ilk rəngli qəzet də Gəncədə çap olunmuşdur. Bu, "Kəpəz" futbol klubunun təsisçiliyi ilə ayda 2 dəfə 4,6, bəzən də 8 səhifə həcmində nəşr olunan "Kəpəz" qəzeti idi. İlk nömrəsi 1998-ci ilin aprelində işıq üzü görən qəzet geniş populyarlıq qazanmışdır.

Hər bir qəzet öz oxucusunun səsidir. Janr rəngarəngliyi ilə işıq üzü görən bu nəşrlər insanların asudə vaxtlarının təşkilində, məlumatlanmasında və maariflənməsində, daxili aləminin zənginləşməsində mühüm rol oynamışdır. Azərbaycan mətbuatının 150 illik tarixini isə Gəncə mətbuatı olmadan təsəvvür etmək mümkün deyil. Yeri gəlmişkən, bu sahənin dərindən öyrənilməsinə, elmi araşdırmalara çox ehtiyac duyulur.

***Amlı yQ ASIMOVA,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü, tarix üzrə fəlsəfə doktoru***

Yeni nəşrlər

# Mühacirət ədəbiyyatının tədqiqinə töhfə

## *Abid Tahirlinin "Abay Dağlının həyat və yaradıcılığı" monoqrafiyası haqqında düşüncələr*

**Bu gün Azərbaycan ədəbiyyatşünaslığında mühacir ədəbiyyatının, mətbuatının tədqiqindən söz düşəndə ilk yada düşən adlardan biri də Abid Tahirlidir. AMEA Nizami adına Ədəbiyyat İnstitutu Azərbaycan mühacirət ədəbiyyatı şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, professor Abid Tahirlinin adı daha bir tədqiqatı ilə gündəmə gəlib.**

O, 70 illik ömrünün tən yarısını bu sahəyə həsr edib, repressiya illərinin cəmiyyətdən qopardığı işıqlı insanları - söz-sənət adamlarını yenidən üzə çıxarmağa, onların elmi, bədii, ictimai-siyasi fəaliyyətlərini geniş ictimaiyyətə təqdim etməyə nail olub. Bu şərəfli missiyasına ilk əvvəl publisistikasında, jurnalist fəaliyyətində başlayıb, sonradan bu axtarışlar, tədqiqlər bədii-elmi müstəviyə keçib və bu gün paralel aparılır.




Abid Tahirlinin XX əsr Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan mühacir yazıçı, dramaturq Mirzə Abay Dağlının həyat və yaradıcılıq yolundan bəhs edən yeni monoqrafiyasını onun tədqiqatçı alim kimi elmi fəaliyyətinin mühüm nailiyyəti, böyük uğuru hesab etmək olar. Xalq yazıçısı Elçin kitaba yazdığı ön sözdə müəllifin mühacirət mövzusuna sadiqliyini yüksək dəyərləndirib: "A.Tahirlinin mühacirət mətbuatı və ədəbiyyatı ilə bağlı araşdırmalarında, məqalə və monoqrafiyalarında qələm sahiblərinə hörmət, ehtiram var, ancaq aludəçilik yoxdur, çünki söhbət tədqiq və təhlil obyektinə ciddi və obyektiv münasibətdən gedir.

Onun son illərdə yazdığı "Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu" (Bakı, "Elm və təhsil", 2019.), "Məhəmməd Altunbayın həyatı və yaradıcılığı" (Bakı, "Xəzər" Universiteti Nəşriyyatı, 2023.) kimi monoqrafiyalarından sonra "Abay Dağlının həyatı və yaradıcılığı" monoqrafiyası yeni yaradıcılıq uğurudur və Abid bu silsiləni belə bir ardıcıllıqla davam etdirsə, elə bilirəm ki, ədəbi mühacirətşünaslığımızın mənzərəsi bütövlük, müfəssəllik baxımından qazanmış olar".

Mühacirət ədəbiyyatını, xüsusən bu ədəbiyyatın XX əsrin 30-60-cı illər dövrünü tədqiq etməyi əksər ədəbiyyatşünas alimlər iynə ilə gor qazmaq adlandırırlar. Səbəb də budur ki, həmin dövrdə mühacirət etmiş şair, nasir, publisistlərin yazılı irsi repressiya xofundan, stalinizmin vahiməsindən, demək olar ki, məhv edilib, arxivlərdəki az-çox mənbələri üzə çıxarmağa isə günün bu günündə də müəyyən maneələr yaradılır. Güman qalır qonşu Türkiyə Cümhuriyyətinin və bir çox Avropa ölkələrinin arxivlərinə ki, Abid Tahirli də elmi tədqiqatında ən çox bu mənbələrdən bəhrələnib. Professorun Türkiyə, Fransa, Almaniya muzey və arxivlərindən olan paylaşımlarını diqqətlə izləyənlər bilir ki, tədqiqatçı alimin bu gedişləri təsadüfi deyil, yeni, növbəti elmi araşdırma mövzusudur, yeni monoqrafiyanın yazılması üçün zəmindir, növbəti addımdır.

Mütəxəssislər Abid Tahirlinin yeni nəşr olunmuş "Abay Dağlının həyat və yaradıcılığı" monoqrafiyasını bu yaradıcı şəxsiyyətin bədii irsinin araşdırılması istiqamətində sanballı və fundamental tədqiqat işi hesab edirlər. Xatırladım ki, Abid müəllimin mühacirət mətbuatı və ədəbiyyatının tədqiqi mövzusunda bu günə kimi 19 kitabı və onlarla məqaləsi işıq üzü görüb.

Görkəmli ədəbiyyatşünas alim Xeyrulla Məmmədovun Abid Tahirlini tədqiq etdiyi sahənin "lokomotivi" adlandırması da təsadüfi ifadə, gəlişigözəl söz deyil, araşdırmaçı alimə uzun illər boyu apardığı silsilə elmi tədqiqatlarına görə verilən dəyərdir. Qeyd edək ki, son monoqrafiyasında Abid Tahirli Abay Dağlının "Onlar türklərdi" romanını, "Dədə Qorqud", "Malazgirtdən Sakaryaya", "Sakarya çətəsi", "Sakarya", "Atatürk", "Atamızın gəncliyi", "Sakaryada 22-ci gün", "Ata anıları", "Albay", "Okullular", "Füzuli", "Əsir ruhlar" pyesləri və sair əsərlərini, onun "Mücahid" dərgisində dərc etdirdiyi məqalə və şeirlərini tədqiqata cəlb edib.

Maraqlı, mürəkkəb və zəngin bir yaradıcılıq yolu keçən Abay Dağlının yaradıcılığı iki mərhələdə tədqiq olunur – mühacirətəqədərki və mühacirət dövrü. Professor A.Tahirli Abay Dağlının mühacirət dövrü yaradıcılığını həm sənətkarlıq, həm də mövzu-ideya baxımından daha zəngin hesab edir, onun "Onlar türklərdi" romanını repressiyanın, bolşevizmin, faşızmin bədii ittihamı adlandırır.

Abay Dağlının "Kitabi-Dədə Qorqud" dastanının motivləri əsasında qələmə aldığı "Dədə Qorqud" pyesini təhlil edərkən Abid Tahirli əsərin milli-mənəvi, bəşəri dəyərlərinə xüsusi diqqət çəkir. Bu diqqəti müəllifin təhlil üçün seçdiyi şeir parçalarında da görmək mümkündür:

**Yurdunu sevmirsə böyük hökmdar,**
**Bilməm ki, nasıl bir böyüklüyü var.**
**Başda olan kişi yol açmalıdır,**
**Ətrafa hər zaman nur saçmalıdır.**

Abid Tahirlinin monoqrafiyası təkcə elmiliyinə, bədiiliyinə görə əhəmiyyətli deyil, yurd həsrəti ilə qərib ölkələrdə həyatdan köçən oğullarımızın tanıdılması istiqamətində atılmış növbəti bir addımdır, onlara sözlə qoyulmuş abidədir, milli yaddaşımızı oyaq saxlayan əcəl zəngidir:

**Yetər unutduğum kəndi adımı,**
**Dilimi, ruhumu və əcdadımı.**

Oxuculara bir anons da verim. Professor Abid Tahirli daha bir monoqrafiya üzərində çalışır. Nağı Şeyxzamanlının həyat və yaradıcılığından bəhs edən bu monoqrafiyasında da Abid müəllim mühacirət mövzusuna sadiq qalır.

***Esmira İSMAYILOVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

# Azərbaycanın ilk ev muzeyi

## *Mirzə Fətəli Axundov xatirə ocağının 85 yaşı tamam olur*



**Görkəmli şəxsiyyətlərin ev muzeyləri mənzillərin təyinatının dəyişdirilərək memoriallaşdırılması yolu ilə yaradılır. Bu tip muzeylər adətən hansısa məşhur yaradıcı şəxsiyyət dünyasını dəyişdikdən sonra, əksər hallarda onun doğulduğu, yaşadığı evdə yaradılır. Muzeyləşmiş evlərin ekspozisiyasında tarixi şəxsin əşyaları, sənədləri, əsərləri ilə bərabər, dövrünün mühiti qorunub saxlanır.**



Dünyada ev muzeyləri çoxdur. Böyük Britaniyada yazıçı evlərini ziyarət etmək meyli ilk dəfə 1840-cı illərdə müşahidə olunub. Sonra digər ev muzeyləri yaradılıb. Azərbaycanda isə ilk ev muzeyi 1 əsr sonra – 1940-cı ildə Şəkidə dramaturgiyamızın və ədəbi tənqidimizin banisi maarifçi, şair, materialist filosof və ictimai xadim Mirzə Fətəli Axundzadənin anadan olduğu ünvanda yaradılıb. Bu tarix bəzi mənbələrdə yanlış olaraq 1938-ci il göstərilir. Çünki məhz 1938-ci ildə Axundovun 125 illik yubileyinin keçirilməsi məsələsi müzakirə olunub, bir sıra qərarlar verilib. Ev muzeyi isə iki il sonra ərsəyə gəlib. İndi o vaxtdan düz 85 il keçir.

Şəkinin tarixi hissəsində yerləşən ev həm də yerli əhəmiyyətli abidə olaraq dövlət tərəfindən mühafizə olunur. XVIII əsrin sonunda ənənəvi Şəki evi tipologiyasına uyğun inşa edilmiş bina iki otaq, bir eyvan və zirzəmidən ibarətdir. Bu ev M.F.Axundzadənin yaşadığı dövrün məişətini və həyat tərzini özündə yaşadır. Eyni həyətdə başqa bir tikili də var: sonradan – 1975-ci ildə inşa edilmiş bu binada böyük yazıçının həyat yolu və yaradıcılığına aid ekspozisiya yaradılıb.

Azərbaycanda bir çox ev muzeylərinin yaranmasında ulu öndər H.Əliyevin müstəsna rolu olmuşdur. Məhz Ümummilli liderin diqqət və qayğısı nəticəsində Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi kimi nəhəng simaların memorial-xatirə və ev muzeyləri yaradılmışdır. Bu gün Azərbaycanda rəsmi olaraq fəaliyyət göstərən ev muzeylərinin sayı 40-dan çoxdur.

Bu sahəyə qayğı və diqqət ənənəsini hazırda Prezident İlham Əliyev layiqincə davam etdirir. Ölkə ərazisində yaradılan ilk ev muzeyinin yerləşdiyi Şəkidə ölkə Prezidentinin 27 oktyabr 2015-ci il tarixli sərəncamı ilə bütün Türk dünyasının sevilən şairi Bəxtiyar Vahabzadənin ev muzeyi yaradılmış, beləliklə Şəkidəki rəsmi ev muzeylərinin sayı dördə çatmışdır. Eləcə də digər şəhər və rayonlarda bu diqqət və qayğı hiss olunmaqdadır.

Muzeylər dünəni bu günə, bu günü sabaha aparan, milli-mənəvi, mədəni dəyərləri yaşadan müqəddəs məkanlardır. Onlar bizim dünənimiz deyil, sabaha aparan işıqlı yolumuzdur. B.Vahabzadə M.F.Axundzadəyə həsr etdiyi "Xamnədən Şəkiyə" adlı əsərində onu günəşə bənzədir. Günəşə bənzədilən M.F.Axundzadənin ev muzeyi isə Azərbaycanın memorial muzeylərinin dan ulduzu, ilkidir. Yaradılmasından 85 il ötməsi sadəcə bir muzeyin yubileyi deyil, eyni zamanda Azərbaycan mədəniyyətinin bayramıdır.

***Zəminə RƏSULOVA***

Yazıçı və zaman

**Natiq Məmmədli imzası ədəbiyyatsevərlərə yaxşı tanış olan yazıçıdır. Onun "Ləyaqət düsturu", "Körpüdə ümid", "Qəhrəmanım sənsən", "Sev" adlı hekayə topluları və romanları mövzu rəngarəngliyi qədər, dinamikası ilə də seçilir.**

Yazıçının hekayələri nəinki oxucu rəğbəti qazanıb, həm də yerli və beynəlxalq müsabiqələrdə ədəbiyyatımızı layiqincə təmsil edən bədii mətnlər kimi də ədəbiyyat tariximizə daxil olub. "Dolma" hekayəsi Nəsimi Milli ədəbiyyat mükafatına layıq görülüb. "Bekketə salam" hekayəsi türkdilli ölkələrin yazarları arasında keçirilən Mahmud Kaşğarlı beynəlxalq hekayə müsabiqəsinin milli seçim turunda 2-ci mükafatı qazanıb.

Natiq Məmmədli ədəbi gündəmimizdə aktual olan mövzulara öz baxış bucağından yanaşmağı bacaran nasirdir. Onun "Şuşa dumanı" hekayəsi Vətən müharibəsindəki zəfərimizdən öncə qələmə alınıb və o zaman işğalda olan Şuşa obrazı həmin dövr ədəbiyyatında təzahür edən analoji təsvirlərdən fərqlənir, yazıçı məlum həsrətin tam fərqli rakursdan ifadəsini təqdim edir.

# Həyat gerçəkləri realizm güzgüsündə



Ömrünün professional məqamını jurnalistika ilə bağlayan Natiq Məmmədlinin obrazlar qalereyasında media ilə, qəzetçiliklə bağlı obrazlar özünəməsus yer tutur. Yazıçının "Yiyəsiz baş" hekayəsi bu qəbildəndir. Hekayədə əsas vurğulanan məqam jurnalist etikası, peşəkarlıq və "xəbər ovu" kəsişməsidir. Əslində, hekayənin adındakı "yiyəsiz baş" ifadəsi mətndə təsvir olunan qətl hadisəsi ilə deyil, qeyri-peşəkar jurnalistlərlə bağlıdır. Peşəkarlığı xırda məişət məmnunluğuna dəyişəndə mükəmməl xəbər, məlumat hazırlamaq qabiliyyətinə malik jurnalist də öz mənəviyyatını qurban verərək sadəcə ağlın, düşüncənin, istedadın tərk etdiyi "yiyəsiz başa" çevrilir.

Natiq Məmmədlinin "Körpüdə ümid" adlı debüt romanı baş qəhrəman olan Ümid adlı uşağın məsumluğu və Pirdəlinin "dəliliyi" prizmasından gerçəkliyin dərki kimi fəlsəfi bir məqamı bədii kontekstdə işıqlandırır. Müəllif uşaqla Pirdəlinin başqaları üçün əlçatmaz olanı görüb eşitməsinə imkan verən dünyagörüşünün saflığını ruhuna maddi dünyanın kəsafəti hopmuş insanların çirklənmiş dünyagörüşü ilə qarşı-qarşıya qoyur. Romanda cəmiyyətin qanunlarına kor-koranə boyun əyərək öz fərdiyyətini itirən insanın maddi həyata uyaraq şüurun diktə etdiyi qanunlara tabe olmaqla mənəvi ilə, təhtəlşüurla əlaqəni itirməsi vurğulanır. Bu çərçivəyə, qılafa sığmayanlar cəmiyyət tərəfindən "dəli" elan olunur və rədd edilir. Təhtəlşüurun qanunları ilə yaşayan, şüuru inkar edən Pirdəli obrazı bu sosial normaya müqavimət simvoluna çevrilir, dünyanın "normal" və "doğru" qavranılması arasındakı faciəvi ikitirəliyi vurğulayır.

Realizmlə magik realizmin qovşağında dayanan "Körpüdə ümid" romanı 2015-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəsr nominasiyası üzrə "Qızıl kəlmə" mükafatını alıb. Əsər 2018-ci ildə Türkiyədə də işıq üzü görüb.

Natiq Məmmədlinin 2021-ci ildə çap olunmuş, "Yalnız sevənlər anlar" epiqrafı ilə oxuculara təqdim edilən "Sev" romanı iki gəncin məhəbbət hekayəsi fonunda insanın mənəvi seçimlərinin təzadlı dünyagörüşləri, dini doqmalar, nəfs və savaşlar kontekstində necə formalaşdığının bədii planda həllini təqdim edir və əsərdə istənilən məqamda sevgini seçmənin, ona sayğı ilə yanaşmanın insanlığın gələcəyə miras kimi ötürə biləcəyi bəşəri dəyərlərdən ən önəmlisi olduğu vurğulanır.

Romanın qəhrəmanları olan fərqli dinlərə və mədəniyyətlərə mənsub iki gənc – Səid və Müjdə sevgilərinin həyəcanını hiss etdikləri ilk andan daxili mənəvi çəkişmə, sevgi və vətən arasında seçim, ailəvi münaqişələr, cəmiyyətin gözləntiləri, dini qadağalar, milli kimlik kimi dərin konfliktlərlə üzləşirlər. Əsər 2018-ci ilin yanvar ayında Bakıda miqrasiya xidmətində işləyən əsas narratorun düşüncələri ilə başlayır. Məhz Sarı Qarayev adlı bu məmurun öz yazıçı dostuna Səid və Müjdə sevgisini nəql etməsi ilə yeni, interkultural kontekstli bir sevgi romanı yaranır. Romandakı hadisələrin müxtəlif məkanlarda – Bakı, Banqkok və Şri-Lankada cərəyan etməsi mövzunun müxtəlif mədəniyyətlər və sosial kontekstlərdə açılmasına imkan verir.

Natiq Məmmədli romanda "Yaxşı və Aşıq" məhəbbət dastanımızla paralellər aparır, lakin bu paralellər fərqli bədii priyomla gerçəkləşdirilir. Məhz adını Sarı Aşıqdan alan miqrasiya məmuru Sarı Qarayevin bu sevgi hekayətinin qəhrəmanları ilə rastlaşmasındakı təsadüfün sirri vasitəsilə Müjdə Səid məhəbbətinin sakura möcüzəsini buta verilmiş aşiqlərin dastanının mistik gücü ilə birləşdirir.

Natiq Məmmədlinin "Sev" əsəri postmodern poetika, mistik realizm elementləri, gerçək həyat lövhələri, irfan-folkor obrazları və fəlsəfi qatlarla zəngin polifonik roman kimi müstəqillik dövrü ədəbiyyatımıza daxil olub.

Yaradıcılığı mövzu, janr, ədəbi cərəyan baxımından rəngarəng olan yazıçı dramaturgiyada da qələmini sınamışdır. Natiq Məmmədli nəsrində təzahürlərini izlədiyimiz absurdizm onun dramaturgiyasında daha ardıcıl şəkildə görünür. Onun "Dumana bürünmüş", "Əmanət", "Müqəvva" pyesləri Azərbaycan absurd teatrının fonduna daxil olan dəyərli ədəbi nümunələrdir. Bu pyeslər içində "Dumana bürünmüş" pyesi xüsusilə seçilir.

Müəllifin özü də müsahibələrinin birində bu pyesin yaradıcılığında özəl yeri və önəmini vurğulayır: "Bu pyes Şuşanın azad olunmasından 7–8 il əvvəl yazılıb. Orada da insanlar Qalaya – Şuşaya qayıtmaq istəyirlər. Həmin insanlar qalalarını itirdikləri üçün özlərini də itiriblər. Qalaya qayıtmaq istəyən insanlar ora dumanla qayıdırlar. Duman, ümumiyyətlə, çox sevdiyim bir elementdir. Bu element mənim çoxköməyimə gəlir. Ədəbiyyatda duman elementi çox işlənib. Kafkanın əsərlərində Praqa dumanı var, rus ədəbiyyatında Peterburq dumanı var, ingilis ədəbiyyatında London dumanı var. Mənim ən çox sevdiyim duman öz dumanımızdır, Şuşa dumanıdır. Bu dumanın yaradıcı gücü digər dumanlardan heç də az deyil". Qeyd edək ki, bu pyes 2017-ci ildə "Səda" tədris teatrında Mədəniyyət və İncəsənət Universitetinin Musiqili teatr aktyoru fakültəsi tələbələrinin iştirakı ilə səhnələşdirilib.

Natiq Məmmədlinin yaradıcılığı bir kaleydoskop kimi həm varlığa dair dərin fəlsəfi düşüncələri, həm də gündəlik həyatın realist eskizlərini əks etdirir. Onun əsərlərində realizm absurdizmlə, postmodernlə, magik realizmlə yanaşı təzahür edir, bədii palitrasındakı parlaq çalarlar müxtəlif yaş kateqoriyasına aid olan, fərqli peşə sahiblərinin daxili aləmini, hisslərini ustalıqla bədii mətnə çevirir.

***Elnarə QARAGÖZOVA,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Beynəlxalq olimpiadada 5 medal

**Şimali Makedoniyanın Struqa şəhərində Yeniyetmələrin 29-cu Balkan Riyaziyyat Olimpiadasında 9-culardan ibarət milli komandamız uğurla çıxış edərək 1 qızıl, 2 gümüş və 2 bürünc olmaqla, ümumilikdə, 5 medal qazanıb.**



Bakıdakı 287 nömrəli "Zəkalar" liseyinin şagirdi Fərhad İsgəndər qızıl medal, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin şagirdləri Hüseyn Zeynalov və Fərrux Burzu gümüş medal, Şəki şəhərindəki kimya-biologiya təmayüllü liseyin şagirdi Turan Musayev və Bakı şəhəri, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin şagirdi Murad Səfərli isə bürünc medal qazanıblar.

Qeyd edək ki, qızıl medalın sahibi olan şagirdimiz Fərhad İsgəndər olimpiadada verilən bütün tapşırıqları düzgün həll edərək, maksimum nəticə – 40 bal toplayıb və olimpiadanın "First of first" ("Birincilərin birincisi") nominasiyasında mükafata layiq görülüb. Daha öncə Fərhad Özbəkistanda Əl-Xarəzmi Riyaziyyat və İnformatika Olimpiadasında da qızıl medala sahib olmuşdu.

***XQ***

# Sənət adamları süni intellektə rəqib yox, tərəfdaş kimi yanaşmalıdırlar

**Müsahibimiz Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş mütəxəssisi Kəmalə Qurbanovadır**



**– Bəzi sənət adamları, mütəxəssislər iddia edirlər ki, texnologiya incəsənətin ruhunu öldürür. Siz necə hesab edirsiniz, süni intellekt kulturologiyada yaradıcı ifadə imkanlarını genişləndirir, yoxsa məhdudlaşdırır?**

– Düşündürücü sualdır... Bəzi sənət adamları haqlı olaraq narahatdırlar ki, texnologiyanın, xüsusən də, süni intellektin getdikcə daha çox sahəyə nüfuz etməsi ilə sənətin insani mahiyyəti aradan qalxa bilər. İncəsənət tarixən insanın daxili dünyasının – hisslərin, təəssüratların, ağrıların və sevinclərin dillə, rənglə, səslə və hərəkətlə danışan forması olub. İndi isə bu ifadəni alqoritmlər "yaradır", bu da təbii olaraq bəzi yaradıcıları narahat edir.

Amma gəlin məsələyə başqa tərəfdən baxaq: süni intellekt bir rəqib deyil, alətdir. Tarix boyu texnologiya incəsənəti dəyişib. Məsələn, fotoqrafiyanın icadı rəssamlığın istiqamətini dəyişdi, kompüterlər rəqəmsal incəsənəti meydana gətirdi. Süni intellekt də bu silsilənin növbəti halqasıdır. O, sənətçinin ideyalarını vizuallaşdırmasına, yazıçıya süjet variantları təklif etməsinə, rejissora səhnəni kompüterdə əvvəlcədən qurmasına kömək edir. Bütün bunlar yaradıcı prosesi həm sürətləndirir, həm də daha çox insan üçün əlçatan edir.

Əlbəttə, süni intellektin yaratdığı əsərlərdə bəzən "ruh" çatışmır. Çünki o, hiss etmir – o, təqlid edir. Amma bu təqlid də yeni estetik və konseptual istiqamətlərə yol açır. Məsələn, insan və maşın arasında əməkdaşlıqdan doğan hibrid sənət formaları artıq aktual kulturoloji müzakirələrə



səbəb olur. Burada əsas məsələ süni intellektin sənətə nə verdiyi yox, bizim ondan necə istifadə etdiyimizdir.

Yəni süni intellekt sənəti məhdudlaşdırmır, sadəcə onu dəyişir. Bu dəyişikliklərə uyğunlaşmaq isə həm yaradıcı düşüncə, həm də mədəni tənqid üçün yeni meydanlar açır. Əgər biz texnologiyanı rəqib kimi yox, tərəfdaş kimi görsək, onunla birgə daha dərindən hiss edən, daha geniş danışan sənətlər yarada bilərik.

**– Bir rəqqasın, aktyorun və ya rejissorun jestlərlə yaratdığı obraz süni intellekt üçün nə dərəcədə başadüşüləndir? Texnologiya bədən dilini "duya" bilərmi?**

– Kulturologiya sahəsində də jestlərin əvəzolunmaz rolu vardır. Peşəkar aktyor qeyri-verbal kommunikasiya qabiliyyətinə malik olmalıdır. Məsələn, Çarli Çaplin, Edna Pörviens və digər aktyorlar yaratdığı səssiz obrazlarla dünya şöhrəti qazanmışlar. Rəqqas jest artikulyasiyası ilə obraz yaradır. Xoreoqraf bədii əsəri jestlər ilə canlandırır və ictimaiyyətə təqdim edir. Bədən jesti musiqinin müşayiəti ilə birləşərək, ictimaiyyətin emosional qavrayışını gücləndirir.

Bəli, süni intellekt müəyyən dərəcədə rəqqasın və ya aktyorun jestlərlə yaratdığı obrazı başa düşə bilir, lakin bu anlama insan səviyyəsində tam və incə bir "duyğu" deyil. Sİ, xüsusən də dərin təlim alqoritmləri, kamera vasitəsilə qeydə alınan rəqqasın və ya aktyorun hərəkətlərini və pozalarını təhlil etmək işində yüksək səviyyəyə çatıb. O, müəyyən hərəkətləri və mimikaları vizual olaraq tanıya bilir. Süni intellekt, hərəkətlərin ardıcıllığını və zamanla necə dəyişdiyini təhlil edərək sadə emosional vəziyyətləri və niyyətləri müəyyən edə bilər. Məsələn, sürətli və enerjili hərəkətlər həyəcanı təmsil edə bilər.

Bəli, süni intellektın jestləri "duyma" səviyyəsində məhdudiyyətlər vardır. Jestlər təbii şəkildə yaranan vizual bir dildir. Tarixən müxtəlif ölkələrin özünəməxsus jest dilləri formalaşmışdır. Hətta bir ölkə daxilində müxtəlif regional jest dilləri belə mövcuddur. Eyni zamanda, müəyyən jestlər var ki, müxtəlif bölgələrdə fərqli məna kəsb edir. Texnologiyanın jestin məcazi və ya simvolik mənasını deşifrə edə bilməsi çətindir. İncəsənətdə jestlər çox vaxt sənətkarın subyektiv hisslərini və emosiyalarını ifadə edir. Süni intellektın emosional empatiya qabiliyyəti yoxdur.

**– Jestlərin tanınması texnologiyası, sadəcə, əl hərəkətlərini oxumaqdır, yoxsa bu, həm də insan duyğularını anlamaq üçün yeni bir imkandır?**

– Məlum olduğu kimi, jest, insanın duyğularını, düşüncələrini və niyyətlərini sözlər olmadan ifadə etmək üçün istifadə etdiyi bədən hərəkətləridir. Jestlər əsasən əllər, qollar, üz ifadələri və digər bədən hissələrinin müəyyən hərəkətləri vasitəsilə həyata keçirilir. Jestlər şifahi ifadəyə əlavə məna qatır və nitqi aydınlaşdırır. Psixoloqların fikrinə görə, səsli dildə danışan insanlar informasiyanın orta hesabla 60%-ni jestlərlə, 40%-ni isə sözlərlə ötürürlər.

Jestlərin tanınması texniki cihazları və ya "ağıllı" sistemləri idarə etməyə imkan verən bir sahədir. Bu texnologiya ənənəvi daxiletmə üsullarına (klaviatura, sensor ekran və s.) alternativ olaraq daha təbii və intuitiv qarşılıqlı əlaqə təklif edir. Jestlərin tanınma texnologiyası kulturologiya, səhiyyə, robototexnika, avtomobil, təhsil və sənaye avtomatlaşdırılması kimi bir çox müxtəlif sahələri inqilabi sıçrayışla inkişaf etdirmişdir.

Jest tanıma sistemləri adətən kameralar, sensorlar və dərin öyrənmə alqoritmlərinin kombinasiyasından istifadə edir. Kameralar və sensorlar istifadəçinin hərəkətlərini qeydə alır və bu məlumatlar daha sonra mürəkkəb alqoritmlər vasitəsilə mənalı əmrlərə çevrilir. Bu yolla istifadəçilər cihazları idarə edə, virtual reallıq mühitlərində qarşılıqlı əlaqə qura və ya əl jestləri, bədən hərəkətləri və ya üz ifadələri ilə robotları yönləndirə bilərlər.

Yeni süni intellekt modelləri jestləri, mimikaları, bədən posturasını və hətta mikroifadələri bir yerdə analiz edərək insanın emosional vəziyyətini təxmin etməyə çalışır. Məsələn, əllərin titrəməsi, qolların sıxılması, ya da başın aşağı sallanması təkcə fiziki deyil, eyni zamanda, psixoloji vəziyyətin göstəriciləridir. Bu texnologiyalar, xüsusilə psixologiya, sosial robotika, sağlamlıq və hətta təhsil sahələrində insanın emosional halına reaksiya verə bilən sistemlər yaratmaq üçün çox dəyərlidir.

Yəni jest tanıma artıq sadəcə "hərəkəti görmək" deyil, həm də "hissi sezmək" mərhələsinə keçib. Bu, texnologiyanın insani anlamaya doğru atdığı böyük addımlardan biridir. Təbii ki, insan qədər dərindən və kontekstdən asılı olaraq hiss etmək hələ çətindir, amma bu istiqamətdə irəliləyiş, kulturologiyada da yeni perspektivlər yaradır.

**– Azərbaycanın mədəni irsi süni intellektin köməyi ilə necə rəqəmsallaşdırılır və bu, bizim mədəni kimliyimizə necə təsir edə bilər?**

– Süni intellekt sistemləri mədəni irsə dair məlumatları, o cümlədən tarixi abidələri, musiqi, rəqs, ədəbiyyat və digər mədəniyyət nümunələrini elektron formatda toplamağa imkan verir. İnkişaf etmiş kompüter görmə və səs tanıma sistemləri mədəni irs nümunələrinin (məsələn, fotoşəkillərin, videoların, musiqi parçalarının) rəqəmsal bazalarda təsnifatını aparmağa imkan yaradır.

Bu proses istifadəçilərin mədəni irs nümunələrinə əlçatanlığını təmin edir. Rəqəmsallaşdırma mədəni irsin daha geniş kütlə tərəfindən tanınmasına imkan yaradır. Süni intellekt mədəni irsin müxtəlif aspektlərini, məsələn, musiqi tərzlərini, ədəbiyyat janrlarını təhlil edərək yeni tədqiqat imkanları yaradır. Bu, mədəni irsin daha dərindən öyrənilməsinə və yeni perspektivlərin açılmasına səbəb olur. Mədəni irsin rəqəmsal formatda saxlanması onun gələcək nəsillərə çatdırılmasını təmin etməklə yanaşı, həm də onu qoruyur. Rəqəmsal mədəni irs həm də mədəniyyət nümunələrinin beynəlxalq müstəvidə tanınmasına imkan yaradır.

Süni intellekt texnologiyaları Azərbaycanın mədəni irsinin rəqəmsallaşması prosesinə əhəmiyyətli töhfələr vermişdir. Bu istiqamətdə görülən işlərə tarixi abidələrin, əlyazmaların, musiqi nümunələrinin, xalçaların, milli geyimlərin və digər mədəniyyət obyektlərinin rəqəmsal formatda toplanması misal göstərilə bilər. Rəqəmsallaşma prosesi milli mədəni nümunələrin təsnif edilməsi və kataloqlaşdırılması prosesini sürətləndirir və səmərəli edir. Onlar üçün müvafiq meta-məlumatlar yaradılır və rəqəmsal bazalara daxil edilir. Səs tanıma sistemləri folklor nümunələrinin və musiqi parçalarının transkripsiyasına kömək edir.

Azərbaycanın mədəni irsinin rəqəmsallaşması sayəsində mədəni irs nümunələrinin İnternet üzərindən axtarışı mümkün olmuşdur. Ölkəmizdə milli-mədəni dəyərlərə əlçatanlığı təmin etmək üçün onlayn portallar, virtual muzeylər və mobil tətbiqlər yaradılır. Süni intellekt tərəfindən dəstəklənən axtarış sistemləri istifadəçilərə maraqlandıqları mədəniyyət obyektləri haqqında tez və dəqiq məlumat tapmağa kömək edir. Virtual turlar, interaktiv sərgilər və mobil tətbiqlər vasitəsilə tarixi abidələr və mədəniyyət nümunələri haqqında maraqlı məlumatlar təqdim edilir. Süni intellekt tərəfindən yaradılan kontent sosial media platformalarında və digər kanallarda yayılaraq milli mədəni irsimizə olan marağı artırır və sərhədləri aşaraq dünyaya tanıdılır.

Azərbaycanın milli mədəni irsi süni intellekt texnologiyalarının dəstəyi ilə tədricən rəqəmsallaşdırılır. Buna bir neçə misal göstərmək olar: Azərbaycan Milli Arxiv İdarəsi tərəfindən milli arxiv fondunun qorunması və əlçatanlığının təmin olunması məqsədi ilə tarixi sənədlər, fotoşəkillər, video və audio materiallar rəqəmsallaşdırılır; Milli İncəsənət Muzeyi, Azərbaycan Tarix Muzeyi və digər böyük muzeylərdə eksponatların rəqəmsallaşdırılması istiqamətində işlər aparılır; Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutu nadir əlyazmaların qorunması və gələcək nəsillərə çatdırılması üçün rəqəmsallaşdırılır; Folklor, musiqi irsi və digər şifahi xalq yaradıcılığı nümunələri toplanılır, rəqəmsallaşdırılır və arxivləşdirilir. Həmçinin, dağılmış və ya zərər görmüş abidələrin virtual rekonstruksiyası da həyata keçirilir.

Süni intellekt ilə bir neçə tarixi abidənin və mədəniyyət nümunəsinin 3D modelləri yaradılmışdır. 3D versiyası hazırlanmış Qız Qalası Bakının ən möhtəşəm və əzəmətli tarixi memarlıq abidəsidir. Həmçinin Şirvanşahlar Sarayı Kompleksində kompleksin 360 dərəcəli 3D modeli hazırlanmışdır. İçərişəhərdə təşkil olunmuş Milli Xalça Festivalında 19-cu əsrə aid qədim xalçalar 3D formatında nümayiş olunmuşdur. Bu misallar göstərir ki, Azərbaycanda bu sahədə aktiv işlər görülür. Gələcəkdə süni intellektin mədəni irsimizin qorunması, təbliği və tədqiqi sahəsinə daha geniş tətbiq olunacağı gözlənilir.

**– Necə düşünürsünüz, gələcəyin kulturoloqu həm də proqramçımı olmalıdır? Gənc incəsənət nümayəndələri süni intellektlə necə "dostlaşa" bilərlər?**

– Kulturologiya sahəsində yetişən kadrın süni intellekt texnologiyaları ilə bağlı biliklərə yiyələnməsi zamanın tələbidir. Süni intellekt mədəniyyət sahəsinin nizam sistemini inkişaf etdirmişdir. Mədəni dəyərlərin və sərvətlərin öyrənilməsi, qorunması, yaradılması, yayılması kimi proseslər rəqəmsallaşmışdır. Mədəni sərvətlərin dövlət qeydiyyatına alınmasına imkan verən informasiya sistemləri və milli kulturoloji korpus yaradılmışdır.

Ümimiləşdirərək deyə bilərik ki, informasiyanın kodlaşdırılması və saxlanması, qrafik məlumatların yaradılması və redaktəsi, video və audio məlumatların yaradılması və səsləndirilməsi, animasiyaların və interaktiv təqdimatların yaradılması, ekranlaşdırılması kimi işlər süni intellektin tətbiqi ilə reallaşır. Müasir cəmiyyətə elmi idrak metodlarının əsaslarını bilən, yaradıcılığa, tədqiqata həvəsli, peşəkar hazırlığını mütəmadi olaraq təkmilləşdirən, innovativ texnologiyalardan praktiki bacarığı olan və günbəgün inkişaf edən süni intellekt sahəsində biliklərə malik mütəxəssis lazımdır.

Kulturologiya sahəsində hazırlanan mütəxəssislərin təhsil proqramına süni intellekt texnologiyaları ilə bağlı biliklərin daxil edilməsi zamanın tələbidir və kadr hazırlığı sahəsində aktual məsələdir. Bunun üçün süni intellekt texnologiyaları kontekstində yeni tədris proqramı hazırlanmalı, tədris otaqları yeni texnologiyalarla təmin olunmalıdır. Süni intellekt texnologiyalarının əhəmiyyəti kulturologiya sahəsində mütəxəssislərə praktiki olaraq təbliğ olunmalı və innovativ təlimlər təşkil olunmalıdır. Süni intellekt texnologiyalarından səmərəli istifadə qaydaları öyrədilməlidir.

Süni intellekt texnologiyaları istiqamətində əldə olunan bilik mütəxəssisin yaradıcılıq potensialının artmasına, onlayn resurslardan faydalanmasına, kütləvi informasiya vasitələrində tanınmasına asanlıqla yol açır. Özünü dinləmə imkanının olması, yaradıcılığının onlayn resurslarda qiymətləndirilməsi və tənqidi fikirlərdən bəhrələnərək özünütəhlil edə bilməsi sənətkar kimi yetişməsində mühüm addımdır. Bütün bu imkanlardan səmərəli istifadə edən gənc özünün yaradıcı potensialının artan dinamikasını müşahidə edəcək.

***Müsahibəni hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Replika

# Bəs ermənilərə niyə hiddətlənmirdiniz, Mixalko?

**Haqsızlığa, ədalətsizliyə qarşı çıxmaq, bu əməlləri törədənlərə etiraz səsini ucaltmaq həm hüquqi, həm də humanizm prinsipləri baxımından təqdirəlayiq haldır. Amma gərək bu səs selektiv üsulla deyil, hər zaman ucalsın.**



Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko Rusiyada etnik azərbaycanlılara qarşı "qeyri-insani rəftar" barədə xəbərlərdən "dərin narahatlıq" keçirdiyini ifadə edib. O, narahatlığını özünün "Facebook" səhifəsində izləyicilərlə paylaşmağı da unutmayıb: "Rusiya təhlükəsizlik qüvvələri tərəfindən bu ölkədə etnik azərbaycanlılara qarşı zorakılıq, işgəncə və qeyri-insani rəftar, hətta ölümlə nəticələnən məlumatlar məni dərindən narahat edir. Fikirlərim qurbanlar və onların ailələri ilədir".

Demokratik dəyərlərə, insan haqqlarına həssas yanaşan bir avropalı olaraq Peter Mixalkonu qitənin ən böyük təsisatının Azərbaycandakı elçisi kimi də başa düşmək mümkündür. Başa düşülməyən mətləb ondan ibarətdir ki, Aİ-nin Azərbaycandakı səfiri nədənsə Bakıda məhkəməsi davam edən təqsirləndirilən şəxslər – ermənilər tərəfindən azərbaycanlıların vəhşicəsinə işgəncələrə məruz qalması və öldürülməsi faktları ilə bağlı da oxşar mövqe bildirmir. Axı, ortada kifayət qədər fakt və sübut, canlı şahidlər var.

Cənab Mixalkonun yadına salaq ki, söhbət Azərbaycan ərazisində qeyri-qanuni yaradılmış qurumun nümayəndələrindən, separatçı rejimin mütəşəkkil cinayətkar qruplaşmasının üzvlərindən gedir. Onlar təkcə rəsmi Bakının deyil, həm də digər ölkələrin təsdiqlədiyi rəsmi məlumatlarına əsasən, 1990-cı illərdə çoxsaylı qətllərdə iştirak ediblər. Erməni separatçıların milli, dini ayrıseçkilik zəminində törətdikləri cinayət əməlləri barədə bu gün bütün dünya bilir. Bəs niyə Avropa İttifaqı bu danılmaz həqiqətə reaksiya bildirməyə tələsmir? Bunun əvəzində qurumun Bakıdakı nümayəndəsi Peter Mixalko vaxtını daha "vacib işlərlə", misal üçün, Azərbaycanda müxalifət partiyalarının rəhbərləri ilə görüşlərə həsr edirdi.

Bəli, "kollektiv Qərb"in Cənubi Qafqazda öz maraqlarını güddüyü sirr deyil. Aİ də bu missiyanı yerinə yetirən qurumlardan biridir. Məgər Aİ rəsmiləri erməni silahlı quldurlarının Azərbaycanın Qarabağ bölgəsində törətdikləri qanlı olaylardan xəbər tutmurdular? Əlbəttə tuturdular, amma susurdular. İndi isə qanun pozucusu, cinayətkar qismində Rusiya çıxış edəndə dərhal etiraz səsini qaldırır. Nəinki etiraz edir, hətta Rusiyada baş verənlərə hiddətlənir. Əlavə şərhə ehtiyac qalmadı...

***İ.HƏSƏNQALA***
***XQ***


# Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə

*quluğa qəbulla bağlı növbəti*

# MÜSABİQƏ ELAN EDİLİR

Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin kadr korpusunun açıq müsabiqələr əsasında yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik mütəxəssislərlə komplektləşdirilməsi üzrə tədbirlər davam etdirilir.

Hazırda Mərkəzin Müsabiqə Komissiyası tərəfindən Gəncə regional bölməsində kimya ixtisası üzrə vakant ştat vahidinin olması ilə bağlı növbəti açıq müsabiqə elan edilir.

Göstərilən ixtisas üzrə vəzifədə işləmək arzusunda olan, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun tələblərinə cavab verən, ali təhsilli, zəruri nəzəri və peşə hazırlığına malik Azərbaycan Respublikasının vətəndaşları müsabiqəyə dəvət olunurlar.

Müraciət edənlər 2025-ci il iyulun 1-dən sentyabrın 1-i saat 18.00-dək müəyyən olunmuş ərizə formasını və digər zəruri sənədləri aşağıda göstərilən ünvanlarda təqdim edə bilərlər:

- Məhkəmə Ekspertizası Mərkəzinin inzibati binası

(Bakı şəhəri, Xaqani küçəsi 24, telefon- (012) 498-09-71);

- Məhkəmə Ekspertizası Mərkəzinin Gəncə regional bölməsi

(Gəncə şəhəri, Kəpəz rayonu, V.Xuluflu küçəsi 11, telefon-(+99455) 424-58-00);

- Məhkəmə Ekspertizası Mərkəzinin Şəki regional bölməsi

(Şəki şəhəri, Salman Mümtaz küçəsi 316, tel: (+99470) 297-18-11);

- Məhkəmə Ekspertizası Mərkəzinin Şirvan regional bölməsi

(Şirvan şəhəri, 20 yanvar küçəsi 16, telefonlar -(02121) 5-55-91), (+99455) 782-61-51);

- Məhkəmə Ekspertizası Mərkəzinin Lənkəran regional bölməsi

(Lənkəran şəhəri, Qala Xiyabani küçəsi 13, telefonlar- (02525) 5-01-36, (+99455) 282- 82-85);

- Məhkəmə Ekspertizası Mərkəzinin Sumqayıt regional bölməsi

(Sumqayıt şəhəri, Nəriman Nərimanov küçəsi, 29- cu məhəllə, 7/22,

Telefon- (+99455) 710-25-31).

Müsahibədə iştirak etmək üçün qanunvericiliyə əsasən tələb olunan sənədlərin siyahısı və imtahana hazırlıqla bağlı "Yaddaş kitabçası" mərkəzin internet səhifəsində (www.expert.gov.az) "İşə qəbul" bölməsində yerləşdirilib. Bu sənədlər mərkəzə və onun regional bölmələrinə müraciət edənlərə də təqdim olunacaqdır.

Mərkəzin internet səhifəsindən və eləcə də yuxarıda göstərilən telefon nömrələrinə zəng etməklə bütün suallarla bağlı operativ informasiya almaq mümkündür.



# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*"Microsoft" lisenziyalarının satın alınması üçün*

# AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "Microsoft" lisenziyaların satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 16 iyul 2025-ci il saat 14.00-dır .

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 132 (30826) 2 iyul 2025-ci il, çərşənbə

## İDMAN

### DÇ-2026-da fasilə artırıla bilər

**Növbəti il Kanada, Meksika və ABŞ-ın birgə evsahibliyi ilə keçiriləcək futbol üzrə Dünya çempionatında yeni qayda tətbiq oluna bilər. Oyunlar zamanı fasilə müddəti 15 dəqiqədən 20 dəqiqəyə qədər artırıla bilər.**



Beynəlxalq Peşəkar Futbolçular Assosiasiyaları Federasiyası (FIFPro) bununla bağlı təklif irəli sürüb. Buna səbəb mundialın keçiriləcəyi ölkələrdə isti hava şəraitinin olmasıdır. FIFPro-nun qaydasına görə, temperatur 28 dərəcədən yüksək olduğu halda matçlar təxirə salınmalı və ya başqa vaxta keçirilməlidir.

Qeyd edək ki, dünya çempionatı 2026-cı il iyunun 11-dən iyulun 19-dək təşkil olunacaq.

### Paytaxtda bilyard çempionatı




**Azərbaycan Bilyard Federasiyasının, eləcə də Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Pool Nine Ball" üzrə Bakı şəhər çempionatına yekun vurulub. Yarışda peşəkar oyunçular güclərini sınayıblar.**

Kişilər arasında Murad Fəttayev qızıl, Elnur Nuriyev gümüş, Ruslan Əmiraslanov ilə Orxan Rzayev isə bürünc medal qazanıblar.

Qadınların yarışında Mina Nəsirova birinci, Zəhra Abbasova ikinci, Valeriya Konkina və Zəminə Yolçuzadə isə üçüncü yerləri tutublar.

### "Gəncə" heyətini gücləndirib

**Qadın voleybolçulardan ibarət "Gəncə" klubu heyətini gücləndirib. Belə ki, ABŞ-dan olan idmançı İzabell Morqanla bir mövsümlük müqavilə imzalanıb. Xatırladaq ki, amerikalı voleybolçu ötən mövsümü İsveçin "Qislaveds" klubunda keçirib.**

25 yaşlı oyunçu daha əvvəl ABŞ-nin "Villanova University", "Texas A M Corpus Christi University" və Puerto-Rikonun "Valencianas de Juncos" klublarında çıxış edib.




***M.HACIXANLI***
***XQ***

Elimizdən-obamızdan

# " Dönüm başınıza, barlı budaqlar..."

**Bir çiçəkli, kəpənəkli yaz günü... Oynayan şimşəyi, yağan yağışı bizdən öncə görən də, duyan da bağça-bağ olur. Görürsən ki, sübhün sakit vaxtı quşlar cəh-cəh deyir. Yenə güllər açıb, yenə yaz gəlib.**



Bunları daha yaxından görmək, duymaq üçün adamın özünün bir bağı-bağçası olsun gərək. Bağa baxarsan, gül bitirər, baxmazsan, bağlığını itirər. Sən bağa baxarsan, bağ da sənə baxar. Dürlü meyvə ağaclarının barından-bəhərindən barınarsan.

Mən uşaqlıq illərindən bu yana yarpaq, torpaq duyğusuna bürünmüşəm. Bağın-bağçanın, barın-bəhərin nə olduğunu yaxşı bilirəm. Bilirəm ki, əkib-becərdikcə, həm da ana torpağın təbiət ömrünü uzadırsan. Yarpaq da, torpaq da xoş əhvalda olur. Elə ki, xoş niyyətlə bağçadan gül dərirsən, özünü xoşbəxt görürsən.

Bizim həyətimizdə tək-tük meyvə ağacları vardı. Ona bağ demək olmazdı. Yediyimiz meyvələrin çiyidlərini həyətimizin bir küncündə torpağa basdırıb əkirdim, bağ salırdım. Torpağın qoynundan cücərib çıxan körpə şitilləri görəndə elə sevinirdim ki... Dönüb-dönüb öz əllərimlə əkdiyim körpə şitillərə baxmaqdan zövq alırdım. Mən böyüdükcə o nizamsız bağçam da böyüyürdü. Çəkdiyim əziyyətə görə lütf eliyib hər nübarından pay verirdi.

Bir gün atam mənim bağçama çöllərdən gətirdiyi tikanlardan çəpər çəkdi. Çəpər balaca bağçamı kənar müdaxilələrdən qoruyurdu. Mənim özümə inamım artırdı. Əziyyətim hədər getmirdi. Anam da bağçamdakı ağacları, gülləri öz balası kimi əzizləyib oxşayırdı. Ağacların və insanların bir-birilə nəzakətlə davranması ilahi sevgidən yaranır.

Pöhrə-pöhrə bəslədiyim bağımda ömür-ömür xatirələrim yaşayır. Hər gün intizarla gözləyirdim ki, bağım-bağçam şirin bara yetişsin. Əkdiyim ağacların tər çiçəkləri könül quşlarına, kəpənəklərə, bal arılarına, yamyaşıl kölgəli yarpaqları isə bağçamı ziyarətə gələn yaşıdlarıma qucaq açırdı. Ağaclarla şeir dili ilə danışırdım:



**Səni oxşayıram başla, çiyinlə,**
**Ağacdan üstümə səma axınsan.**
**Meyvə gələcəkli tər çiçəyinlə,**
**Kölgə yarpağınla mənə yaxınsan.**
**Yerə əyilmisən yenə qarşıdan,**
**O yarpaq duyğunu geyinim keçim.**
**Deyirəm, ay budaq, səni yaşadan**
**Qayğıyla torpağa əyilim keçim.**

Arzularımda yaşatdığım, ağacları ilə bərabər boy atdığım balaca bağçam çox şəfqətli və səxavətli idi. Heç vaxt verdiyi nübarın əvəzini gözləməzdi. Bağçamın şəfqəti, ağaclarımın səxavəti uşaq qəlbimə hopurdu.

Söhbət bağdan-bağçadan getdiyinə görə, uşaqlıq illərindən yaddaşımda xoş xatirələri ilə qalan dəyərli bir insanin özü və söhbəti-sözü yada düşdü. Özündən sonra xoş xatirələr qoyub gedib. Yaxşılıqları ilə yaddaşımda yaşayır. Ruhu şad olsun. O, vaxtilə kəndimizdə sovet sədri və sovxoz direktoru işləmiş, rəhmətlik Uğurlu Hüseynovdur. Adı kimi, gördüyü işlər də uğurlu alınırdı. Qədirbilən insan idi. Yaxşı işçinin qədir-qiymətini bilirdi. Onun atama xüsusi hörməti və inamı yaxşı işinə görə yaranmışdı.

Atam İkinci Dünya müharibəsinin iştirakçısı kimi, Qafqazda gedən döyüşlərdə yaralanmışdı, qazi idi. Müharibədən qayıtdıqdan sonra kolxozda briqadir işləyəndə də halal insan kimi hörmət qazanmışdı. Ahıl yaşlarında isə özümüzün mal-heyvanımızı çöldə-bayırda otarırdı.

Bir gün məktəbdən evə gələndə Uğurlu dayı məni mehribanlıqla salamladı. Sonra da əlavə etdi:

– Aslan dayıya (yəni atama) deyərsən ki, onu sovxozun bağına qarovulçu təyin etmişəm. Sabahdan işinin başında olsun. Bu xəbər ailəmiz üçün xoş bir sürpriz oldu. Kənddə danışırdılar ki, sovxozun bağının qarovulçusu olmaq üçün çoxları direktorun qəbuluna gedir, xahiş-minnət edir. Amma atam heç vaxt minnət götürən kişi olmadı.

Atam həm sovxozun meyvə bağının keşiyini vicdanla çəkirdi, həm də bağlar başında, arx qırağında mal-qaramızı otarırdı. Orada mal-heyvanı otarmaq üçün münbit şərait vardı. Necə deyərlər, ot dizə çıxırdı.

Atamın gecəsi-gündüzü bağda keçirdi. Onu yaxından tanıyanlar deyirdi ki, Aslan dayının qarovulçu olduğu bağa heç quş da səkə bilməz. Nəinki oğurluq, talançılıq ola...

Mən hər gün dərsdən sonra evdən atama yemək aparırdım. At belində, çiynində qoşalülə tüfəngi, ucaboylu, eşmə bığlı atam bağda – qarovul yerində qürurla, vüqarla gəzib dolaşırdı. Onun xarakterində sərtliklə yanaşı, ədalət hissi də güclü idi. Böyük bir ailə-ocağın başçısı kimi, balalarına yedirtdirdiyi halal çörəyinə bir tikə də haram qatmazdı.

... Həmin gün yenə atama yemək aparmışdım. Sovxozun direktoru Uğurlu dayı atamla birlikdə alma bağının ortasında söhbət edirdilər. Məni görəndə kefimi soruşdu, dərslərimlə maraqlandı. Söhbətimiz bağların barı ilə bağlı axar tapdı. Dedi:

–Sənin atan qeyrətli kişidir. Onun keşik çəkdiyi bağda bircə barlı budağın da "burnu qanamayıb". O, bağın qarovulçusu olandan bəri, hər il ağaclardan artıqlaması ilə məhsul götürürük.

Sonra da dönüb bir atama baxdı, bir bağa baxdı və böyük sevinc hissi ilə dedi:

– "Dönüm başınıza, barlı budaqlar!"

Əslində, Uğurlu dayının dediyi "Dönüm başınıza, barlı budaqlar!" kəlməsi atama minnətdarlıq duyğusundan irəli gəlirdi. Bu sözləri və onu dilə gətirən insanı, illər ötsə də, unutmaq olarmı?!

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

## Ordubadda gənclərin rəsm müsabiqəsi

**"Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Ordubad şəhərində gənclərin "VI Art Battle" rəsm müsabiqəsi keçirilib.**

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən mətbuata bildirilib ki, nazirlik tərəfindən təşkil olunan yarışmada onlayn qeydiyyatdan keçmiş gənclər bacarıqlarını nümayiş etdiriblər. Lazımi rəsm ləvazimatları ilə təmin olunan iştirakçılar müsabiqənin şərtlərinə uyğun olaraq Naxçıvanın tarixini, mədəniyyətini və ya təbiətini təcəssüm etdirən rəsmlər çəkiblər.

Qeyd edək ki, İnci Qənbərovanın əl işi münsif heyəti tərəfindən 1-ci yerə layiq görülüb. Səadət Həziyeva 2-ci, Nuray Qasımova isə 3-cü olub. Həmin gənclərə diplom və hədiyyələr, digər iştirakçılara isə fəxri fərmanlar təqdim olunub.



Müsabiqə gənclərin yaradıcılıq imkanlarının yüksəldilməsi, potensiallarının qiymətləndirilməsi və stimullaşdırıcı məqsədlərə xidmət edib.

***XQ***

*✓ **2024-cü il noyabrın 15-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Hacıyev Qabil Aslan oğlunun adına verilmiş şəhid ailəsi üzvünün 014579 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

Hava

## Dəyişkən buludlu, əsasən yağmursuz...

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bildirilib ki, mülayim şimal-qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-23, gündüz 26-29 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 18-22, gündüz 28-32, dağlarda gecə 5-10, gündüz 15-20 dərəcə isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi jurnalist Seyfəddin Hüseynliyə qardaşları

**ZİYƏDDİN VƏ HÜSEYN SƏFƏROVLARIN**

Rusiyanın Yekaterinburq şəhərində faciəli surətdə qətlə yetirilmələrindən kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 2827**
**SİFARİŞ 1256**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Vaqif BAYRAMOV**
**Çapa imzalanmışdır 00:00**